**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

# TEZİSLƏR

***6 – 7 mart 2023-ci il***

**"Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı"**

**Beynəlxalq Elmi Konfrans**

# ТЕЗИСЫ

***6 – 7 марта 2023 года***

**"Женщины в меняющемся мире: восточный и западный взгляды"**

**Международная Научная Конференция**

# ABSTRACTS

***6 – 7 March 2023***

**“Women in a Changing World: Eastern and Western Views”**

**International Scientific Conference**

**Bakı – 2023**

**Təşkilat komitəsi:** akademik **Gövhər Baxşəliyeva**
f.ü.f.d., dosent **Ruhəngiz Cümşüdlü**
f.ü.f.d., dosent **Səbinə Səmədova**
f.ü.f.d. **Vüqar Məmmədov**

**"Dəyişən dünyada qadın: Şərq və Qərb baxışı" mövzusunda Beynəlxalq Elmi Konfransın tezisləri.** Bakı, Elm, 2023, - 184 səh.

ISBN 978-9952-556-70-4

© akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2023

# GÖRKƏMLİ ALİM-OFTALMOLOQ AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN 100 İLLİYİNƏ İTHAFƏN

**Gövhər Baxşəliyeva**
*AMEA-nın vitse-prezidenti,*
*akademik Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun baş*
*direktoru, akademik*

“Dəyişən dünyada qadın – Şərq və Qərb baxışı” mövzusunda çox aktual məsələlərə həsr olunmuş hazırkı konfrans Misir Ərəb Respublikası Milli Məclisinin Bint Bələd üzrə Qadınlar Cəmiyyəti, İraq Respublikası Strateji Araşdırmalar Mərkəzi, Çin Xalq Respublikasının Hebey Universiteti, Rusiya Federasiyasının Tarix, İqtisadiyyat və Hüquq Elmi-tədqiqat İnstitutu, Qazaxıstan Respublikası Təhsil və Elm Nazirliyi R.B.Süleymanov adına Şərqşünaslıq İnstitutunun və AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə hibrid formatda keçirilir.

Qadın azadlığı, qadının cəmiyyətdə və ailədə rolu, onun təhsili, ictimai həyatda iştirakı, gender bərabərliyi və sairə məsələlər istər Qərbdə, istərsə də Şərqdə mütərəqqi ideyalar daşıyıcılarını, maarifpərvər ziyalıları, yazıçıları daim düşündürmüşdür, çoxsaylı bədii əsərlərin mövzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərindən keçərək, bərabərsizliklə üzləşərək qadınlar öz hüquqları uğrunda mübarizə aparmışlar. Hazırda dünyanın əksər ölkələrində kişilərlə bərabər hüquq əldə edərək bir çox uğurlara imza atmışlar və həyatın ən müxtəlif sahələrində öz sözünü deməyə müvəffəq olmuşlar. Bu baxımdam konfransımızın əhatə etdiyi mövzular – tarix və ədəbiyyatda qadın, elm və təhsildə qadın, incəsənət və mədəniyyətdə qadın, günümüzdə qadın, müasir dövrdə qadın problemləri – dəyişən dünyamızda qadının rolunu hərtərəfli işıqlandırmağa imkan verəcək.

Konfransımız görkəmli alim-oftalmoloq, Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunub.

Səhiyyə tariximizdə əvəzedilməz yeri olan Zərifə xanımın oftalmologiya sahəsində geniş elmi axtarışları və tədqiqatları olub. O, tibb elmində, təcrübi səhiyyədə son dərəcə əhəmiyyətli əsərlər yazıb. İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasının əsasını təşkil edib. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilib.

O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi məqalənin, bir ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Ümumiyyətlə, elm sahəsində göstərdiyi xidmətlərin nəticəsi idi ki, 1981-ci ildə Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Eyni zamanda Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın olub. Zərifə xanımın elmi tədqiqatları yüksək səviyyədə olmaqla bərabər, onların sosial əhəmiyyəti də olduqca böyük idi. Onun bu sahədə xidmətləri, fəaliyyəti qiymətləndirildi və o Azərbaycan Elmlər Akademiyasının akademiki seçildi.

Xüsusi vurğulamaq istəyirəm ki, bu gün də Zərifə xanım Əliyevanın tədqiqatlarından tibb elmində geniş istifadə olunur. Alim, pedaqoq, qayğıkeş, bilikli həkim, həmçinin gözəl insan olan Zərifə xanım milli səhiyyəmizin inkişafında mükəmməl biliyə və bacarığa malik oftalmoloqların və ümumiyyətlə, tibb işçilərinin hazırlanmasında böyük əmək sərf edib. Bu gün onun yetişdirdiyi kadrlar da insanlara sağlamlıq bəxş edir. Bütün bunlarla yanaşı, Zərifə xanım qayğıkeş ana, fədakar və sədaqətli həyat yoldaşı kimi də qadınlar üçün nümunədir. Heydər Əliyev kimi böyük şəxsiyyətin həyat yoldaşı olmaq elə də asan məsələ deyildi. Məsəl var, hər bir güclü kişinin arxasında güclü qadın dayanır. Zərifə xanım da ailədə Ümummilli liderimiz Heydər Əliyevin güclü dayağı olub.

Zərifə Əliyeva bir ana kimi gözəl insan idi. O, ailədə iki övlad böyüdüb, onlara yüksək tərbiyə verib, Vətənə layiqli övladlar kimi yetişdirib. Bu gün ölkəmizə rəhbərlik edən Prezident İlham Əliyev Zərifə xanımın övladıdır, ailədə ondan ana tərbiyəsi alıb.

Bir sözlə, Zərifə xanım Əliyevanın timsalında öncə ideal qadın və əsl Azərbaycan xanımı obrazı canlanır. Hesab edirəm ki, Zərifə Əliyevanın bu obrazı, siması, keçdiyi həyat yolu gənc xanımlarımızın həyatının formalaşması baxımından parlaq nümunədir. Odur ki, onun şəxsiyyəti, həyatı, keçdiyi yol, elmi fəaliyyəti daha geniş təbliğ olunmalıdır ki, bugünkü xanımlarımız nümunə götürsünlər. Həqiqətən də, Zərifə xanım davranışı, həyat tərzi, insanlarla rəftarı, övladlarına verdiyi tərbiyə, həkim kimi xəstələrə münasibəti baxımından insanlığın parlaq siması kimi dəyərləndirilməlidir.

Əlavə olaraq bildirmək istərdim ki, bugünkü Azərbaycanda dövlətin həyata keçirdiyi qadın siyasəti sayəsində qadınlar yüksək səviyyədə inkişaf ediblər. Bunu mən Azərbaycana gələn qonaqların fikirlərindən də nəticə çıxararaq deyirəm. Yəni Azərbaycana istər Qərbdən, istər Şərqdən gələn qonaqlar, ilk növbədə, Azərbaycan qadınının yüksək intellektindən, potensialından, geniş mütaliəsindən, cəmiyyətdəki fəal rolundan danışırlar və hətta hesab edirlər ki, onların ölkələrinin xanımları Azərbaycan qadınlarından çox şey öyrənə bilər. Həqiqətən də, bu gün Azərbaycan qadını müasir cəmiyyətdə və ailədə öz sözünü deyə bilən, önəmli rol oynayan fəal bir xanımdır.

Respublikamızda Qadın, Ailə, Uşaq Problemləri üzrə Dövlət Komitəsi məhz Heydər Əliyev tərəfindən yaradılmışdı. Qadınlara fəaliyyətləri üçün geniş meydan açılmışdı. Mən elə bir ölkə tanımıram ki, orada qanunvericilik səviyyəsində dövlət idarəetmə orqanlarında qadınların kişilərlə bərabər təmsilçiliyi barədə fərman olsun. Düşünürəm ki, Azərbaycanda qadının idarəetmədə rolu məqsədyönlü şəkildə inkişaf etdirilir. Ulu Öndər qadına böyük önəm verirdi. Bu siyasət sovetlər dönəmində də belə idi, sonralar – 1993-cü ildə hakimiyyətə yenidən qayıdışı zamanı da belə olaraq qaldı.

O, müstəqil Azərbaycanın qadın siyasətini yüksək səviyyədə yenidən qurdu. Dövlət qadın siyasəti bu gün də cənab Prezident İlham Əliyev tərəfindən dönmədən, inamla davam etdirilir.

# BİRİNCİ VİTSE-PREZİDENTLİYƏ GƏLƏN YOL VƏ GENDER SİYASƏTİ

**Mirzəzadə Rəna**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*Siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiri,*
*professor*
*mirrena54@yahoo.com*

2018-ci il Prezident İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunmuşdur. Sərəncamda XIX əsrin sonu XX əsrin əvvəlləri Cümhuriyyətin qurulması Azərbaycanın yüksəliş mərhələsinin məntiqi yekunu kimi səciyyələndirilib. Ölkəmizin milli dövlətçilik tarixində yeri və rolu göstərilib. Cümhuriyyət dövründə demokratik hüquq və azadlıqların bərqərar olması, vətəndaşlara cinsindən asılı olmayaraq bərabər hüquqların tanınması, o cümlədən də Şərqdə ilk dəfə qadına da seçki hüququ verilməsi və s. strateji kursların müəyyənləşdirilməsi milli dövlətçilik tarixidir. Bu o dövrdə qadın məsələsinin, müasir anlamda gender siyasətinin əxzi idi.

Azərbaycanda keçmiş sovet dövründə də qadınlar kişilərlə hüquqi, sonra real bərabərlik istiqamətində sosial cins kimi inkişaf edir, əmək hüququ əldə edir, iqtisadi azadlığa və öz ləyaqətini müdafiə etmək imkanına nail olur.

XX əsrin sonu Azərbaycanda gender siyasətinin istər ictimai-siyasi, istərsə də hüquqi zəmində formalaşmasının vacib istiqamətlərini gerçəkləşdirdi. XXI əsrdə isə Prezident İlham Əliyevin kreativliyi əks etdirən fərman və sərəncamları ölkədə gender strategiyasını təmin etdi. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral Fərmanı nəinki regionda, həm də Şərq və Avrasiya məkanında gender siyasətinin kulminasiya nöqtəsi oldu. İlk dəfə Birinci vitse-prezident, həm də Avrasiyanın ilk qadın yüksək statusu gender tarixinin örnək nümunəsi oldu. Bu təyinat Cümhuriyyət dövründən günümüzədək gələn bərabərhüquqluluq yolunun ən yüksək ali statusu, Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı dövlətçilik institutunda qadın siyasəti strategiyasının ən yüksək zirvəsi oldu.

İlk Birinci vitse-prezident xanım Mehriban Əliyevanın çoxşaxəli, geniş miqyaslı fəaliyyəti də cəmiyyətdə gender siyasətinin bariz nümunəsidir.

# TİBB ELMİNDƏ AZƏRBAYCAN QADINLARI

**Seyidbəyli Məryəm**
*AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Şərq ölkələrinin tarixşünaslığı şöbəsinin müdiri, professor*
*mseyidbeyli@mail.ru*

Tibb elmi ən qədim dövrlərdən günümüzədək insan cəmiyyətində böyük əhəmiyyətə malik olan elm sahəsidir. Tibb elmi və təbiblərlə bağlı bir sıra ensiklopedik əsərlər qələmə alınmışdır ki, bu sahədə islam dünyasında ən önəmli orta əsr mənbələrindən biri İbn Əbi Useybiyənin müəllifi olduğu "Uyunu'l-Ənba fi Tabaqati'l-Ətibba" adlı əsərdir. Bu əsərdə 400-ü müsəlman olmaqla, 500-ə yaxın həkimin həyatı və fəaliyyəti, hind və yunan təbabəti haqqında geniş məlumat verilmişdir.

Tədqiqatımıza kömək edən bu səpkidə əsərlərə diqqət etsək, görərik ki, İslamın ilk dövrlərində kişi həkimlərlə bərabər, qadın həkimlər də fəaliyyət göstərmişdir. Ümumiyyətlə, həmin dövrdə Peyğəmbərin icazəsi və təşviqi ilə müsəlman qadınları müharibələrdə su paylayır, yaralıları müalicə edirdilər. Bu dövrün tanınmış qadın həkimləri arasında Şifa bint Abdullahı (əsl adı Leyla olmuşdur) və digərlərini qeyd etmək olar.

Tarixin müxtəlif dövrlərində ömürlərini tibb elminin inkişafına həsr etmiş bir sıra Azərbaycan qadınları da olmuşdur. XIX əsrin sonu XX əsrin ilk yarısında Azərbaycanda tibb sahəsində öz sözünü demiş Ədilə xanım Şahtaxtinskaya (Azərbaycanın ilk qadın tibb elmləri doktoru, professor), Aliyə Rüstəmbəyova (İkinci Dünya müharibəsi qəhrəmanı), Gülzar İmaməliyeva (Cənubi Qafqazda bruselyoz xəstəliyini öyrənən ilk azərbaycanlı qadın alim) və digərlərinin adını qeyd etmək olar.

Müasir dövrdə adları tarixə düşmüş qadınlar arasında Sona xanım Vəlixan, Qəmər İsgəndərova, Xavər Şabanova, Xeyransa Axundova, Ədilə Namazova və Zərifə Əliyevanın adlarını xüsusilə qeyd etmək lazımdır. Görkəmli oftalmoloq Zərifə xanım Əliyeva o dövrün ən geniş yayılmış xəstəliklərindən biri olan traxoma ilə mübarizədə əvəzsiz xidmətlər göstərmişdir. Alim traxomanın müalicəsində istifadə edilən mövcud kütləvi müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiklərindən olan sintomisindən istifadə ilə yeni müalicə üsulu tətbiq edib uğurlu nəticələrə nail olmuşdur. Azərbaycanın qadın həkimlərinin tibb sahəsinə verdikləri töhfələrlə bağlı bu cür faktların sayı kifayət qədərdir.

Qeyd edilən görkəmli simalar dünya və Azərbaycan tibb tarixində Azərbaycan qadınlarının nə dərəcədə böyük rol oynadıqlarını bir daha sübut edir. Müstəqillik dövrü tariximizdə xeyli sayda qadın həkimlərimiz, ixtisaslı tibb kadrlarımız bu şərəfli peşəni layiqincə davam etdirməkdədirlər.

# LEYLA ƏLİYEVA YARADICILIĞININ JANR XÜSUSİYYƏTLƏRİ

**Şərifova Salidə**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*f.e.d., professor*
*ssharifova@rambler.ru*

Leyla Əliyevanın bədii yaradıcılığında sərbəst şeir şəklinə, Avropa ədəbiyyatında formalaşan elegiyaya və s. nəzm janrlarına müraciət etməsi maraq doğurur.

Leyla Əliyeva sərbəst şeir şəklində maraqlı nəzm nümunələri yaratmışdır. "Gedim bir az ağlayım", "Nədən qəfil pis oldum?", "Mənim şeirim" kimi poetik nümunələri ana dilimizdə sərbəst şeir şəklində təqdim edilməkdədir. L.Əliyevanın sərbəst şeir formasında qələmə alınmış poetik nümunələri sərbəst şeir formasının fərqləndirici xüsusiyyətlərini özündə ehtiva etdiyindən sərbəst şeirin müxtəlif növlərində əksini tapmışdır. Şairin "Gedim bir az ağlayım" poetik nümunəsi ana dilimizdə sərbəst şeir şəklində təqdim edilir. Şeirdə eyni bölgülü, yeddilik bölgülü qafiyəli şeir müşayiət olunsa da, şair poetik formanın bəzi formal tələblərindən sərbəst şəkildə yararlanmışdır. Fərdi ovqatın poetik amala çevrilməsini əks etdirən şeirdə ardıcıl təkrarlanan bölgülər eyni heca sayına malikdir. Qafiyələnmə qaydasının sərbəst olması diqqətdən yayınmır:

Ürəyimi gizlədim
Yastıq altda saxlayım...
Yoxsa çölə tullayım?
Yoxsa gedim mən ağlayım?

Avropa ədəbiyyatında formalaşan elegiya janrına müraciət etməsi Leyla Əliyevanın poetik yaradıcılığının janr baxımından zənginliyini əks etdirir. Birinci şəxsin dilindən təqdim edilən, qarışıq kompozisiyaya malik olan elegiyaya L. Əliyevanın poetik yaradıcılığında rast gəlinməsi təqdirəlayiqdir. L.Əliyevanın qəmli düşüncələrini ifadə edən elegiya babası Heydər Əliyevə həsr edilib. Şairin babasının ölümü ilə əlaqədar kədərini əks etdirən "Elegiya"sında doğma insanın itkisinin necə ağır olması kədər, qəm dolu poetik dillə çatdırılır.

Dinlə kədərimin pıçıltısını
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.

Şairin "Elegiya"sında yalnız Heydər Əliyevin cismən aramızdan ayrılması deyil, onun xalqın yaddaşında yaşaması da lirik misralara dönür.

# İSMAYIL QASPİRALI YARADICILIĞINDA QADIN MÖVZUSU

**Quliyev Elman**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Türk ədəbiyyatı bölməsinin müdiri,*
*f.e.d., professor*
*elman.guliyev1958@gmail.com*

XIX əsrin sonu, XX əsrin əvvəllərində krım-tatar ədəbiyyatının görkəmli nümayəndəsi, Rusiya müsəlmanlarının lideri, türk millətinin atası və müəllimi, xalq maarifi islahatçısı, "üsuli-cədid" hərəkatının və tatar mətbuatının banisi olan İ.Qaspiralının həm bədii, həm də publisistik yaradıcılığında qadın mövzusu əhəmiyyətli yer tutur. İ.Qaspiralı "...Alemi-insaniyətin yarısı kadınlar olduğu halda maişet, rahat, seadet ve mesudiyeti insaniye nazarından kadınların ne kadar ehemiyetli oldukları anlaşılıyor" deməklə problemin aktuallığına diqqəti yönəldə bilir. O, 1903-cü ildə "Tərcüman" qəzetində çap etdirdiyi "Qadınlar" başlıqlı yazısında qadınların vəzifələri, Şərq və Qərb qadınlarının müqayisəsi, qadınların hüquqları və s. ilə bağlı fikirlər söyləmişdır. İ. Qaspiralı "Qadınlar" məqaləsində "hər evə bir qadın necə lazımsa, hər qadına da elm o cür lazımdır" deməklə qadınların təhsilli olmasının vacibliyini qeyd edir, cəmiyyətin formalaşmasında, nicatında və tərbiyəsində savadlı qadının rolunu yüksək qiymətləndirirdi.

İ.Qaspiralı qadın azadlığını onların hüququ kimi təsəvvür edir və bu hüquq uğrunda mübarizə aparmağı isə onların borcu sayır. O bütün qadınlara üz tutaraq onları "biz qadınıq, bizim cəmiyyətdə nə rolumuz ola bilər?!" düşüncəsindən uzaq olmağa çağırır. O, "Firəngistan məktubları", "Darürrahat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi", "Arslan qız" romanlarında, "İvan və Süleyman", "Hacının fərasəti", "İki imam" və s. hekayələrində müsəlman mühiti fonunda qadın probleminə xüsusi olaraq toxunmuşdur.

İ.Qaspiralı Şərq qadınının Avropa qadınından geri qalmasının dinlə əlaqələndirilməsini əsassız sayır, Şərq qadınının geriliyinin və hüquqsuzluğunun islamla heç bir əlaqəsi olmadığını irəli sürür. O, qadına əsas olaraq tərbiyəçi kimi baxsa da, onun ictimai-siyasi həyatdakı rolunu heç də əhəmiyyətsizləşdirmir, tarixə ekskursiya edərək Babil padşahı Semiramidanın, Misir hökmdarı Kleopatranın, İngiltərə kraliçası Yelizavetanın, Viktoriyanın, Avstriya imperatriçası Maria Terezanın, Rusiya imperatriçaları Yelizaveta və Yekaterinanın, islam dinini ilk qəbul edən xanım Xədicənin və s. adlarını çəkir, onları tarixdə gördüyü işlərinə və şəxsiyyətlərinə uyğun dəyərləndirir.

# AZƏRBAYCAN ATABƏYLƏRİ (ELDƏNİZLƏR) DÖVLƏTİNİN İDARƏ OLUNMASINDA MÖMİNƏ XATUNUN İŞTİRAKI HAQQINDA

**Səfərli Hacıfəxrəddin**
*AMEA Naxçıvan Bölməsi*
*AMEA-nın müxbir üzvü, professor*
*seferli949@mail.ru*

Orta əsrlər zamanı şəriətə uyğun olaraq qadınlar üçün bir sıra qadağalar qoyulmasına baxmayaraq, Naxçıvan bölgəsində qadın məzarları üzərində də kitabələr qoyulmuş, hətta türbələr ucaldılmışdır. Bu qadınların içərisində dövlət başçılarının, xanəgah şeyxlərinin arvadlarına, analarına, əsilzadələrə rast gəlinir. Bəzi qadınlar dövrün ictimai-siyasi, mədəni həyatında, hətta dövlətin idarə olunmasında fəal iştirak edir, xeyirxah əməllərlə məşğul olurdular. Belə qadınlardan biri də Azərbaycan Atabəyləri (Eldənizlər) dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı Möminə xatundur.

Eldənizlər dövlətinin birinci xanımı kimi Möminə xatun ağlı, qabiliyyəti, bacarığı ilə sarayda və xalq arasında böyük hörmət qazanmışdır. O, sarayda mühüm söz sahibinə, əri Şəmsəddin Eldənizin yaxın məsləhətçisinə çevrilmiş, Azərbaycan Atabəyləri dövləti kimi nəhəng bir dövlətin siyasi həyatında fəal rol oynamış, özünün ağıllı məsləhətləri və tövsiyələri ilə dövlətin idarə olunmasında iştirak etmişdir. Şəmsəddin Eldəniz ən yaxın silahdaşı kimi ölkəyə səyahətləri zamanı Möminə xatunu özü ilə aparmış, dövlət əhəmiyyətli məsələlərin həllində həmişə onun tövsiyə və məsləhətlərini nəzərə almışdır. Nəticədə, Şəmsəddin Eldəniz heç vaxt saraydaxili çəkişmələrə, intriqalara, fitnə-fəsadlara uymamış, obyektiv mövqe tutmuşdur.

Möminə xatun diplomatik manevrləri sayəsində sarayda yaranan ziddiyyətləri, hətta 1161-ci ildə İraq sultanlığında hakimiyyətə keçmiş oğlu Arslanşahla əri Şəmsəddin Eldəniz arasındakı narazılığı aradan qaldıra bilmiş və onlar arasında normal münasibətlərin yaranmasına nail olmuşdu. Mənbələrin Möminə xatunun oğlu Arslanşaha verdiyi öyüd-nəsihətlə bağlı bizə çatdırdığı fikirlər onun nə qədər böyük diplomat, siyasətçi bir qadın olduğunu açıq-aydın göstərir. Belə uzaqgörən və ağıllı fəaliyyəti nəticəsində Möminə xatun əri Şəmsəddin Eldənizin hakimiyyətinin möhkəmlənməsinə və onun bütün sultanlığın gerçək sahibinə çevrilməsinə nail olmuşdu.

Müsbət və nadir keyfiyyətlərinə görə Naxçıvan şəhərindəki qəbri üzərində ucaldılan türbənin kitabəsində Möminə xatunun adı “dünyanın və dinin şöhrəti, islamın və müsəlmanların şərəfi” kimi sözlərlə müşayiət olunmuşdur.

# ƏDƏBİYYAT NƏZƏRİYYƏÇİSİ SALİDƏ ŞƏRİFOVANIN ELMİ TƏDQİQATLARINA BAXIŞ

**Əliyev Məmməd**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*Türk xalqları ədəbiyyatı şöbəsinin müdiri,*
*f.e.d., professor*
*turk_xalqlari_edebiyyati@mail.ru*

Filologiya elmləri doktoru, AMEA-nın professoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü Salidə Şərifovanın fəaliyyətində ədəbiyyat nəzəriyyəçiliyi, ədəbiyyat tarixçiliyi ilə nəzəriyyəçiliyin sintezi özünü büruzə verir. Nəzəriyyəçi alimin elmi yaradıcılığında milli ədəbiyyatda roman janrının ikimərhələli yaranma nəzəriyyəsi, "roman-hekayət"in janr konstruksiyasının xüsusiyyətləri, müharibə romanının yeni tipinin formalaşması, romanda janr qarışıqlığı nəzəriyyəsi, kreollaşmış romanların romanın xüsusi növü kimi fərqlənməsi və s. kimi aktual nəzəri problemlər özünü göstərir. Salidə Şərifovanın ədəbiyyat nəzəriyyəsi üzrə ədəbi cərəyanlara, xüsusilə postmodernizm, magik realizm cərəyanlarına, detektivə, epik növün roman janrına və onun janr müxtəlifliyi, müasir irslə bərabər klassik irsin tədqiqi, türk və türkdilli ədəbi irsi tədqiq etməsi, dünya ədəbiyyatı nümunələrini janr baxımdan tədqiqata cəlb etməsi, kreollaşmış romanlara münasibəti yüksək nəzəri səviyyəsi və zənginliyi ilə fərqlənir. Salidə Şərifova romanlarda janr qarışıqlığı problemini ciddi tədqiq etmiş nəzəriyyəçi alimlərimizdəndir. Alim janr qarışıqlığına romanın tipoloji müxtəlifliyini şərtləndirən əsas faktor kimi mahiyyətini açıqlayan metodoloji yanaşmanı formalaşdırmağa nail olmuş, janr qarışıqlığının elmi tərifini təyin etmiş, romanda janr qarışıqlığının əsas qanunauyğunluqlarını müəyyən etmişdir. S.Şərifova romanda janr qarışıqlığının formalarını müəyyənləşdirmiş, janr qarışıqlığının istifadə olunan formasından asılı olaraq, romanın janr mahiyyətini açıqlayaraq qruplaşdırmış, romanın janr xüsusiyyətlərini müxtəlif janr qarışıqlıqları formaları çərçivəsində açıqlamışdır.

S.Şərifovanın elmi yaradıcılığını izlədikcə ədəbiyyatşünaslıq sahəsində əvəzsiz işlər görməsinin şahidi olursan. Salidə Şərifova elmi yaradıcılıq yolunu ədəbiyyatşünaslığın, ədəbiyyat nəzəriyyəsinin yetərincə mürəkkəb sahələrini tədqiq etməyə həsr etməkdədir. Salidə Şərifovanın Azərbaycan ədəbiyyatşünaslığını Azərbaycanda deyil, bir çox yaxın və uzaq ölkələrdə yüksək səviyyədə təmsil edə bilməsi qürurvericidir.

# M.P.VAQİF POEZİYASINDA QADIN OBRAZININ TƏCƏSSÜMÜNDƏ NOVATORLUQ KEYFİYYƏTLƏRİ

**Babayev Yaqub**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*f.e.d., professor*
*ymbabayev@hotmail.com*

Vaqif poeziyasının mövzu dairəsi o qədər də əlvan deyil. Həm də onun üzərində dayandığı mövzuların özü ənənəvi yolun davamı kimi görünür: məhəbbətin, gözəlin və insan gözəlliyinin tərənnümü. Zahirən bu əsrlərlə ədəbi fikri məşğul edən, keçilmiş bir yoldur. Vaqif qələminin qüdrəti ənənəvi mövzunun istər forma-şəkil əlamətlərini, istərsə də mahiyyət-məzmun tərəfini inqilabi tərzdə dəyişə bilməsindədir.

Sələflərdə gözəl obrazının cinsi mənsubiyyətində şərtilik vardır. "Gözəl", ümumiyyətlə, insanın bir məxluq olaraq yer üzündəki şərəfli təmsilçisidir. Təriqət meyilli poeziyada bu çalar daha ötə şəkildə özünü göstərir. Vaqifdə isə onun cinsi mənsubiyyəti aydın şəkildə dərk edilir.

Vaqif gözəli sələflərindən fərqli olaraq mücərrədlikdən qurtarır, "ülvilik səltənətindən endirir". Eyni zamanda abstrakt məkanı yer üzündəki konkret məkanla əvəz edir. Sələflərdə isə gözəlin konkret məkanı yoxdur. Sələflərdəki gözəl idealdır, ilahi əlamət və keyfiyyətlərə malikdir. Vaqifdə isə realdır, nöqsanları ilə göz önündədir. Sələflərdə gözəl dəqiq ad-ünvana malik deyil. O, ünvansızdır. Vaqifdə isə gözəllər real ad-ünvan daşıyır. Sələflərdə gözəlin libası, geyim elementləri diqqət mərkəzində deyil. Vaqifdə isə gözəl başdan-ayağa libası, xarici qiyafə elementləri ilə təsvir olunur. Sələflərdə dilbərin yaş həddi yoxdur. Vaqif isə bir çox hallarda real təfərrüata varır, obrazı yaşı ilə təqdimata meyil göstərir.

Vaqif poeziyasına həyatilik ruhu aşılayan cəhətlərdən biri də onun sələflərindən fərqli olaraq gözələ daha çox əyləncə obyekti kimi baxmasıdır. Şair gözəlin zahiri aləminin təsvirinə ciddi meyil göstərir. Bu mənada o, portret lirikasının mükəmməl örnəklərini yaradır. Hicran və vüsal məsələlərində də Vaqif ənənədən uzaqlaşır, deyilmişləri təkrar etmir, gerçəkliyə sədaqətini nümayiş etdirir.

Sənətkarın əsərlərində novatorluğun bir elementi də etnoqrafik notların mövcudluğudur.

## MÜASİRLİK: ELM VƏ QADIN

**Rzayeva Roida**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Şərqşünaslıq elminin tarixi və nəzəriyyəsi*
*şöbəsinin müdiri, f.e.d.,*
*roida@bk.ru*

Cəmiyyətin müasir ictimai, iqtisadi və mədəni inkişaf prosesində qadının rolu və yeri, xüsusilə də elm sahəsində mütəmadi olaraq artmaqdadır. Müasir elmin səciyyəvi xüsusiyyətlərindən biri qadınların bu prosesdə fəal iştirak etməsidir. Bu proses isə hər bir ölkədə müxtəlif şəkildə və müxtəlif amillərə bağlı olaraq cərəyan edir.

Qadınların elmdəki vəziyyəti bir çox amillərdən asılıdır. İqtisadi şəraitlə yanaşı vəziyyətə ciddi təsiri bu və ya digər ölkənin elmi-texniki inkişafının ümumi səviyyəsi, sosial-mədəni ənənələri və qanunvericilik sistemi göstərir.

Ümumiyyətlə, qadınların elmdə, xüsusən də elit strukturlarında olan payı qanunvericiliyin onları etibarlı şəkildə təhsil, məşğulluq və irəliləmək imkanlarında bərabərləşdirdiyi yerlərdə daha yüksəkdir.

Məlumdur ki, kişilər və qadınların payının nisbətindən asılı olaraq, yəni cinsiyyət əsasında, fənlərin təsnifatı mövcuddur. “Kişi”, “neytral” və “qadın” elmləri qeyd edilir. Əlbəttə ki, bu bölgü çox şərtidir. Koqnitiv müstəvidə qadın iştirakı elmi axtarış imkanlarını genişləndirməyə imkan verən, kişidən fərqli konseptual fərziyyələrə və tədqiqat məntiqinə malikdir.

Azərbaycan qadınları ölkənin ictimai-iqtisadi və siyasi həyatında, o cümlədən elmdə təmsil olunurlar və bu da Azərbaycanda tarixi, siyasi, mədəni əsaslara dayanır. Qadınların hüquqlarının qorunmasında Azərbaycan bir çox nailiyyətlər əldə etmişdir. XX əsr Azərbaycan qadınının həyatında yeni dövrün başlanğıcı hesab edilə bilər. Məhz 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika olaraq qadınlara seçmək və seçilmək hüququnu vermişdir. Bu, bir çox digər Qərb ölkələrindən fərqli olaraq, daha əvvəl baş vermişdir. XX əsrin sonunda ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra qadınlar yeni imkanlar əldə etmişlər. Müasir Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınlar iştirak etməsin. Onlar idarəçilik, hüquq-mühafizə və ədliyyə orqanlarında təmsil olunurlar.

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA QADIN AZADLIĞI PROBLEMİ (HÜSEYN CAVİDİN YARADICILIĞI ƏSASINDA)

**Əsgərzadə Lütviyyə**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*filologiya elmləri doktoru*
*asgerzadelutviyye@yahoo.com.tr*

Yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatında hadisə yaradan filosof şair-dramaturq Hüseyn Cavidin əsərləri bütün dövrlər üçün aktualdır. Cəmiyyətdə baş vermiş hadisələrə, faciələrə biganə qalmayan mütəfəkkir sənətkarın yaradıcılığında mübarizlik, insan və onun hüquqları, bu hüquqların pozulması, bütövlükdə sosial ədalətsizlik bir problem olaraq təqdim olunur. Aktuallığı və orijinallığı ilə seçilən "Qadın", "Qız məktəbində", "Şərq qadını", "Vərəmli qız", "Pəmbə çarşaf", "Dəniz pərisi", "Get", "Qəmər", "Bir qızın son fəryadı" şeirlərində, "Maral", "Ana", "Səyavuş", "Afət", "Peyğəmbər", "Xəyyam" kimi dram əsərlərində qadın probleminə toxunmuş böyük sənətkar, fərqli müstəvilərdə qadın obrazları yaratmışdır. Dram əsərlərinə verdiyi adlar daxil olmaqla, qadın problemini inikas etdirən ("Şeyda", "Maral", "Afət") ədibin əsərlərində feodal əxlaqının, mövhumat və cahilliyin hökm sürdüyü, köhnəlmiş adət və ənənələrin yaşadığı cəmiyyətdə Şərq qadınının gördüyü əzablar əks olunur. İctimai düşüncə, qayda-qanunlar külliyyatı, qadına haqq verilməməsi kimi məsələlər əsas səbəb kimi göstərilir. Qadınların azadlıqlarını əldə etməsinə təkcə qadının yox, vətənin nicatı kimi baxan ədib, qadını kölə vəziyyətinə salan ictimai quruluşu tənqid edir, qadınları öz hüquqları uğrunda mübarizəyə səsləyir. Qadınlara öz hüquqlarını əldə etməyin yolunun maariflənmə, mədəni tərəqqidə olduğunu göstərir. Bəşərin nicatı, cəmiyyətin inkişafını qadının inkişafında, maariflənməsində görən mütəfəkkir sənətkarın əsərləri bir çox aktual problemlər daxil olmaqla, qadın haqqında ən ali düşüncəni özündə ehtiva edən əsərlər kimi hər zaman aktualdır.

# YORULMAZ TƏDQİQATÇI ALİM VƏ İCTİMAİ XADİM

**Əbilova Zəkiyyə**
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun*
*baş elmi işçisi, f.e.d.*
*zekiyye.abilova@mail.ru*

Hər bir cəmiyyətdə demokratik sivilizasiyanın əsas göstəricisi qadının bu cəmiyyətdəki mövqeyi ilə ölçülür. Qadın, adətən, zərif cins kimi qəbul edilir. Lakin öz enerjisindən istifadə etməyi bacaran qadınlar həmişə böyük gücə sahib olublar. Odur ki, tarixdə qadınların rolu danılmazdır. Azərbaycan tarixində də dərin iz qoyan qadınların sayı kifayət qədər çoxdur. Elə günümüzdə də belə qadınlarla rastlaşırıq. Belə tükənməz enerjili Azərbaycan qadınlarından biri də Azərbaycan Dövlət Universitetinin məzunu, vətənpərvər, gözəl ailə başçısı, böyük ictimaiyyətçi, filoloq, tərcüməçi, nəhayət, sevimli pedaqoq Əsmətxanım Bəyəhməd qızı Məmmədovadır.

Əsmətxanım Bəyəhməd qızı Məmmədova 1941-ci ildə Bakının Maştağa kəndində ziyalı ailəsində anadan olub. O, 1958-ci ildə C.Cabbarlı adına 187 nömrəli məktəbi əla qiymətlərlə bitirdikdən sonra bir müddət istehsalatda çalışmışdır. Burada yüksək təşkilatçılıq bacarığı və səriştəsi ilə seçildiyindən fəxri fərmanlarla təltif olunmuşdur. Anasının istəyi ilə BDU-nun Şərqşünaslıq fakültəsinin fars şöbəsinə qəbul olan Əsmətxanım Məmmədova 1963-cü ildə III kursda oxuyarkən “Fars ədəbi dili və Tehran dialektində baş verən fonetik dəyişikliklər” məruzəsinə görə Moskva Dövlət Universitetinin Fəxri fərmanı və fəxri tələbə bileti ilə təltif edilmişdir. 1965-ci ildə universiteti bitirən Ə. Məmmədova Elmi Şuranın qərarı ilə kafedrada saxlanılır və 1966-cı ildə AMEA-nın Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olur. 1972-ci ildə Leninqradda namizədlik dissertasiyası müdafiə etmiş Əsmətxanım Məmmədovanın bu günə qədər fars dilinin fonetika, orfoqrafiya, morfologiya, sintaksis, leksikası kimi qrammatik, eləcə də farsdilli ədəbiyyatın müxtəlif bölmələrinə aid olmaqla, 200-dən artıq məqalə və tezisi ölkə daxilində və respublikadan kənarda çap olunmuşdur. Onun fars vurğusunun təbiətinə aid eksperimentə əsaslanan 60 səhifəlik məqaləsi İranda müxtəlif illərdə 4 dəfə çap olunmuşdur. Alimin elmi axtarış və düşüncələrini özündə ehtiva edən bu tədqiqat işləri fars dilinin tədrisində xüsusi yer tutur və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. 2007-ci ildə çap etdirdiyi “Fars dilində vurğu” adlı eksperimental tədqiqat işi yalnız fars dilçiliyi üçün deyil, həm də ümumi dilçilik üçün faydalı elmi ümumiləşdirmələr, təcrübi nəticələrlə zəngindir. Təsadüfi deyildir ki, həmin kitab 2007-ci ildə Milli Elmlər Akademiyasının nailiyyətləri olan kitablar siyahısına salınmışdır. Ə. Məmmədovanın “Fars dilinin orfoqrafiyası” adlı başqa bir kitabı da 2011-ci ildə işıq üzü görmüşdür. “Lətifələr, yumoristik hekayələr və tapmacalar” adlı ədəbi dil və danışıq dili ilə müqayisə əsasında (disklə birlikdə)

çap etdirdiyi dərs vəsaiti fakültə tarixində ilk təcrübədir. O həm də farsdilli ədəbiyyatımızın, o cümlədən Nizami Gəncəvi irsinin layiqli tədqiqatçısıdır.

50 ildən artıq pedaqoji stajı olan Əsmətxanım Məmmədova gözəl və yenilikçi, tələbələrinin sevimlisi olan bir pedaqoqdur. Tədris etdiyi fənni və tələbələrini çox sevən müəllimə onları ən qiymətli sərvəti hesab edir. 10 kitabın müəllifi Ə.Məmmədova Milli Məclisin həm I çağırış, həm də II çağırışında 17 saylı Sabunçu-Əzizbəyov seçki dairəsi üzrə 2 dəfə deputat seçilib. Müstəqil Azərbaycan Respublikasının inkişafının erkən vaxtlarında bir çox qanun layihələrinin hazırlanması, əlavə və dəyişikliklər edilməsi ilə bağlı müzakirələrdə fəal iştirak etmişdir. O, Beynəlxalq İslam Qadınlar Təşkilatında, Dünya Azərbaycan Qadınlar Birliyinin üzvlüyündə, Ziyalılar cəmiyyətində, BMT yanında "Koolosiya 1325"-in idarə heyətinin üzvlüyündə, Qadın və İnkişaf Mərkəzinin üzvlüyündə həmişə əməli fəaliyyətlər göstərərək Çində Qadınların IV Beynəlxalq forumunda, İraq, Ukrayna, Rusiya, İngiltərə, İran, Qırğızıstan, Türkiyə, Səudiyyə Ərəbistanı, Almaniya, Fransa kimi daha neçə ölkələrdə müxtəlif siyasi və elmi səfərlərdə Azərbaycanın haqq səsini yorulmadan dünya ictimaiyyətinə çatdırmışdır.

# AZƏRBAYCAN QADIN ŞAİRLƏRİNİN YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**Nəcəfova Mərziyyə**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat*
*İnstitutunun baş elmi işçisi,*
*f.e.d., dosent*
*necefova.merziyye@mail.ru*

1990-cı illərdən Azərbaycan xalqının yaşadığı Qarabağ faciəsi, Qarabağdan köç edən insanların çəkdikləri əzab poeziyamızın əsas mövzusuna çevrildi. Günahsız insanların didərginliyi ədəbiyyatımızda, xüsusilə poeziyamızda önəmli yer tutdu. Qadınlarımız əsgərlərimizlə çiyin-çiyinə qəhrəmanlıq göstərdilər. Qadın şairlərimiz şeir nümunələrində döyüşçülərimizin qəhrəmanlıqlarını poeziyaya gətirdilər. 1990-ci il 20 Yanvar hadisələrindən başlayaraq Hökumə Billuri, Mirvarid Dilbazi, Firuzə Məmmədli, Mahirə Abdullayeva, Şövkət Horovlu və s. Azərbaycan şeirində vətənpərvərlik duyğusunun ləyaqətlə təmsil olunması və lazımi səviyyədə təcəssüm olunması üçün tarixə, tarixi hadisələrə müraciət etdilər. Şeirlərimizdə keçmiş qəhrəmanlıq dərsləri, qəhrəman xarakterləri çağın problemlərinin həllində üz tutulası mənəviyyat simvoluna çevrilmişdir.

Qadın şairlərin şeirlərində tarixə dönüş, tarixi şəxsiyyətlərimizin igidliklərinin, qəhrəmanlıqlarının yenidən poeziyaya gətirilməsi, nümunə kimi verilməsi, günümüzün gənclərinin qəhrəmanlıq ruhunda tərbiyə edilməsi şairlərimizin keçmişə münasibətindən irəli gəlir. Şairlərimiz bu ənənəyə sadiq qalaraq tarixə dönüş mövzusunda öz poetik düşüncələrini ürəklərə yol tapan şəkildə dilləndiriblər.

44 günlük Vətən müharibəsinin qələbəsindən sonra qadın şairlərin poeziyasında zəfər sevincləri mövzusu diqqət çəkdi. Poeziyamızın baş mövzusu olaraq Ali Baş Komandan obrazı və Azərbaycan əsgəri obrazı qadın şairlərin yaradıcılığının əsasını təşkil etdi. Azərbaycan və Türkiyə birliyini əks etdirən şeirlərdə isə möhtərəm Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsinin bədii təcəssümü işıqlandırıldı. Düz otuz il sonra, nəhayət, Qarabağ torpaqlarının azadlığı mövzusu qadın şairlərimizdən Firuzə Məmmədlinin, Şövkət Horovlunun, Şahnaz Şirinin, Adilə Nəzərin, Xanım İsmayılqızının və onlarca şairlərimizin poeziyası ədəbiyyat tariximizə yazıldı. Bu poeziya nümunələri qazandığımız qələbədə Ali Baş Komandanın və Azərbaycan ordusunun mübarizəsini və xalqımızın birliyini əks etdirməkdədir.

# HEYRAN XANIMIN LİRİK DUYUMLU POEZİYASI

**Hümmətova Xuraman**
*AMEANizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Türk xalqları ədəbiyyatı şöbəsi, baş elmi işçi,*
*filologiya elmləri doktoru*
*hummatovax@mail.ru*

XVIII əsr Azərbaycan poeziyasının inkişafında böyük rolu olan şairlərdən biri də Heyran xanım olmuşdur. Onun doğulub boya-başa çatdığı dövr belə bir vaxta təsadüf edir ki, o dönəmdə Azərbaycan təlatümlər içərisində yaşayırdı. Bir tərəfdən Osmanlı sultanlarının, digər tərəfdən rus ordusunun Azərbaycana hücumu, yerli hakimlərin özbaşına hərəkətləri əzab-əziyyət içərisində olan xalqın vəziyyətini daha da dözülməz hala salmışdı.

Azərbaycanın ikiyə bölünməsi şairənin taleyində faciəli rol oynamışdır. Bunu onun dərdli poeziyasında görmək mümkündür. Bu ayrılıq əzabı onu ömrü boyu tərk etməmişdir, əzablar içərisndə qürbət sıxıntıları keçirən şairə niskilini şeirləri ilə soyutmuşdur. Şeirlərinin birində deyir:

Biri Mərağədədir, digəri Urumiyyədə,
Birinə məskən olub burda guşeyi-zindan.

Heyran xanımın lirik poeziyasından onun yaşam dövrü haqqında ətraflı məlumat almaq mümkündür. Ömrünün müəyyən dönəmində insanlardan gördüyü vafasızlıq onu sarsıtmış, vaxtilə ona vəfadan, sədaqətdən danışan insanın sərvət xatirinə ondan üz çevirməsi, şairənin böyük sarsıntılar keçirməsinə səbəb olmuşdur.

XIX əsrdə Füzuli poeziyasının davamıçılarından biri də Heyran xanım olmuşdur. Şairənin lirik şeirləri Füzuli ənənələrindən qidalanmış, lirik duyğularını sadə, aydın ana dilində əks etdirmişdir. Onun lirik poeziyasında saf, təmiz ruhun ifadəsi ilə yanaşı, dövrün, zamanın acı fəryadları da öz əksini tapır.

Olubdur qəm yatağı şad gördüyün könlüm,
Dağıldı qüssədən abad gördüyün könlüm.

rədifli qəzəli buna nümunə ola bilər. Məqalədə şairənin lirik poeziyasından ətraflı söz açılacaq.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA QADIN MÜKƏMMƏLLİYİN RƏMZİ KİMİ

**Məmmədova Əsmətxanım**
*Bakı Dövlət Universiteti*
*f.ü.f.d., dosent*
*kamillik@mail.ru*

Şərq ədəbiyyatı və bədii təfəkkür tarixinin aparıcı mövzulardan biri də qadın, onun cəmiyyətdə yeri, mövqeyi məsələsidir.

Araşdırmada dahi söz ustası Nizami Gəncəvinin etik-estetik, poetik-fəlsəfi görüşlərinin məcmusu olan "Xəmsə"sində qadın kimliyi tədqiqat mərkəzinə çəkilir, Nizami yaradıcılığında qadına yeni baxış prizmasından yanaşmanın fərqli və spesifik cəhətləri tədqiqata cəlb olunur.

Sözsüz ki, Nizaminin qadın obrazları ümumilikdə dahi mütəfəkkirin qadına, anaya münasibətinin birmənalı göstəricisidir. Dövrünü qabaqlayan demokratik, bəşəri, novator ideyaların zənginliyi ilə seçilən çoxqatlı Nizami yaradıcılığı qadın problemlərinə münasibətdə də istisna təşkil etmir. Ənənəvi yanaşmadan fərqli olaraq, qadının yaradıcı funksiyası ilə, onun analıq, ailə-məişət kontekstindəki dar, məhdud formatlı vəzifələri ilə paralel, cəmiyyətin istiqamətləndirilməsində, idarə olunmasında əsas hərəkətverici fiqur, haqq sahibi kimi təqdimi dünyaşöhrətli "Xəmsə"nin hər poeması üçün xarakterikdir. Türk genetik və etnoqrafik yaddaşından yol alan, qadına əlahiddə güc, qüvvət, qürur mənbəyi kimi fərqli rakusdan baxış anası Raisənin, ömür-gün yoldaşı Afaqın timsalında açıq-aydın sezilməkdədir. Cəmiyyətin bütün təbəqələrini təmsil edən obrazlar çələngi məhdud çərçivəli vəzifələrdən məsul passiv qadınlar deyil, onlar ədalətli hakimiyyətin qurucuları, fəal üzvləri, xalqın mübariz qəhrəmanına çevrilərək haqq səsini ucaltmağı bacaran kəsimidir. Ağlı, səbri, məntiqi ilə revanşa çıxaraq, zəfər çalan qalib zəka sahibləridir ("Sultan Səncər və qarı"; "Yeddi gözəl", Fitnə obrazı).

Çox spektrli daxili potensialının müəyyən situasiyalara uyğun olaraq mərhələ-mərhələ açılması ilə xarakterizə olunan Məhin banu, Şirin və Nüşabə obrazı cəsarətlə demək olar ki, Yaxın və Orta Şərq xalqları ədəbiyyatında qadın problematikasının yeni mərhələsidir. Məhinbanunun dövlətin ən ali məqamında təsviri, onun ölkəni ədalətlə idarə edərək çox çətin işlərin öhdəsindən asanlıqla gəlməsi, cəsarəti, mərdliyinin kişilərlə paralel müqayisəsi sövqtəbii gender, qadın-kişi hüquq bərabərliyi məsələsini gündəmə gətirir. Nizami daha uzağa gedərək, istisnasız hər cəbhədə özünü ən yaxşı formada təsdiqləyən qadının əxlaq kodeksinin, kiçik cəmiyyət olan ailə institutunun daha etibarlı qoruyucusu kimi təqdim etməklə, Məhinbanu və Şirinin timsalında arzuladığı ideal qadın surətini yaradır.

## ŞƏRQ CƏMİYYƏTİNDƏ MODERNİZMİN QADINLARA TƏSİRİ

**Şəfiyeva Əfşan**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun İran tarixi və iqtisadiyyatı*
*şöbəsinin aparıcı elmi işçisi,*
*t.ü.f.d., dosent*
*afshanshafiyeva@yahoo.com*

Müasir dövrdə modernləşmə nəzəriyyəsi modernləşmənin ilkin şərtlərinin və əsas amillərinin yeniləşən dünyanın ayrı-ayrı hissələrində müxtəlif çəkiyə və rola malik olduğunu göstərir. Belə ki, bu nəzəriyyə Qərb cəmiyyətinin müasir cəmiyyətə çevrilməsinin aparıcı amillərini müəyyən bir yöndə, Şərq cəmiyyətinin ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçidini isə fərqli yöndə izah edir. İstənilən halda modernləşmə ictimai həyatın bütün sahələrində baş vermiş və baş verməkdə olan əsaslı dəyişiklikləri, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə doğru inkişafı nəzərdə tutur.

Mövcud ictimai quruluşun əsas daşıyıcısı olan qadın həm də ailəni formalaşdıran aparıcı qüvvədir. O təkcə mədəni irsə təsir edən başlıca amil deyil, həm də mədəni irsə keçidin açarıdır. Qadın tarixin bütün mərhələlərində cəmiyyətdə bioloji varlıq olmaq sərhədini aşaraq, ictimai status qazanıb, sosial varlıq kimi tərəqqiyə gedən yolda töhfələr verib. Bu səbəbdən qadın şəxsiyyətindəki dəyişikliklər onların təkcə həyatlarına deyil, bütün cəmiyyətə mənfi və ya müsbət şəkildə təsir edə bilir.

Digər mədəniyyətlərin müsbət tərəflərini mənimsəyərək cəmiyyətə layiqli, milli-mənəvi ruhlu, demokratik düşüncəli, müasir təfəkkürlü vətəndaş yetişdirmək üçün, ilk növbədə, qadınlara dəyər verilməlidir. Qadının hüquq və vəzifələrinin harmoniyası onun cəmiyyətdə yerini və rolunu təyin edir, mövqeyinin və rolunun inkişafı isə ümumən, müasir cəmiyyətin inkişafını səciyyələndirir. Müasirləşmənin Şərq cəmiyyətinə və onun aparıcı qüvvəsi olan qadınlara təsirini təkcə Qərbi təqlid etməklə deyil, milli dəyərləri, keçmişi, ənənə və yeniliyi bir arada birləşdirərək inkişaf etdirmək daha töhfəverici ola bilər.

# XX ƏSRİN I YARISINDA CƏNUBİ AZƏRBAYCANDA QADIN MƏSƏLƏSİ („AZƏRBAYCAN" QƏZETİNİN MATERİALLARI ƏSASINDA)

**Fərhadov Əli**
*Milli Azərbaycan Tarixi Muzeyinin*
*aparıcı elmi işçisi, t.ü.f.d., dosent*
*ali_farhadov@yahoo.com*

S.C.Pişəvərinin 1945-ci ildə Təbrizdə əsasını qoyduğu "Azərbaycan" qəzetində XX əsrin I yarısında İranda və Azərbaycanda qadın mövzusu əsas yerlərdən birini tutur. S.C.Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan qəzet 1945-1946-cı illərdə Təbrizdə, sonrakı nəşrləri isə ADF-nin məğlubiyyəti səbəbilə Bakıda çap edilmişdir.

"Azərbaycan" qəzetində Pəhləvi şah rejiminin xalqa zidd siyasəti, xüsusilə azərbaycanlı qadınların həm milli zülmə, həm də ayrı-seçkiliyə məruz qalması tənqid edilirdi. Qəzetdə qeyd edilirdi ki, "Rza şahın verdiyi azadlıq qadınları heç bir iqtisadi, ictimai və siyasi hüquqa malik etməmişdir". Qəzetdə azərbaycanlı qadınlara həqiqi azadlığın Pəhləvilər tərəfindən yox, məhz 1945-1946-cı illərdə Azərbaycan Demokrat Firqəsi hökuməti tərəfindən verildiyi göstərilirdi. Qəzet ADF hökumətinin məğlubiyyətinə baxmayaraq, ümidini itirmir, həqiqi insan azadlığının yenə də bərqərar olacağını göstərirdi.

Qəzetdə Azərbaycan qadınının acı taleyinə həsr edilmiş şeirlər də təqdim edilir və ona belə ümid verilirdi:

"Düşünürəm taleyini əziz qadın, əziz qadın!
Bilməm nədən, sən ömründə bir az belə şad olmadın!
Böyük qadın! Taleyindən küsməginən sən bu qədər
Bil ki, yenə alnınızda gün doğacaq bir xoş səhər".

Son olaraq deyə bilərik ki, Pişəvəri irsinin və "Azərbaycan" qəzetinin araşdırılması XX əsrin I yarısında Pəhləvi şah rejiminin xalqa zidd siyasətini, saraya qarşı xalq hərəkatını, milli azadlıq mübarizəsini və İranda, Cənubi Azərbaycanda qadın məsələsini öyrənmək baxımından önəmlidir və öz araşdırmaçılarını gözləyir.

# MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ QADIN FENOMENİ

**İbrahimov Əli**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi*
*şöbəsinin aparıcı elmi işçisi,*
*fəl.ü.f.d., dosent*
*ali.ibrahimov.artopa@gmail.com*

Cəmiyyət insanların birgə fəaliyyətinin tarixən qərarlaşmış formalarının məcmusudur. Cəmiyyətin meydana gəlməsinin əsas amili əməkdir. Müasir Azərbaycan cəmiyyətində qadın fenomenindən bəhs edərkən "fenomen" fəlsəfi termininin yunanca "təzahür edən", "aşkara çıxan" anlamından, yaxud "görünməmiş hadisə"ni özündə ehtiva edən məzmunundan faydalanıb fikrimizi əsaslandırmaq niyyətindəyik. Böyük demokrat yazıçı Yusif Vəzir Çəmənzəminli 12 paraqrafdan ibarət "Ana və analıq" əsərində qadınlarımızın elmli, təhsilli olmasına daha çox üstünlüyü ona görə verirdi ki, bu yolla maariflənmək, elmlərin sirlərinə bələd olmaq, cəmiyyətin inkişaf edib formalaşmasının səbəbləri daha asan mənimsənilir. Müasir cəmiyyətimizdə artıq qadın öz dünyagörüşündə, həyata baxışında böyük təbəddülatları təzahür etdirən, kişilərlə eyni hüquqda fəaliyyət göstərən sosial varlıqdır. Azərbaycan qadını öz iradəsi və müdrikliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynamışdır.

Bu gün isə müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək dəyərləndirilir.

AR-nın 1995-ci ildə qəbul olunmuş Konstitusiyası qadınların kişilərlə bərabər demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazasını yaradıb.

26 illik fasilədən sonra Azərbaycan qadınlarının 1988-ci il sentyabrın 14-15-də keçirilən qurultayı Azərbaycan qadınlarının ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı oldu.

Bu gün Azərbaycan qadınları ölkədə gedən geniş quruculuq işlərində daha böyük fəallıq göstərir. Çünki ölkənin birinci xanımı, vitse-prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə qadın hərəkatını canlandırdı. Onun humanist və mədəni layihələri onlarca ölkələr tərəfindən dəstəklənir. Xalqın gələcəyi, balalarımızın xoşbəxt sabahı üçün məktəblər, bağçalar tikməkdən səmərəli heç nə ola bilməz.

# QADINLAR QLOBAL MİQRASİYA PROSESLƏRİNDƏ

**Əhmədov Aqil**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*agilahma@gmail.com*

Miqrasiya proseslərinin intensiv xarakter aldığı XXI əsrdə kişilərlə bərabər qadınların yerdəyişməsi, köç etməsinin səbəbləri müxtəlifdir. İnsanların doğulduqları torpaqları tərk edərək inkişaf etmiş ölkələrə üz tutmasının səbəblərindən biri, bəlkə də, birincisi əmək miqrasiyası ilə sıx bağlıdır. Həmçinin qadınlar son illər intellektual miqrasiyada aktiv iştirak edirlər. Bu səbəbdən miqrasiya müsbət, yaxud mənfi tendensiya kimi qarşımıza çıxır və hər iki halda məsələyə elmi-nəzəri yanaşma tələb edir.

Avropa, xüsusilə ABŞ kimi Qərb ölkələrinə miqrasiya edənlərin sayı ümumilikdə üstünlük təşkil edir. Əməkçi miqrantlar arasında qadınların, gənc ailələrin müvəqqəti və ya uzun müddətə çalışmaq üçün seçdikləri ölkələrdə hüquqi problemlərlə qarşılaşması da qaçılmazdır. Bütün çətinliklərə baxmayaraq, qadınlar yarana biləcək mənfi halların aradan qaldırılmasında möhkəm iradə və mövqe göstərərək problemlərinin müəyyən mənada və ya bütöv həlli yollarını tapmağa qadirdirlər.

Dünyanın bütün qitə və regionlarını əhatə edən miqrasiya proseslərində iştirak edən bölgələrdən biri də Cənubi Qafqaz regionu ölkələridir. Burada, postmünaqişə dövründə iqtisadi potensialını yüksəldən və beynəlxalq münasibətlərə inteqrasiya edərək əməkdaşlığa diqqət yetirilən dövlətlərdən biri Azərbaycan Respublikasıdır. Ölkədə qadınlar cəmiyyətin əksər sahələrində uğurla təmsil olunurlar, həmçinin miqrasiya kimi təbii proseslərdə iştirak edərək arzu etdikləri həyat uğrunda mübarizələrini davam etdirirlər. Azərbaycanda müşahidə olunan sosial-iqtisadi tərəqqi, yüksək təhsil və iş imkanları ölkədən emiqrasiya edənlərin sayına ciddi təsir göstərmiş və miqrasiya kəskin şəkildə azalmışdır. Bu səbəbdən respublikadan köçmək arzusunda olan qadınların sayı da faiz etibarilə kifayət qədər aşağıdır. Azərbaycan Respublikasında təhlükəsizliyin, vətəndaş hüquqlarının, insan hüquq və azadlıqlarının milli qanunvericiliklə yüksək səviyyədə tənzimlənməsi bunu deməyə əsas verir.

# TARİXİN HƏR SƏHİFƏSİNDƏ QADIN...

**Rzayeva Rəna**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, f.ü.f.d., dosent*
*rzayeva1958@icloud.com*

Hər bir xalqın, millətin inkişaf tarixini, onun özəlliklərini izləyib öyrənmək üçün, ilk növbədə, həmin xalqın tarixinə, ədəbiyyatına müraciət etmək lazımdır. Məhz tarix və ədəbiyyat konkret xalqın, millətin fərdi xüsusiyyətlərini, özünəxas cəhətlərini əsrlərdən əsrlərə ötürür. Ədəbiyyat dedikdə, şübhəsiz ki, söhbət həm elmi, həm tarixi, həm bədii, fəlsəfi və s. ədəbiyyatdan gedir. Bu ədəbiyyat növlərinin hər biri mənsub olduğu, aid olduğu, özündə ehtiva etdiyi cəmiyyəti müxtəlif aspektdə təzahür etdirir.

Şübhəsiz ki, bu çox geniş, əhatəli və  sonsuza qədər inkişaf etdirilə biləcək bir mövzudur. Biz isə konkret olaraq "Tarix və ədəbiyyatda qadın" mövzusunu nəzərdən keçirəcəyik. Çox dərin köklərə, rişələrə malik, çox zəngin və rəngarəng Azərbaycan cəmiyyətində qadının yeri həmişə xüsusi olmuşdur. Şübhəsiz ki, tarixi və bədii obrazlar həmişə bir-biri ilə əlaqəli olmuşdur. Xalq qəhrəmanları xalqdan bəhrələnir, xalq yaradıcılığı bədii yaradıcılığa yol açır və nəhayətdə bədii ədəbiyyat yeni qəhrəmanların, obrazların yaranmasına səbəb olur.

Orta əsrlərdə Azərbaycan hökmdarlarından Cahan Pəhləvanın xanımı Qətibə İnanc xatun,  Özbək xanın xanımı Mehrican xatun, Uzun Həsənin anası Sara xatun, Şah ismayıl Xətainin qızı Məhinbanu Sultan, Şirvanşah  Xəlilullanın xanımı Pəri xanım, Şah Abbasın anası Xeyransa bəyim,  Fətəli xanın xanımı əfsanəvi Tuti Bikə və başqaları, şübhəsiz ki, tarixdən və bir-birlərindən örnək götürdükləri kimi digərlərinə də  örnək olmuşlar.

Orta əsr Azərbaycan ədəbiyyatının incilərindən olan Əbubəkr ibn Xosrov əl-Ustada mənsub "Munisnamə" əsəri də bu baxımdan çox maraqlıdır. Əsərdəki  qadın obrazları ismətləri, ağılları, bacarıqları, zəkaları, igidlikləri ilə seçilir və böyük ehtiram sahibləridirlər. Doğrudur, XII əsrə aid olan bu əsərin bəzi fəsillərində qadına qarşı islamaqədərki münasibətlərin əlamətlərini görmək olur, amma ümumilikdə əsərin qadın qəhrəmanları müsbət aspektdə verilmişdir. Mosullu Fəzlullahın zövcəsinin fərasəti, Bəmli bənnanın zövcəsinin isməti, Zərgərin arvadının zəkası və nəhayət, mömin Ürviyənin isməti, həyası oxucuda o dövr ədəbiyyatında qadına verilən qiymət haqqında dolğun təsəvvür yaradır.

# ÜMUMMİLLİ LİDERİN ANASI İZZƏT XANIM

**Şirinova Rübabə**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*fəl.ü.f.d., dosent*
*rubaba.sirinova@mail.ru*

Dahi şəxsiyyət, müdrik dövlət xadimi, müstəqil dövlətimizin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı söylədiyi fikirlər olduqca qiymətlidir: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər".

Mərdliyi, gözəlliyi, mənəvi saflığı ilə dünyada tanınan qadınlardan biri də Ümummilli liderin anası İzzət xanımdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin bacısı Şəfiqə Əliyeva anası İzzət xanım haqqında "Mənim anam" kitabında yazır: "Anam İzzət xanım 1895-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalındakı Comərdli kəndində anadan olub. Bu kənd Zəngəzurun bağ-bağatlı, səfalı guşəsi olub, dağ kəndləri içərisində gözəlliyi ilə seçilirmiş. Kəndin özülünü ulu babam Comərd qoyub. Onlar iki qardaş olublar: Comərd və qardaşı Alagöz Məhəmməd. Anam İzzət xanım sayılıb-seçilən, böyük hörmət və nüfuz sahibi olan Comərdin nəslinin törəməsidir. Comərdli kəndində yaşayanların hamısı bizim tayfamız hesab olunur. Dağ qızı olan anam elə dağ kimi də uca, əzəmətli, vüqarlı olub. Füsunkar gözəlliyi, qeyrəti ilə dövrün qız-gəlinlərindən fərqlənib. Ağır təbiətli, utancaq olduğu üçün babam onu çox sevərmiş..." İzzət xanım Azərbaycan xalqına üç akademik, bir xalq rəssamı, iki elmlər doktoru və bir general sərkərdə bəxş etmişdir.

# MƏRZİYYƏ NƏCƏFOVANIN YARADICILIĞINDA QARABAĞ MÖVZUSU

**Əliyeva Ruhəngiz**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*böyük elmi işçisi, f.ü.f.d., dosent*
*aliyeva-72@mail.ru*

Qarabağ otuz ildən artıqdır ki, ədəbiyyatımızın, ədəbi-bədii düşüncəmizin əsas və aparıcı mövzularından birinə çevrilməkdədir. Müxtəlif ədəbi növlərdə və janrlarda qələmə alınan çoxsaylı nümunələrdə Qarabağın ağrı-acılarından, erməni təcavüzünün dinc insanların həyat və güzaranına gətirdiyi narahat və qayğılı anlardan söhbət açılır, acınacaqlı qaçqın və köçkün taleyi yaşayan insanların aqibəti, gələcək haqqında arzu və istəkləri bədii sözün qüdrəti ilə ifadə olunur.

Bu sahəyə mütəmadi elmi maraq göstərən tədqiqatçılardan biri də Mərziyyə Nəcəfovadır. Mərziyyə xanım Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda baş elmi işçi, filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Natavan" mükafatçısıdır. Dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür. Tədqiqatçı alim Qarabağ konflikti başlanan gündən bu mövzuya fasiləsiz maraq göstərmiş, hətta namizədlik və doktorluq dissertasiyalarını bu sahəyə həsr etmişdir. Bu onun vətəndaşlıq mövqeyindən xəbər verən bir yanaşmadır. Ayrı-ayrı vaxtlarda qələmə aldığı bədii, publisistik yazıları, çoxlu sayda məqalə və tədqiqatları, çap etdirdiyi kitablar vətənpərvərlik mövzusuna müəllifin ardıcıl maraq gostərdiyini əyani sübut edir. Bu baxımından "1990-cı illər Azərbaycan ədəbiyyatında vətənpərvərlik motivləri", "Qarabağ mövzusunun poeziyada işlənmə istiqamətləri", "Ata ocağı", "Bir ovuc torpaq", "Poeziya və Qarabağ problemləri" kimi bu qəbildən olan ədəbi-bədii əsərləri və elmi araşdırmaları Azərbaycan ədəbiyyatında və ədəbiyyatşünaslığında müasir "Qarabağnamə" səviyyəli əsərləri kimi diqqəti cəlb edir. Akademik İsa Həbibbəylinin bu xüsusda irəli sürdüyü mülahizələrdə fəal tədqiqatçı mövqeyi ilə seçilən Mərziyyə Nəcəfovanın xidmətləri təqdir ounur: "Müstəqillik dövründə Azərbaycan ədəbiyyatında geniş və mükəmməl ədəbi Qarabağnamələr meydana çıxmışdır".

Sonda Azərbaycan qadını olan Mərziyyə Nəcəfovanın əsərlərini araşdıracağam.

## SƏLƏF VƏ XƏLƏFLƏRİ KONTEKSTİNDƏ HÜRUFİ ŞEYX QADINLAR

**Şıxıyeva Səadət**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*
*shikhiyevas@gmail.com*

Hürufilik təriqət olaraq, öncə Azərbaycanda (Təbriz) təşəkkül tapsa da, sonrakı yüzilliklər boyunca daha geniş coğrafiyada rəğbət gördü və mövcudiyyəti boyunca düşüncə istiqamətlərinə müxtəlif səciyyəli təsirlər etdi və təsirləndi.

Fəzlullah Astarabadinin dini-mistik təlim kimi özülünü qoyduğu hürufilik bir çox fərqli cəhət və özünəməxsusluqlara malik olsa da, özünəqədərki düşüncə tarixindən əxzetmələri ilə də diqqəti cəlb edir. Belə ki, hürufiliklə İranın qədim dini və siyasi hərəkatları, eləcə də milliyyətçi xariciyyə təriqəti arasında bəzi səsləşmələri görmək mümkündür. Məlum olduğu kimi, bir çox təriqətlərdə qadının mürşid ola bilməyəcəyi bildirilsə də, təsəvvüf tarixində qadın övliyalar olmuş, hədislərlə qadınların da övliya ola biləcəyi əsaslandırılmışdır. Hürufiliyəqədərki dini cərəyanlardan olan *"xariciliyin bir qolu olan şəbibilikdə xəlifəlikdə qadınla kişi arasında fərq qoyulmurdu və qadının da imaməti caiz sayılırdı"*. (R.Rəisniya) Hürufilikdə bu məsələdə bir qədər də irəli gedildiyi, Fəzlullahın qızı Fatimənin hürufilik mərkəzlərindən birinin rəhbəri məqamına yiyələndiyini görürük. Çeşidli qaynaqlarda təkcə hürufiliyin mürşidi Fəzlullahın qızı Fatimə (*"Kəlimətüllah hiyəl-ülya", "Qürrətül-eyn", "Həzrəti-Məxtumeyi-bozorg", "Məxtumzadə"* epitetləri ilə yad olunur) deyil, nəvəsi Xatun Bibi Xondeqarın da adı hürufilik təriqətinin başçıları – şeyxləri sırasında yad olunur. Bu qadın başçıların digər övliyalar kimi kəramət göstərib-göstərmədiyi xüsusi araşdırmaya möhtacdır. Amma Qürrətül-eyn epitetli Fatimənin rəhbərlik etdiyi Təbrizdəki hürufilik mərkəzi Qaraqoyunlu Cahanşah dövründə o qədər qüvvətlənmişdi ki, silahlı üsyan edəcəyi şübhəsi ilə hürufilər təqib olunmuş və nəticədə rəhbərləri də daxil olmaqla, çox sayda insan öldürülmüşdü. Bənzər özəllik hürufiliyəqədərki dini cərəyanlardan olan xaricilikdə də müşahidə olunur. Belə ki, xaricilərin silahlı mübarizələrində qadınların, məsələn, məşhur Ümm Haqibin (VII əsr) iştirakı məlumdur. Daha sonrakı dönəmlərdə bir sıra cəhətləri ilə hürufiliyin xələflərindən sayıla biləcək babilikdə də üsyançı-öndər qadın tipinə rast gəlinir. Fəzlullahın qızı Fatimə kimi Qürrətül-eyn ləqəbli Tahirə Zərrintac (XIX) da Cənubi Azərbaycanda babilik hərəkatının qollarından birinə başçılıq etmiş, silahlı üsyanda iştirakının və azad düşüncəliliyinin nəticəsi olaraq edam olunmuşdu.

Hürufi qadınların şeyxlik məqamının onların varislik statusu ilə müəyyənləşməsi də şübhə doğurmur. Fəzlullahın *"Vəsiyyətnamə"*sində təriqətin gələcək taleyi ilə bağlı məsləhətlərini qızı Fatiməyə ünvanlaması, görünür, bu məsələdə həlledici rol oynamışdır.

Hürufilikdə Fəzlullahın qız övladlarının müqəddəslik statusunun göstəricilərindən biri də onların kişilər kimi *“məxtum”* və *“həzrət”* epitetləri ilə yad olunmasıdır: *Həzrəti-Məxtumeyi-bozorg* (Fatimə), *həzrəti-Məxtuməzadə* və *həzrəti-Məxtuməzadeyi-digər* (Nüsrət), *həzrəti-Xatun Bibi, Xondeqar* (Nüsrətin qızı). Yeri gəlmişkən qeyd etməliyik ki, seçilmiş qadınların adına bu şəkildə kişilərə xas titulların əlavə olunmasını İbrahimxəlil xanın qızları Ağabəyim Ağa və Gövhər Ağanın adlarında da görürük.

# ALMANİYADA MÜHACİRƏTDƏ OLAN YAZIÇI AYSEL ÖZAKININ ƏSƏRLƏRİNDƏ QADIN PROBLEMLƏRİ

**Gündoğdu Səriyyə**
*AMEA Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*
*seriyye@yahoo.com*

Aysel Özak Türkiyədə 1980-ci il çevrilişindən sonra getdiyi Berlindən siyasi səbəblərlə ölkəsinə qayıda bilməyib və Almaniyada yaşamaq məcburiyyətində qalmışdır. Müəllif Kreuzbergə gəldikdən sonra həm öz ölkəsində, həm də alman cəmiyyətində türk qadınlarının vəziyyəti və azadlığı məsələlərinə toxunaraq bu istiqamətdə araşdırmalarını davam etdirir. Müəllif cəmiyyətdə qadın və kişi üçün fərqli əxlaq və qiymətləndirmə standartlarının olmasını türk qadınlarının özünü inkişaf etdirməsinə əngəl olaraq qəbul edib. Eyni zamanda o, türk qadınlarının bir çox hallarda nifrətə məruz qalmasına və onların müəyyən stereotiplər çərçivəsində qiymətləndirilməsinə qarşı çıxır.

Onun əsərləri bizə ictimai həyatın bütün yönlərini göstərməklə yanaşı, qadının bu cəmiyyətdəki yerini öyrənməyə imkan verir. Aysel Özakın əsərlərində həyat qarşısında müəyyən mənada "Niyə? Nə üçün? Necə?" suallarını verərək insanların başlarına gələn hadisələrdən çox hadisələr qarşısındakı münasibətini təhlil edir.

Bəzən Armağan, bəzən Nuray, bəzən Dina, bəzən də adı çəkilməyən naməlum qadın qəhrəmanlar Aysel Özakının duyğu və düşüncələrini ifadə edirlər. Özakının bütün fikirləri, düşüncələri hadisələrlə yoğrularaq əsərin mahiyyətinə hopmuşdur. Aysel Özakın qadın problemlərini dərindən araşdıra bilmək üçün onları cəmiyyətdən təcrid etmədən cəmiyyət içində vermişdir. O, roman və hekayələrində qadını cəmiyyətin inkişaf prosesində öz oriyentasiyası və axtarışları ilə əks etdirmişdir. Tənqid edərkən də məqsədi insanları alçaltmaq yox, maraqlandığı sosial məsələləri onların simasında təcəssüm etdirmək olmuşdur.

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN SİYASƏTİ

**Məlikli Günel**
*AMEA-nın Fəlsəfə və Sosiologiya*
*İnstitutunun şöbə müdiri,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*gunelmelikli88@gmail.com*

Azərbaycan qadını 1918-1919-cu illərdə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində ilk dəfə seçmək və seçilmək hüququ qazanaraq, cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olaraq, ölkəmizin ictimai-siyasi həyatında fəaliyyət göstərdi. 1977-ci ildə isə Ulu öndərimiz Heydər Əliyevin qadınlar haqqında dediyi müdrik sözlər Azərbaycan qadınına inamı, güvəni, qayığını bir daha artırmış oldu. "Azərbaycan qadını öz ağlına, zəkasına, biliyinə güvənən bir qadındır və bu qadın hər zaman Azərbaycanın adını yüksəklərdə tutur".

Məhz ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qadınlar ölkənin ictimai-siyasi həyatında önə çəkildilər. O belə dedi: "Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısınız və arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və mən də öz tərəfimdən bütün imkanları yaratmağa çalışacağam" və bütün imkanları yaratdı. Azərbaycan qadınının şəxsiyyətinə böyük hörmətlə yanaşan Ulu öndər Heydər Əliyev ölkəmizdə görülən qadın siyasətinin əsasını qoyaraq, ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı. Qadınların qabiliyyətlərini üzə çıxararaq onlara dəstək oldu. Dövlət qadın siyasəti, cəmiyyətdə qadınların rolunun artırılması, qadın problemlərinin həll olunması onun məqsədinə çevrilmişdi. Bu demokratik imkanlara malik olan cəmiyyətin yaradılmasının göstəricisi oldu. 1995-ci ildə ölkəmiz qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında konvensiyaya qoşuldu. 1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. 2006-cı ildə isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə çevrildi. Bu gün Yeni Azərbaycan Partiyasının sıralarında yüzlərlə qadın fəaliyyət göstərir.

Cənab prezidentimiz İham Əliyev Azərbaycan qadınına böyük diqqət və qayğı göstərərək deyir: "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil respublikamızın tərəqqisinə böyük töhfələr verəcəkdir".

"Dövlət müstəqilliyinin bərpasından ötən 20 il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilib. Ölkəmizin sosial, iqtisadi, intelletual və mədəni potensialının artırılması üçün dəyərli töhfələr verib. Elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə o öz nüfuzunu ilbəil artırmağa müvəffəq olub". Məhz o, gender siyasətinin gücləndirilməsi, qadınların hüquqlarının qorunması yolunda təqdirəlayiq işlər görür.

Bu gün dövlətimiz tərəfindən Azərbaycan qadınına böyük diqqət göstərilir. Azərbaycan qadınının tarix boyu kişilərlə çiyin-çiyinə qəhrəmanlıq göstərməsi və hər zaman çətin məqamlarda onların yanında olması qadınlarımızın mərdliyindən, qəhrəmanlığından xəbər verir. Azərbaycan qadını öz soy-kökünü, xalqının mədəni irsini, tarixi adət-ənənələrini, ana dilini, mənəviyyatını qoruyan, onu daha da təmkilləşdirən varlıqdır. Düzgün qərar qəbul etmək bacarığı, böyük potensiala malik olması ilə hamını heyrətləndirən qadın dövlət xadimləri tariximizin ayrı-ayrı dövrlərində yaşayıb fəaliyyət göstərərək dünya qadın hərəkatının qürur səhifələrinə çevrilib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Qarabağ məsələsinə, diabetli uşaqların müalicəsinə, uşaq evlərinin yenilənməsinə diqqət ayırması, Xocalı soyqırımı ilə bağlı fəaliyyəti, Azərbaycan həqiqətlərini dünyaya çatdırması, mədəniyyətin müxtəlif sahələri arasında, təhsil, musiqi, idman sahəsində gördüyü işlər, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun məhz onun təşəbbüsü ilə yaradılması, dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətləri, Şərq ilə Qərb arasında yeni perspektivli əlaqələr qurması, mədəni irsin, folklorun, xalq sənətkarlığının qorunması, muğama diqqət ayırması, muğam müsabiqəsinin, Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi ilə bağlı fəaliyyəti, yeni-yeni təhsil ocaqlarının açılması bağlı təşəbbüsü əsl Azərbaycan qadını olaraq onu hər kəsin sevimlisinə çevirmişdir. Mehriban xanımın xeyirxah əməlləri, təhsilimizin, milli dəyərlərimizin təbliği, inkişafı, xalqın rifahı naminə gördüyü işlər Azərbaycan qadınının uğurla fəaliyyət göstərməsinə bariz nümunə olaraq, beynəlxalq aləmdə sonsuz rəğbətlə qarşılanır. Qərb dünyası Mehriban Əliyevanı Şərqin ağıllı, müdrik, peşəkar bir siyasətçisi kimi tanıyaraq Azərbaycan qadınının ictimai-siyasi həyatda oynadığı rolun əhəmiyyətini görür. Mehriban xanım Əliyeva cəmiyyətdə qadınların oynadığı rol barədə demişdir: "Azərbaycan qadınları həyatın bir çox sahələrində əldə etdikləri uğurlarla haqlı olaraq fəxr edirlər. Tarix boyu Azərbaycanda mədəniyyətimizin, milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılmasında qadınların misilsiz xidməti olubdur. Azərbaycanda qadın, ana hər zaman müqəddəs sayılıbdır".

# MÜSƏLMAN ŞƏRQİNDƏ QADIN HÜQUQLARI UĞRUNDA MÜBARİZ XANIM - ZƏHRA TAC ƏS-SƏLTƏNƏ

**Hacıyeva Yeganə**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*yeganahaji@gmail.com*

İslam dini ehkamlarından doğan, sərt şəriət qanunlarından irəli gələn qadağalar nəticəsində uzun əsrlər boyunca İranda qadınlarla hüquqsuz bir məxluq kimi davranılıb. Pəhləvilərin hakimiyyət illəri ölkədə sənaye inqilabı və Şah Rza Pəhləvi tərəfindən başlanan qadınlara geniş hüquqlar verən islahatlar dövrü kimi tanınır. Hətta 1928-ci ildə ilk dəfə olaraq qadınların xaricdə təhsil alması üçün dövlət vəsaiti ayrılmışdı. Bu faktlara görə İranda qadın hüquqlarından söz düşərkən, əsasən, Pəhləvi dövrü xatırlanır. İranda qadın hüquqları uğrunda mübarizənin tarixi isə daha əvvələ – Qacar xanədanının dövrünə gedib çıxır.

Qacar səltənətinin hökmdarı Nəsirəddin şahın (1848-1896) qızı Zəhra xanım Tac əs-Səltənə (1883-1936) konstitusiya hərəkatında fəal rol oynayıb, xüsusən də qadın hüquqlarının uğrunda böyük mübariz kimi tarixə düşüb. O, bacısı İftixar xanım Əssəltənə ilə birlikdə "Qadınların Hürriyyət Təşkilatı"nın (Əncümənе Horriyəte Nisvan) əsasını qoyaraq, müsəlman Şərqində qadınların hüquqları uğrunda mübarizə aparan ilk təşkilatın yaradıcısı olmuşdur. Faciəli bir şəxsi həyat yaşayan şahzadənin iztirabları onu öz mübarizəsindən çəkindirməyib.

"İztirab tacı" memuar əsərinin müəllifi olan Zəhra xanım istedadlı yazıçı kimi də adını tairxə yazdıra bilib.

*Dünyada və regionda baş verən mütərəqqi proseslərin təsirinə reaksiya olaraq daha da sərt xətt yürüdən İranda 22 yaşlı gənc qadın Məhsa Əmininin hakimiyyət qüvvələri tərəfindən öldürülməsindən sonra yaranan etiraz dalğası islam respublikasında qadın hüquqlarının müdafiəsinə dair müzakirələri yenidən aktuallaşdırıb. Qadınların hüquqları uğrunda mübarizə aparan toplum bu mübarizənin ilk buzqıranlarını da tanımalıdır. Çoxları tərəfindən yalnız şahzadə kimi tanınan Zəhra xanım Tac Əs-Səltənənin irsinin öyrənilməsi bu baxımdan aktual və əhəmiyyətlidir.*

# AZƏRBAYCANLI ŞAİRƏ HEYRAN XANIM

**Verdiyeva Günay**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*
*gunayverdiyeva@mail.ru*

XIX əsrdə yaşamış və Cənubi Azərbaycanda Füzuli şeir cərəyanını davam etdirən şairlərdən olan Heyran xanımın adı ilə bağlı açılmamış səhifələri ilk olaraq görkəmli naşir və publisist Qulam Məmmədli üzə çıxarmışdır. XX əsrin əvvəllərində Heyran xanımın şəxsiyyəti, həyatı və tərcümeyi-halı haqqında əldə heç bir dəqiq məlumat olmamışdır. Yalnız İkinci Dünya müharibəsi ərəfəsində Cənubi Azərbaycanın ədəbiyyatşünaslarından Məhəmmədəli Tərbiyət nəşr etdirdiyi "Daneşməndane - Azərbaycan" (1935) əsərində şairə haqqında qısaca məlumat vermişdir. Orada qeyd olunur ki, şairə Təbrizdə anadan olmuş və orada yaşamışdır. Ancaq müharibə illərində Qulam Məmmədli Mirzə İbrahimovun tapşırığı ilə Təbrizdə Heyran xanımın divanını əldə edir və şeirlərini 1945-ci ildə əvvəl Təbrizdə, daha sonra isə Bakıda kitab halında çap etdirir. Divandakı beytlərin bir qismi Heyran xanımın Naxçıvanda doğulduğunu, əslən isə Cənubi Azərbaycanda olan Dünbüli tayfasından olduğunu təsdiq edir. XVIII əsrin 90-cı illərində Naxçıvanda məşhur Kəngərlilər ailəsində doğulmuş və orada da tərbiyə almış Heyran xanım, İran-Rusiya müharibəsinin ilk aylarında ailəsi ilə birlikdə Cənubi Azərbaycana köçürülmüş, Təbrizdə və Xoyda yaşamışdır. Ustad saydığı Füzuli kimi qürbətdə yazıb-yaratmışdır. XIX əsrin 50-ci illərində Təbrizdə vəfat etmiş Heyran xanımın 4500 beytdən ibartət divanı qalmışdır. Heyran xanımın yaradıcılığını araşdırarkən məlum olur ki, lirik şeirlərində o, Füzuli məktəbinin davamçılarından sayılmağa layiqdir. O, klassik poeziyanın qəzəl, müxəmməs, müstəzad, rübai, tərcibənd janrlarında yazmışdır. Həmçinin Heyran xanım Füzuli və Qövsi Təbriziyə yazılmış nəzirələrin müəllifidir. Heyran xanımın həm Azərbaycan, həm də fars dilində yazılmış şeirləri məhəbbət, Vətən eşqi, həsrətindən doğan kədər, yaşadığı mühitdə hökm sürən qadın hüquqsuzluğundan bəhs edir və buradan şairənin etirazı güclü şəkildə sezilir.

# KIBRIS TÜRK ŞAİRİ URKİYE MİNƏ BALMANIN POEZİYASINDA MİLLİ KİMLİK

**Məmmədova-Kekeç Elmira**
*Bakı Avrasiya Universiteti,*
*Ümumi filologiya kafedrası;*
*Xəzər Universiteti,*
*Dillər və ədəbiyyat departamenti,*
*fil.ü.f.d., dosent*
*mamedovaelmira4@gmail.com*

Kıbrıs adası XVI əsrdən sonra Osmanlı dövlətinin tərkibinə qatılmış, bundan sonra türk xalqları ədəbiyyatının tərkib hissəsi kimi zəngin və rəngarəng mövzulara malik Kıbrıs türk ədəbiyyatı anlayışı ortaya çıxmışdır. Qeyd edək ki, XVII-XVIII əsrdən etibarən yazılı ədəbiyyatları formalaşmağa başlayan Kıbrıs türk şairləri klassik mərhələdə Osmanlı ədəbiyyatını izləmişlər.

Kıbrıs türk ədəbiyyatının yeni mərhələsində də Türkiyə ilə bağlılıq davam etdirilmişdir. 1878-ci ildən etibarən Kıbrıs adasının İngiltərə hökumətinin əlinə keçməsi, adanın ingilislər tərəfindən ilhaqı ölkə ədəbiyyatının mövzusunu da dəyişdirmişdir. Kıbrıs türk ədəbiyyatında Özker Yaşın başda olmaqla, vətənpərvərlik mövzularının işlənilməsi həm də qadın şairlərin yaradıcılığında başlıca məsələlərdən olmuşdur.

Milli kimlik şüurunun aşılanmasında, milli özünüdərk probleminin qoyulmasında böyük rol oynayan şairlərdən biri də Urkiye Minə Balman (1927-2018) olmuşdur. Bu baxımdan onun "Türk adası", "Vətənə səsləniş", "Atatürküm", "Hisarlar", "Yurduma gedən yollar" kimi şeirlərində böyük lider Mustafa Kamal Paşa Atatürk, onun ideyaları, vətən eşqi kimi mövzulara toxunulmuş, yadellilərin adaya göz dikməsi, buranın tarixən türk yurdu olması kimi məsələlər yer almışdır.

Digər şairlər kimi, Urkiye Minə Balman da türklərin tarixi zəfərlərindən, heybətli döyüşlərindən bəhs etmişdir. Mohaç, Çaldıran, Sakarya, Dumlupınar kimi savaşlardan da söhbət açan şair *"Al bayrağım uçtukça titrer üstünde canım / Kurban olsam yoluna ey ilahi Vatanım"* kimi misraları vasitəsilə vətənpərvərlik duyğularını ifadə etmişdir.

Məruzədə kıbrıslı qadın şairin yaradıcılıq yolu və milli kimlik məsələsinin poeziyada qabardılmasında olan rolu haqqında geniş bilgi veriləcəkdir.

# A.İMANQULİYEVA AZƏRBAYCAN ƏRƏBŞÜNASLIĞINDA QADIN HƏMRƏYLİYİNİN CARÇISI KİMİ

**Məcidova Fatma**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*f.ü.f.d., dosent*
*fatima.mecidova@mail.ru*

XX əsr Azərbaycan ərəbşünaslığının inkişafında əvəzsiz xidmətləri olan görkəmli alim prof. Aida İmanquliyevanın çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olsa da, onun bir alim kimi maraq dairəsi geniş və çoxşaxəli idi. Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı idi. İstər postsovet məkanında, istərsə də Avropa şərqşünasları arasında onun tədqiqatları bu gün də aktuallığını itirmir. Ərəb ölkələri ilə qarşılıqlı ədəbi, mədəni əlaqələr baxımından tanınmış ərəb yazarlarının əsərlərinin Azərbaycan dilinə tərcüməsi mühüm əhəmiyyət kəsb edirdi. Ötən əsrin 60-80-ci illərində ərəbcədən mükəmməl tərcümələri və təhlilləri ilə o sanki, Azərbaycan oxucusuna ərəb dünyası haqda düşündürücü fikirlər təbliğ edirdi. Ərəb ədəbiyyatında qadın azadlığı, qadın hüquqlarının qorunması kimi məsələləri işıqlandıran maarifpərvər ərəb mütəfəkkirlərinin haqq səsindən xəbərdar olan tədqiqatçı alimin qadın həmrəyliyinə göstərdiyi münasibət birmənalı idi. A.İmanquliyeva yazırdı: "Əsrlərdən bəri qadınlar xürafatın, mövhumatın və keçmişin digər mənfur qalıqlarının qurbanı oluşlar. Şərq qadını insana xas olan bütün imtiyazlardan, hüquq və üstünlüklərdən məhrum idi. Əgər azadlıq məfhumu altında insanın siyasi və mənəvi, zehni və fiziki müstəqilliyi anlaşılırsa, Şərq qadını bunların hamısından məhrum idi".

XIX əsrin sonlarından etibarən bir sıra qabaqcıl ərəb ölkələrində baş vermiş ədəbi inqilab qadın azadlığı və hüquqları mövzusunu həmin dövr üçün aktual problemlərdən birinə çevirir. A.İmanquliyeva belə hesab edirdi ki, o dövrdə Ə. F. əş-Şidyaq, B. əl-Bustani, M.Əbdo, C.Zeydan, İ.Ubeyd, C.S.əz-Zəhavi, Q.Əmin, M.H.Nasif, M.Ziyadə kimi mütərəqqi ideyalı ədib və publisistlərin əsərlərinin dərc olunması Ərəb Şərqində qadın hərəkatının vüsət almasına kömək edən başlıca amil idi.

## TÜRK QADINLARININ CƏMİYYƏTDƏKİ YERİ

**Qasımlı İnci**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Yazılı abidələrin tədqiqi və nəşri şöbəsi,*
*f.ü.f.d., dosent*
*iqasml @mail.ru*

Ümumtürk tarixində qadın ailə ilə yanaşı, cəmiyyət həyatında da böyük rol oynamışdır. Türk qadını dövlətin idarə olunmasında, hüquq, siyasət, iqtisadiyyat, ədəbiyyat, mədəniyyətin yaranması və inkişafında kişilərlə bərabər fəaliyyət göstərmişdir. Türk qadınlarının cəmiyyətdəki tarixi rolunu bir neçə mərhələyə bölmək olar.

1-ci qədimdən islamaqədərki dövrü əhatə edir. Bu mərhələdə ilk qadın liderlərimizdən olan, Əhəməni fars dövlətinin əsasını qoymuş II Kiri məğlub edən ilk Azərbaycan-türk qadın hökmdarı Tomrislə fəxr edə bilərik.

2-ci türklərin islamı qəbul edəndən XIX əsrin 20-ci illərinə qədərki dövrdür. Bu mərhələ qadınlarımız üçün qapalı dövr sayılsa da, tarixdə seçilən qadınlarımızdan Möminə Xatun, İnanc Xatun və onlarla qadınımız türk dünyasının ictimai-siyasi həyatında xüsusi rol oynamışlar.

3-cü Azərbaycanın quzeyinin müstəmləkəçilik və ya çar Rusiyası dövrüdür. Bu dövrdə də Ağabəyim xanım, Xan qızı Natəvan və onlarla türk qadını bu mərhələnin fəxridirlər.

4-cü ilk müstəqillik, yəni AXC-nin yaranması dövrüdür. Bu mərhələdə türk qadını tarixdə ilk dəfə olaraq dövlət tərəfindən kişilərlə bərabər hüquq və azadlıqlara sahib oldu. Azərbaycan qadınına 10 dekabr 1918-ci ildə isə AXC Parlamentinin ikinci iclasında islam aləmində ilk dəfə olaraq seçilmək hüququ rəsmi dövlət səviyyəsində verilmişdir.

5-ci Sovet dövrüdür. Bütün qüsurlarına baxmayaraq, bu dövrdə də Azərbaycan qadınına həyatın bütün sahələrində kişilərlə bərabər hüquqlar verilmiş və bütün bunlar Konstitusiyada təsbit edilmişdir.

Müstəqilliyimizin indiki mərhələsində artıq qadınlarımızın liderliyi ələ alma əsridir. Bu gün Azərbaycan qadını artıq şəxsiyyətləşmiş bir varlıqdır. Onlar düşüncəli, savadlı fərdlər olmaqla yanaşı, cəmiyyətdə müəyyən yer tutaraq öz ictimai rollarını yerinə yetirməkdədirlər.

# “ƏRƏBLƏRİN GÜNLƏRİ” ƏSƏRİNİN QADIN TİPLƏRİNƏ MÜASİR BAXIŞ

**Bayramova Lalə**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Təhsil şöbəsinin*
*müdiri, f.ü.f.d, dosent*
*bayramova78@hotmail.com*

“Ərəblərin günləri” toplusu ərəb tarixinin salnaməsi, eləcə də ərəb ədəbiyyatının qədim divanıdır. Bu dəyərli toplu yalnız qəbilələrarası müharibə və mübarizələrdən ibarət deyildir. Həmçinin Şərq milli-mənəvi, əxlaqi dəyərlərini qadın obrazları vasitəsilə XXI əsrə qədər çoxəsrlik məsafə qət etmiş qədim ərəb abidəsidir.

Cahiliyyə dövründə kişinin qadından üstün varlıq hesab olunmasına baxmayaraq, qadınların ictimai mühitdə əhəmiyyətli rolu olmuşdur. Belə ki, qadınlar kişilərlə bərabər döyüşlərə göndərilirdi. “Ərəblərin günləri” toplusunda Cahiliyyə dövründə meydana gələn döyüşlərin davamı olan Uhud döyüşündə də qadınların döyüşə cəlb edildiyinin şahidi oluruq.

“Ərəblərin günləri” toplusunda qadının başlıca rolu ana olmasından ibarətdir. Məşhur ərəb şairi İmrul-Qeysin anası Kuleyb bin Vailin bacısı Fatimə bintu Rabia bin əl-Haris müsbət qadın, əzmkar ana rolunda çıxış edir. Onun tərbiyə edib, böyüdüb boya-başa çatdırdığı şair İmrul-Qeysin müəlləqələri bu gün də ərəb şeirsevərlərin dillər əzbəridir. Şair Zuheyr bin Əbu Sulmənin (520-617) atası, babası şair olsalar da, şairlik dərsini məhz Qatafan tayfasından olan anası Umm Amr vasitəsilə alır.

Topluda əhəmiyyətli yer tutan “Mudarrit əl-Hicəranın öldürülməsi” günü İmru-l-Qeysin ata tərəfdən doğma bibisinin oğlu Mudarrit ilə, ana tərəfdən dayısının nəvəsi Əmr ibn Kulsum arasında baş verən hadisə onların hər ikisinin bir-birlərinə analarının üstünlüyünü sübut etmələrindən yaranmışdır.

“Ərəblərin günləri” toplusunda qadının digər rolu sevginin vəsf simvolu kimi çıxış etməsidir. İmrul-Qeysin sonsuz sevginin önündə əyilməzliyini, yenilməzliyini, dəyanətini tərənnüm edən şeir misralarını həsr etdiyi əmisi qızı Əblə sevilən və sevdiyi uğrunda mübarizə aparılan qadın obrazıdır.

“Ərəblərin günləri” toplusunda qadının əsas rolu qız övladı kimi çıxış etməsidir. Topluda Qeys ibn Hatimin iki oğlu ilə birlikdə iki qız övladından söhbət açılır. Qızlarından biri olan Leylanın Məhəmməd peyğəmbərə (s.a.s) biət edən ilk qadın olduğu söylənilərək qızın, qadının bu qədim əsərdə dəyərli olduğunu ön plana çəkir.

“Ərəblərin günləri” toplusunda qadının digər rolu vəfalı həyat yoldaşıdır. Bəsus müharibəsində Kuleybin həyat yoldaşı Cəlilənin vəfası buna əyani sübutdur.

Ümumiyyətlə, topluda bizə təqdim olunmuş qadın obrazlarına müasir baxışımız onların həm bacı, ana, ömür-gün yoldaşı, məşuqə kimi çıxış etmələri ilə paralel şəkildə kişilərlə çiyin-çiyinə çalışdıqlarının, comərdliklərinin şahidi oluruq.

## KAFA AL-ZOOBİ "LEYLA, QAR VƏ LYUDMİLA" ROMANINDA MÜASİR ƏRƏB QADIN YAZIÇININ DÜŞÜNCƏLƏRİ

**Əliyeva Lalə**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Yazılı abidələrin tədqiqi və nəşri*
*şöbəsinin aparıcı elmi işçisi*
*f.ü.f.d., dosent*
*lala_nazali@yahoo.com*

İordaniyalı yazıçı Kafa al-Zoobi psixoloji romanı "Leyla, qar və Lyudmila"da qadın və kişi münasibətlərinə toxunur. Bu mövzu islamdan öncə də ərəb ədiblərinin diqqətində olub. Belə ki, Antara ibn Şaddad (525-616) sevgilisi Ablanı vəsf edir; şərab və şəfqət şairi Abu Nuvasın (756-814) şeirlərini bu günə kimi bu səbəblərdən sərbəst satışda almaq olmur. Yalnız "Min bir gecə" nağıllarında qapalı şəkildə bəzi səhnələri seyr etmək olar. İyirminci yüzillikdə məhəbbət mövzusunda çalışan yazıçılar bu sahəni inkişaf etdirməyə başladılar. Bunu tək kişi yazıçılar deyil (məsələn, misirli Nobel mükafatçısı Nəcib Mahfuz (1919-2006) "Yağış altında məhəbbət" toplusu, İhsan Abd el-Kuddus (1919-1990) – bir çox melodram ssenarilərinin müəllifi), həm də qadın yazıçılar edir. Suriyalı qadın yazıçı Qadə Əs-Səmman (1942), səudiyəli Raci Alsani (1981), Ərəb Əmirliklərindən Hind Al-Kassemi (1985) və başqaları öz əsərlərində qadın xoşbəxtliyinin sirlərini araşdırırlar. Bunların arasında xüsusi yeri Rusiyada təhsil almış iordaniyali yazıçı Kafa az-Zoobi tutur. Baş qəhrəmanlar: tibb tələbəsi Leyla, onun rəfiqəsi Lyudmila və qar – Rusiyanın rəmzi, cilovsuz təbiətin təcəssümü. İlk baxışdan Leyla və Lyudmilanın bir-biri ilə heç bir əlaqəsi yoxdur. Ordinator Leyla yataqxanada yaşamaqdan bezmişdi və iş yerinə yaxın otaq axtarırdı. O, rus gənc Lyudmila ilə bir mənzili bölüşür. Qızlar bir-birilərinin tam əksidir: İordaniyadan utancaq qaraşın və Rusiyadan cəsarətli bir sarışın. Onların yalnız yaşları (hər ikisi 28 yaşında idi) və yaşayış yerləri – Neva çayının gözəl mənzərəsi olan dördotaqlı kommunal mənzil – üst üstə düşür...

# MƏHSƏTİ GƏNCƏVİ ƏDƏBİ İRSİ İNGİLİSDİLLİ TƏDQİQATDA

**Əliyeva Leyli**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*aparıcı elmi işçi, f.ü.f.d., dosent*
*leyli.aliheydar@mail.ru*

Klassik Azərbaycan poeziyasında özünəməxsus yeri olan Məhsəti Gəncəvi hələ sağlığında gözəllik və məhəbbət aşiqi kimi məşhur olmuş, yazdığı müxtəlif məzmunlu rubailəri təkcə öz diyarında deyil, Yaxın Şəqin hər tərəfinə yayılmış, eyni zamanda başqa dillərə də tərcümə edilmişdir. Şairənin həyatı, yaşadığı dövrlə bağlı ilk məlumata ingilis şərqşünası Q.Auslinin (1770-1845) 1846-cı ildə Londonda nəşr edilən "Fars şairləri haqqında tərcümeyi-hal qeydləri. Tənqid və şərhlərlə" adlı əsərində rast gəlirik. Q.Auslinin əsəri orta əsrlərdə Azərbaycanla bir sıra Şərq xalqları arasında olan ədəbi-mədəni əlaqələri öyrənmək baxımından zəngin material verir. Məhsəti Gəncəvinin şəxsiyyəti, rübailəri ilə bağlı məlumatlara Çarlz Riyonun kataloqlarında, E.Braun, Kassel, R.Levinin, hindistanlı Abdulla Ənvər bəy, R.P.Masani, Hadi Həsən və digər tədqiqatçıların əsərlərində rast gəlirik. Tanınmış çex alimi Yan Rıpka özünün "İran ədəbiyyatı tarixi" əsərində Məhsəti sənətinə yüksək qiymət vermiş, Məhsəti kimi "məhəbbətin ürək çırpıntılarını tərənnüm edən ikinci bir şair tapmağın" çətin olduğunu vurğulamışdır.

Qərb şərqşünaslığında Məhsəti ədəbi irsi tədqiq edilməklə yanaşı, şairənin poetik incilərı də yeri gəldikcə ingilis dilinə tərcümə edilmişdir. Tərcümə edilən bu poetik nümunələrdə bəşəri ideyalar, nəcib insani hisslər, həyata və təbiətə məhəbbət, saf dostluq, təmiz sevgi başlıca yer tutur. 1969-cu ildə ingilis dilində nəşr edilən "Azərbaycan poeziyasının antologiyası"nda istedadlı mütərcim Qladis Evansın Məhsətidən etdiyi nümunələr diqqəti cəlb edir. İngilis dilinə tərcümə edilən nümunələri orijinalla müqayisə edərkən görürük ki, Məhsəti rübaisində olan fikir, məna, məzmun və forma qismən Qladis Evansın tərcüməsində saxlanılmışdır. Qüdrətli şairənin sənət incilərinin, təbii ki, Avropa dillərinə tərcümə edilməsi davam etdirilir.

# ƏRƏB MÜHACİRƏT POEZİYASINDA QADIN MÖVZUSU

**Həmidov Mahir**
*Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, aparıcı elmi işçi*
*f,ü,f,d., dosent*
*hemidovmahir2025@gmail.com*

Dünya ədəbiyyatında mühüm yer tutan qadın mövzusu ərəb ədəbiyyatında da ən çox işlənən mövzulardan biri olmuşdur. Cəmiyyətin inkişafının əsas sütunu, güclü nəsillər yetişdirmək vəzifəsini üzərinə götürən qadının mövzu olaraq ədəbi əsərlərdə ələ alınması Cahiliyyət dövrü ərəb poeziyasından tutmuş günümüzə qədər müxtəlif şəkildə işlənmişdir. Xüsusən də ərəb ədəbi əsərlərinin ilk dövründə qadın həzz vasitəsi, heyvani hissləri doyuran bir əmtəə kimi qəbul edilmiş, onun daha çox zahiri gözəlliyi ön plana çəkilmişdir.

Ərəb məhcər ədəbiyyatının müasir ərəb ədəbiyyatında iz qoymuş nümayəndələri də qadın mövzusundan kənarda qalmamış, hekayə və şeir janrlarında bu mövzuya toxunmuş, ədəbi əsərlərində ərəb cəmiyyətində qadınlara qarşı edilən haqsızlığa qarşı üsyan bayrağını qaldırmışlar. Onların ədəbi əsərlərində qadına cins kimi deyil, cəmiyyətin bir fərdi kimi yanaşılmış, ənənəvi ərəb ədəbi əsərlərindən fərqli olaraq qadının yanağı, gözü, qaşı deyil, onun ruh gözəlliyi, mənəvi dünyası təsvir edilmiş, fərd olaraq qadının insani xüsusiyyətləri üzə çıxarılmağa çalışılmışdır. Eyni zamanda qadın sevgisi əsl sevgiyə, ilahi məhəbbətə aparan vasitə, simvol kimi xarakterizə olunmuşdur.

Bu araşdırmada ərəb məhcər ədəbiyyatının təmsilçilərinin əsərlərində qadın mövzusunun işlənmə arealı, onun bir şəxsiyyət kimi cəmiyyətdəki mövqeyi və mövzunun ənənəvi ərəb ədəbi əsərlərindən fərqli cəhətlərindən bəhs edilmişdir.

# XX ƏSRİN ƏVVƏLLƏRİ TÜRKİYƏNİN ƏDƏBİ-MƏDƏNİ HƏYATINDA QADININ ROLU

**Babayeva Eşqanə**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*f.ü.f.d., dosent*
*eshqane@mail.ru*

Yeni qurulan cümhuriyyətin əsas ideologiyalarından biri də qadın haqq və hüquqları ilə bağlı idi. Tarixə nəzər saldıqda görürük ki, Türkiyədə, bu hərəkat II Məşrutiyyət dövründə başlamış, həmin dövrdə ilk müsəlman türk qadın dərnəyi qurulmuş, "Qadınlar dünyası", "Qadın yolu dərgisi", "Qadınlar aləmi", "Xanımlar aləmi", "Gənc qadın", "İnci", "Xanım", "Ev xocası", "Süs", "Füruzə" və s. kimi qadın qəzet və jurnalları nəşr olunmağa başlamışdır. Bundan başqa, "İqdam", "Sabah", "Sərvət-i fünun", "Millət" və s. kimi qəzetlərdə də qadın imzalarına rast gəlinirdi. Cümhuriyyət dövründə bu hərəkat daha da güclənmiş, qadınlara siyasətdə belə geniş yer verilmişdir. Bunun təməl səbəblərindən biri də ölkənin inkişafı məsələsi idi.

Yeni qurulan Türkiyə Cümhuriyyətində Osmanlı dövlətinin "müsəlman ailə qadını" ifadəsi öz yerini "cümhuriyyətin sadiq və üsyankar qızları"na vermişdi. R.Güləndam da XIX əsrin axırlarında bütün dünyada görülən "qadın hərəkatı"nın, Osmanlı toplumunda da mühüm yer tutduğunu vurğulayaraq azadlıq hərəkatı olaraq ortaya çıxan II Məşrutiyyət və Cümhuriyyət dövrlərində "müasirləşmə" və "laiqləşmə" (laiq – dinin dövlətdə ayrı tutulması ideologiyası idi) kimi qəbul edilən qadın fəaliyyətinin, ədəbiyyatdan mətbuata qədər bir çox sahədə qadınların "var"lığına dəlalət etdiyini yazırdı. Qeyd edək ki, xüsusən də milli mücadilə illərində qadın yazıçıların fəaliyyəti mühüm olmuşdur. Belə bir şəraitdə qadın dünyası, duyğu və hissləri, ailə və cəmiyyətdəki mövqeyi kimi məsələlər bədii əsərlərin də əsas mövzularından birinə çevrildi. Xalidə Ədib, Kərimə Nadir, Müəzzəz Təhsin, Nəziha Mühiddin, Güzidə Səbri, Safiya Ərol, Suad Dərviş, Şükufə Nihal, Xalidə Nüsrət kimi qadın yazıçıların əsərlərində qadın köləliyinə, qadın əsarətinə etiraz öz əksini tapırdı. Bununla yanaşı, "Atəşdən köynək", "Dikmən ulduzu", "Çalıquşu" kimi romanlarda qadının ictimai-siyasi həyatda mövqeyi və önəmi vurğulanırdı.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN İCTİMAİ HƏYATINDA QADINLARIN ROLU

**Musayev Dəyanət**
*ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
*musayev_d@yahoo.com*

Azərbaycanda qadın fəallığının əsaslarına və ənənələrinə nəzər saldıqda bu tarixin kifayət qədər zəngin olduğunun şahidi oluruq: Heyran Nisə Bəyim, Tuti Bikə, Dəspinə Xatun, Sara Xatun diplomatiya, Məhsəti Gəncəvi, Xurşudbanu Natavan, Heyran xanım, Fatma xanım Kəminə və b. ədəbiyyat sahəsində öz sözlərini demiş qadınlarımızdan hesab olunurlar.

XX əsrin əvvəllərində savadsızlıq və bəzən də fanatik ənənələr səbəbindən ictimai və siyasi həyatdan təcrid olunmuş qadınların şəxsi həyatı üçün bir sıra çətinliklər yaranmışdı. Azərbaycanın ziyalı elitası xalqı maarifləndirməyə, hüquq və vəzifələrini anlatmağa çalışır, cəmiyyətdə qadın və kişi bərabərliyi ideyasını irəli sürürdülər. Bu mövzuda daha çox H.Zərdabi, Ə.Ağayev, M.Şahtaxtlı, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Nəzmi, M.Ə.Sabir, F.Köçərli, M.S.Ordubadi, C.Cabbarlı, M.Ə.Rəsulzadə və b. yazırdılar. Edilən hücumlardan çəkinməyərək, onlar diqqəti qadın problemlərinə cəlb edə bilir və ən əsası, qadınlara kişilərlə bərabər təhsil verməyin zəruriliyini diqqətə çatdırırdılar.

Bununla belə, ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət statusu almış oldu. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapdı.

Beləliklə, Azərbaycan müsəlman dünyasında qadınlara seçki hüququ verən ilk ölkə olaraq tarixə düşdü. Müqayisə üçün qeyd etmək lazımdır ki, ABŞ-da qadınlara seçki hüququ 1920-ci ildə, Böyük Britaniyada 1928-ci ildə, Fransada 1944-cü ildə, İranda 1945-ci ildə, Belçikada 1948-ci ildə, Çində 1949-cu ildə, Birləşmiş Ərəb Əmirliklərində 2006-cı ildə, Səudiyyə Ərəbistanında 2015-ci ildə verilib.

Azərbaycan Cümhuriyyəti Parlamentinin yeganə qadın üzvü Şəfiqə Əfəndizadə olmuşdur. O həm ictimai, həm də pedaqoji fəaliyyət göstərən ilk qadınlardan olmuşdur.

Dövrün ictimai, siyasi, pedaqoji, publisistik və digər sahələrində ad qazanmış məhşur ziyalı xanımları – Nigar Şıxlinskaya, Xədicə Ağayeva, Sara Talışinskaya, Eynülhəyat Yusifbəyli, Badusəba Köçərli, Fatma Hacinskaya, Mədinə Qiyasbəyli, İsmət Aşurbəyova, Pəri Topçubaşova, Sürəyya Axundova, Hənifə Zərdabi, Liza Muxtarova, Əminə Ağayeva, Mina Aslanova, Nigar Vəlibəyova, Gövhər Qayıbova və digərləri öz adlarını tarixə yazdırmışdır.

AXC dövründə 4 qadın gimnaziyası, 3 Müqəddəs Nina qız tədris müəssisəsi fəaliyyət göstərirdi. 1919-cu ilin 11 avqustunda Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (Şəki) Müqəddəs Nina qız tədris müəssisələrinin adları dəyişdirilərək Bakıda birinci Azərbaycan qız gimnaziyası, Gəncə və Nuxadakılar isə qız gimnaziyaları adlandırıldı.

Hər bir xalqın formalaşması və təkamülü prosesində mütərəqqi fikir və ideyalar əsas səfərbəredici amil kimi çıxış edir. Bu fikir və ideyaları özündə cəm edən milli ideologiyalar olmadan ayrı-ayrı xalqların nəinki inkişafından, hətta mövcudluğundan danışmaq çətindir.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi azərbaycanlıların, ilk növbədə, yüksək milli ideyaya və yenilikçi düşüncə tərzinə malik olmasının bariz göstəricisidir. Milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz AXC dövründə Azərbaycanda xalqın demokratik hüquq və azadlıqları bərqərar edilmiş, müsəlman dünyasında ilk dəfə olaraq qadınların seçki hüququ tanınmış, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar bərabər hüquqlara yiyələnmiş, Milli Ordu, parlament, hüquq mühafizə orqanları, ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti yaradılmışdır. Əlbəttə ki, ümumilikdə 328 ilkə imza atmış Azərbaycan Xalq Cümhuriyyəti ilk dəfə olaraq coğrafi məfhum olan “Azərbaycan” ifadəsini siyasi məfhuma çevirib.

1991-ci ildə Azərbaycanın müstəqilliyi yenidən bərpa ediləndə qadınların seçmək və seçilmək hüququ da bərpa olundu. Kişilərlə bərabər qadınlar həm seçkidə iştirak etdi, həm də seçkili orqanlarda təmsil olundu. Belə ki, 2000-ci il parlament seçkilərində 13, 2005-ci ildə 14, 2010-cu ildə 20, 2015-ci ildə 21, 2020-ci ildə isə 22 qadın Ali qanunverici orqana üzv seçilib. Hal-hazırda Parlament sədri də xanımdır.

Xalq Cümhuriyyətinin miras qoyduğu milli dövlətçilik ənənələrinin dövrümüzədək yaşaması və reallaşması, heç şübhəsiz, Ulu öndər Heydər Əliyevin bilavasitə adı ilə bağlıdır. Bu gün də dövlətçilik ənənələrinin, eləcə də dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi cənab Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır.

# QADIN ŞƏRQ VƏ QƏRB QOVŞAĞINDA

**Məlikov Ələddin**
*AMEA Fəlsəfə və Sosiologiya*
*İnstitutunun aparıcı elmi işçisi,*
*f,ü,f,d., dosent*
*aladdin.malikov@mail.ru*

Qadın problemi fəlsəfənin ayrılmaz bir mövzusu kimi, bəşəriyyəti daim düşündürən ən başlıca mövzulardandır. İnsan düşüncəsinin istər Şərqdə, istərsə də Qərbdə hansı tərəfə istiqamətlənməsindən asılı olmayaraq, son hədəfi yenə də insan həyatı və varlığının özüdür. Eynilə ekzistensializmdə olduğu kimi, varlığın mahiyyəti yox, onun mövcudluğu təhlil edilir. Məhz bu baxımdan çıxış edərək deyə bilərik ki Şərqdə qadının varlığı, Qərbdə isə mahiyyəti tədqiq edilmişdir. Bu səbəbdən Şərq və Qərbdə günümüzdə də qadın haqqında məzmunca fərqli fikirlər səslənir. Şərq dünyagörüşü qadını nəcib bir varlıq hesab edərək, onu müqəddəsləşdirmiş və uca tutaraq qorumağa çalışmışdır. Qərb dünyası isə qadını qorunmasını onun toplum daxilindəki inkişafında görür. Şərqdə qadın bir insan olaraq Allahın yaratdığı bütün insani keyfiyyətlərə malik hesab edilsə də, mümkün qədər toplumda aktiv rol almaqdan uzaq olmuşdur. Qərb dünyagörüşündə isə qadın və kişi bərabərliyi mövzusu, xüsusən intibah dövründən başlayaraq vüsət almış və sanki bütün düşüncələr cinsi fərqliliyə yönəlmişdir. Qadın Şərqdə həya simvoludur. Məhz bu səbəbdən də qadının əsas işi ailə və onun formalaşması üçün atılan bütün addımlardır. Şərqdə qadın azadlığı onun ailədə tərif olunan işlərindən ibarət hesab edilmişdir. Şərqdə qadın əsl zəhmətkeşdir. Şərqdə qadının işləməsi, ictimai həyatda olması tam qadağan olmasa da, həmişə ikinci məsələ hesab edilib. Şərqdə qadın örtülü xarakter daşıyıb, sanki onu qorumaqla bütün ailəni və gələcəyi qoruyurmuş kimi davranılıb. Şərqdə qadın sadəlik, qayğıkeşlik, incəlik və bir növ, zəriflik nümunəsi kimi təqdim olunub. Qadın Qərbdə qarşı cinslə sanki mübarizə timsalında formalaşır və aralarında bir rəqabət var kimi səciyyələndirilir.

# AZƏRBAYCANIN GÖRKƏMLİ QADIN BƏSTƏKARLARI

**Qəniyeva Afaq**
*Sumqayıt Dövlət Universiteti,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*
*afaqgeniyeva79@gmail.com*

Mədəniyyət tariximizə nəzərə salsaq, görərik ki, Azərbaycanın musiqi mədəniyyətində qadın bəstəkarların yaradıcılığı özünəməxsus yer tutur. Bu ənənənin əsasını Azərbaycanın dahi bəstəkarı, professional musiqisinin banisi, musiqi istedadı olan qadınların bəstəkarlıqla məşğul olmağa cəlb edilməsinin təşəbbüskarı olan Üzeyir Hacıbəyli qoymuşdur.

Azərbaycanın ilk qadın bəstəkarı hesab olunan, öz sadə musiqi dili, xalq musiqisinə dərin köklərlə bağlılığı olan Ağabacı Rzayevanın yaradıcılığında müxtəlif janrda yazılan əsərlərlə yanaşı, uşaq musiqisi də mühüm yerlərdən birini tutur. Babası ustad tarzən Mirzə Fərəc onun musiqi ilə məşğul olmasına və tar ifa etməsinə razı olmasa da, o, Azərbaycanın musiqi mədəniyyəti tarixinə öz dəst-xəti ilə daxil olan istedadlı bəstəkarlardan biri oldu.

Azərbaycan milli musiqisi intonasiyalarından, aşıq havalarından, muğamlarımızdan bəhrələnərək, həmçinin dahi Ü.Hacıbəylinin ənənələrinə sadiq qalaraq, öz yaradıcılığında bu cəhətləri əks etdirən bəstəkarlardan biri də Azərbaycanda bəstəkarlıq təhsili almış ilk azərbaycanlı qadın bəstəkar Ədilə Hüseynzadədir.

Şərqin ilk opera yazan qadın bəstəkarı Şəfiqə Axundova yazıçı Süleyman Rəhimovun povesti əsasında İsgəndər Coşqunun librettosuna "Gəlin qayası" operasını bəstələmişdir. Geniş yaradıcılığa malik Şəfiqə Axundova müxtəlif musiqi janrlarında əsərlər yaratmışdır. Lakin yaradıcılığında mahnı yaradıcılığı xüsusi yer tutur və o, 500-dən çox lirik mahnı müəllifidir.

Müasir dövrümüzdə Azərbaycan musiqi mədəniyyətini dünyada tanıdan bəstəkarlardan biri də UNESCO-nun "Sülh artisti" fəxri adına layiq görülən bəstəkar Firəngiz Əlizadədir. Firəngiz Əlizadə müasir Azərbaycan musiqi mədəniyyətinin "qapı"larını dünyaya daha çox açan və bu yolda daima çalışan yorulmaz mübarizdir.

# AZƏRBAYCANDA XALQ ŞAİRİ ADINA LAYİQ GÖRÜLMÜŞ İLK QADIN

**Çobanova Hüsniyyə**
*Heydər Əliyev adına Hərbi İnstitutun*
*dosenti, f.ü.f.d.*
*cobanovahusniyye@gmail.com*

Tarixin hansı dövrünə nəzər salsaq, qadın fəallığının, qəhrəmanlığının, vətənpərvərliyinin, ölkənin ictimai-siyasi həyatındakı aktivliyinin, cəmiyyətdə, həyatda, ailədəki mövqeyinin şahidi oluruq. Azərbaycan qadınları da tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynayıblar.

1979-cu ildə Azərbaycanın Xalq şairi adına layiq görülmüş ilk qadın şair Mirvarid Dilbazi yaradıcılığının çox hissəsini uşaqların, qadınların həyatına və Vətənin müdafiəsinə həsr etmişdir.

Ulu öndər Heydər Əliyev Xalq şairi ilə görüş zamanı demişdir: "Siz bütün əsərlərinizlə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək, xalqımızın milli azadlıq yolunda öz payınızı vermisiniz. Sizin əsərləriniz insanlarımızda, xalqımızda, gənclərimizdə milli hisslər, duyğular oyadıb, dirçəldib, gücləndirib, inkişaf etdiribdir…."

Şairin "Zəhra", "Qadın", "Qurtuluş" və s. kimi şeirlərində Azərbaycan qadınlarının həyat yolları tərənnüm edilmiş, "Qadınların hürriyyəti" adlı ilk şeiri 1927-ci ildə "Oktyabr alovları" adlı məcmuədə dərc olunub.

40-dan çox kitabı işıq üzü görmüş şairin "Xatirələr olan yerdə", "Həyat lövhələri", "Bənövşələr üşüyəndə", "Ana qanadı", "Yasəmən fəsli", "Dağ çiçəyi" və s. kitabları oxucular tərəfindən rəğbətlə qarşılanıb. "Hər qaranlıq gecənin bir işıqlı səhəri var. O, işıqlı səhərdə yetişən yeni, ziyalı nəsillər rahatsız günlərin, yuxusuz gecələrin məhsulu olan "torpaq" fəryadını" Xalq şairi Milvarid Dilbazi öz şeirləri ilə xalqımıza çatdırır.

Yazıçılığı yüksək qiymətləndirilən Mirvarid Dilbazi Əməkdar mədəniyyət işçisi, "Şərəf nişanı", "Qırmızı əmək bayrağı", "İstiqlal" kimi orden və medallarla təltif edilib.

M.Dilbazi elm və təhsillə məşğul olmuş, qazandığı uğurları ilə cəmiyyətdə nüfuzu artmış, şeirlərində vətən, xalq, torpaq, hörmət, ehtiram, nurlu sabaha inam öz əksini tapmışdır.

# AZƏRBAYCANIN MAARİFÇİ QADINLARINDAN ŞƏFİQƏ ƏFƏNDİZADƏ

**Namazova Səba**
*Gəncə Dövlət Universiteti*
*f.ü.f.d., dosent*
*seba8080@mail.ru*

Azərbaycan Xalq Cümhuriyyətinin fəal qadınlarından biri sayılan Şəfiqə xanım Əfəndizadənin ictimai fəaliyyəti yalnız Cümhuriyyət dövrünü deyil, həmçinin ona qədərki geniş bir zaman kəsiyini də əhatə edir. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yeganə qadın əməkdaşı və Cənubi Qafqazın ilk qadın jurnalisti olmuşdur.

Şəfiqə Əfəndizadə vaxtilə qızlara teatr mədəniyyəti və aktyorluq sənəti barədə məlumatlar vermiş, onları dövrün mətbuat xülasələri ilə tanış etmiş, şagirdlərdə Azərbaycan ədəbiyyatına maraq və həvəs oyatmışdır. Azərbaycan qadınlarını təhsilli və zəngin dünyagörüşlü görmək istəyən Şəfiqə xanım daima “Analar! Qızlarınızı oxudun!” deyə xanımlara xitab edirdi.

Bütün bunlarla yanaşı, Şəfiqə Əfəndizadə genişmiqyaslı publisistik fəaliyyətinə görə də Şərqin ilk qadın jurnalisti hesab edilir. O bu yöndəki yaradıcılığına 1903-cü ildə “Şərqi-rus” qəzetində başlayaraq, sonralar “Dəbistan”, “Məktəb”, “Füqara füyuzatı”, “Dirilik” jurnalları və “Açıq söz” qəzeti ilə fəal şəkildə əməkdaşlıq etmiş, məqalələrini dərc etdirmişdir. Şəfiqə xanım publisistik fəaliyyətinə Cümhuriyyət dövründə də davam etmişdir. Belə ki, “Azərbaycan” qəzetinin 5 iyun 1919-cu il tarixli sayında çıxmış “Milli bayram və qadınlarımız” başlıqlı məqaləsində Şəfiqə Əfəndizadə 1918-ci il mayın 28-də Azərbaycan istiqlaliyyətinin dünyaya çatdırılmasından fərəhlə söz açmış, beləcə, onun qəzetlə əməkdaşlığı Cümhuriyyətin süqutuna kimi davamlı olmuşdur.

# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ İLK QADIN REDAKTORU XƏDİCƏ ƏLİBƏYOVA

**Namazova Səba**
*Gəncə Dövlət Universiteti*
*f.ü.f.d., dosent*
*seba8080@mail.ru*

**Tağıyev Cəmil**
*UNEC, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi*
*cemil.tagi@mail.ru*

Azərbaycan milli mətbuatı tarixində maarifpərvər publisist, naşir və ilk qadın redaktor kimi tanınan Xədicə xanım Əlibəyova təhsilini rus qız gimnaziyasında almış, sonra Zaqafqaziya Olginskaya Mamalıq İnstitutunda oxuyaraq bu sahədə yüksək ixtisas sahibi kimi yetişmişdir.

Xədicə xanım Əlibəyova Azərbaycan qadınlarının həyatında, ələlxüsus qadın xeyriyyə cəmiyyətlərinin işində yaxından iştirak etmiş, həyat yoldaşı, hüquqşünas, tərcüməçi, publisist Mustafa bəy Əlibəyovla birgə 1911-ci ilin yanvarında Bakıda "İşıq" adlı qadın qəzetinin nəşrinə nail olmuşdur. Qeyd edək ki, bəzi tədqiqatçılar bu mətbu orqanı jurnal kimi tanıtmağa cəhd göstərmişlər. Həmin fikrin yanlışlığını onun elə ilk səhifəsində rus qrafikası ilə verilmiş kəlmələrdən (Еженедельная газета) də bilmək olar.

Ən əsası isə "İşıq" qadınların öz hüquqlarını bilmələri və maariflənmələri məqsədilə yaradılan mətbu orqan idi. Nəşr olunduğu iki illik zaman kəsiyində (1911-1912) qəzetin cəmi 47 sayı işıq üzü görmüşdür.

O dönəmlərdə qadınları maarif və mədəniyyətə yönləndirmək kifayət qədər çətin olsa da, Əlibəyovlar bu məsul işin öhdəsindən gəlməyi bacarmışdılar. Elə qəzetin əsas müxbirləri də qadınlar və qızlar idi. Onlardan Asiya Axundzadə, Xuraman Rəhimbəyzadə, Maral Nəbizadə, Gövhər Şövqiyyə, Səidə Şeyxzadə, Nabat Nərimanova və başqa maarifpərvər qadınların adı, imzası türkdilli mətbuat tarixində hörmətlə anılır. Onlar qadınların maariflənməsi istiqamətində əzm və fədakarlıqla çalışmışlar.

Xədicə xanım Əlibəyova "İşıq" qəzetində "Hüquqlarımız" başlıqlı silsilə məqalələrlə çıxış etmişdir. Onun qadınların hüquq bərabərliyi, onları maarif və mədəniyyətə, ictimai həyatda fəal iştiraka çağırış, qadın klublarının, eləcə də savad kurslarının açılması, uşaqların tərbiyəsi, ev işləri və sağlamlıq məsələlərini əhatə edən çeşidli mövzularda qələmə aldığı publisistik yazıları böyük maraq doğurmuşdur.

## ŞİRVANŞAH I XƏLİLULLAHIN ANASI BİKƏ XATUNA HƏSR OLUMUŞ MƏDHİYYƏ HAQQINDA

**Hacıyeva Könül**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*f.ü.f.d., dosent*
*konulhaciyeva75@gmail.com*

Bədr Şirvaninin şeirlər divanı bizi onun ədəbi irsi ilə tanış etməklə yanaşı, XV əsrin ortalarında yaşamış şəxsiyyətlər haqqında, Şirvanda baş verən tarixi-siyasi hadisələr və s. barədə bizdə geniş təsəvvür yaradır. Şair, əsasən, Şirvan şahları I İbrahim və Xəlilullah, eləcə də onların yaxın qohumlarına mədhiyyələr həsr etmişdir. Bədr Şirvaninin Şirvanşah I Xəlillullahın anası Bikə Xatuna, Şirvanşahın hərəmlərinə ithaf edilmiş dörd şeiri də vardır. Bunlardan sıra ilə birincisi Bikə Xatuna yazılan əlli dörd beytdən ibarət şeirdir. Mədhiyyədə Şirvanşahın anası Bilqeyis, Məryəm, Fatimə kimi qadın şəxsiyyətlərə bərabər tutulur, oğlu Xəlilullaha təriflər söylənilir. Daha sonra şair Xəlilullahın məhz ana xeyir-duası ilə yüksəldiyini qeyd edir:

فرزند ت آن خلف که ملك دردعای اوست　　　روزش زروزبه بود این ازدعای تست
با اوست همچو نور هدایت رضای حق　　　زیرا که کار دولت او با رضای تست

(Sənin övladın elə bir oğuldur ki, ölkə ona dua etməkdədir. Bir günü o biri günündən yaxşı gəlir, bu isə sənin verdiyin xeyir-duadandır. Haqqın razılığı yol göstərən işıq kimi daim onunladır, çünki onun dövlət işləri də sənin razılığınla həyata keçir.)

Qəsidədən Bikə Xatunun Şirvanda bir sıra quruculuq işləri görərək xeyriyyəçi bir şəxs kimi tanındığını öyrənirik.

شروان زخیرخواهی تو خیروان شود　　　وز امن تو شماخی دارالامان شود
تنها نه قلعه است گلستان ز روی تو　　　هرجا که مقدم تو رسد گلستان شود

(Şirvan sənin xeyirxahlığından abadlaşır, sənin yaratdığın sülh və sabitlikdən Şamaxı əmin-amanlıq şəhərinə çevrilir. Təkcə Gülüstan qalası deyil, sənin qədəmin dəyən hər yer gülüstan olur.)

Şeirdəki məlumatlar Azərbaycanda hakim sinfi təmsil edən qadınların bütün dövrlərdə sülh və abadlıq üçün çalışdıqlarını göstərir.

## DİLÇİLİKDƏ SÖZÜNÜ DEMİŞ XANIM

**Həsənova Aybəniz**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun İran filologiyası*
*şöbəsinin böyük elmi işçisi, fil.ü.f.d.*
*aybeniz.has@gmail.com*

Müasir dövrdə Azərbaycan dilçiliyində – terminologiya sahəsində böyük uğurlara imza atan yorulmaz alim – AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sayalı Sadıqovadır. Sayalı Sadıqova 1960-cı ildə Qərbi Azərbaycanın Göyçə mahalında anadan olmuş, 1967-1977-ci illərdə həmin mahalda orta məktəbdə təhsil almış, 1977-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1981-ci ildə fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. 1981-1984-cü illərdə Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin aspirantı olmuş, 1986-cı ildə "Azərbaycan ədəbi dilində termin - söz birləşmələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə Nəsimi adına Dilçilik İnstitutunda böyük elmi işçi vəzifəsinə keçirilmişdir. 1997-ci ildə Nəsimi adına Dilçilik İnstitutunda Yeni Azərbaycan Partiyasının sədri seçilmişdir. 1999-cu ildə "Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildə filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır. 2000-ci ildə Nəsimi adına Dilçilik İnstitutunda Terminologiya şöbəsinin müdiri seçilmişdir. 2000-ci ildən AMEA RH yanında Terminologiya Komissiyasının xətti ilə nəşr olunan "Terminologiya məsələləri" toplusunun redaktorudur. 2005-ci ildə Bakı Dövlət Universitetinin Azərbaycan dili kafedrasının professoru seçilmişdir. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi medalı" ilə təltif edilmişdir. 2017-ci ildə Azərbaycan Kütləvi İnformasiya Şurası tərəfindən KİV-dəki fəaliyyətinə görə "İlin nüfuzlu ziyalısı" ali media mükafatı laureatı adına layiq görülmüşdür. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sərəncamı ilə yaradılan Dil Komissiyasına üzv seçilmişdir. 2018-ci ildə KİV və Həmkarlar İttifaqının qərarı ilə "Qızıl qələm" media mükafatına layiq görülmüşdür. 39 kitab müəllifidir.

# ƏBÜLQASİM LAHUTİ YARADICILIĞINDA QADIN SURƏTİ

**Məmmədzadə Cavanşir**
*Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi*
*filologiya üzrə fəlsəfə doktoru*
*mhjavanshir@mail.ru*

Məşrutə dövrü fars poeziyasının tanınmış simalarından biri Əbülqasim Lahuti (1885-1957) bir əlində süngü, digər əlində qələm cəbhələrdə İran məşrutəsinə sədaqətlə xidmət göstərmiş, dəfələrlə irtica əleyhinə üsyana qalxmış və qiyabi surətdə ölümə məhkum edilmişdir. Onun yaradıcılığında başqa məşrutəçi şairlər kimi qadın mövzusu mühüm yer tutmuşdur. Digərlərindən fərqli olaraq, Ə.Lahuti poeziyaya ümidli və nikbin, qətiyyətli və cəsarətli, mübariz və inqilabçı qadın surətləri gətirmişdir.

Onun 7 hissədən ibarət "یک صفحۀ پرافتخار" (“İftixar dolu bir səhifə”) əsərində qadın məşrutə uğrunda mübarizəyə qoşulan ömür-gün yoldaşına cəbhədə də dəstək olur. Şair göstərir ki, əsarət və köləlikdən qurtulmaq, xoş güzərana və rifaha qovuşmaq naminə səngərlərdə qadınların kişilərlə bərabər savaşması insanlara yüksək əhvali-ruhiyyə və qələbəyə sarsılmaz inam bəxş edir. Kişilərlə çiyin-çiyinə döyüşən qadınların qorxmazlığı və şücaəti qibtə doğurur.

Ə.Lahutinin inqilabı təbliğ ruhunda qələmə aldığı "وفا به عهد" (“Əhdə vəfa”) əsərinin baş qəhrəmanı inqilabçı qadındır. O, ac olan yaralı oğluna səngərdə verdiyi sözə sadiq qalır. Təbriz azad edildikdən sonra ətəyində çörək oğlunun məzarı başında peyda olur və inqilabın qələbə xəbərini acı göz yaşları içərisində qürurla ona yetirir:

تشویش مکن، فتح نمودیم، پسر جان
اینک به تو هم مژده ی آزادی و هم نان
وان شیر حلالت که بخوردیم ز پستان
مزد تو که جان دادی و پیمان نشکستی!

Təşviş etmə, fəth etdik, oğul can,
İndi sənə həm azadlıq müjdəsi və həm də çörək [var]
Döşdən içdiyimiz o süd sənə halal [olsun]
Sənin muzdun [o oldu] ki, canından keçdin və əhdi sındırmadın!

Ümumilikdə, XX əsr fars şeirinə yeni qadın surət və obrazlarının daxil olması ədəbiyyatdakı novatorluğun parlaq təzahürü idi.

# TARİXDƏ QADIN: DÜNƏN VƏ BU GÜN

**İsmayılova Aida**
*Milli Azərbaycan Tarixi Muzeyi,*
*Arxeologiya elmi fond şöbəsi,*
*tarix üzrə fəlsəfə doktoru*
*aidaismailova4@gmail.com*

Bu gün qadınlar müxtəlif sahələrdə çalışırlar və cəmiyyətin fəal üzvlərinə çevrilməkdədirlər. Dünyada bütün sahalərdə sürətlə davam edən inkişaf fonunda gələcəkdə qadınların da bu tərəqqinin daha fəal iştirakçısı olacağı şübhəsizdir. Qadınların bugünkü mövqeyə gəlib çıxmaları uzun tarixi proseslərin nəticəsi və məntiqi sonluğudur. Bu proses anaxaqanlığıdan (matriarxat) başlayır və hələ də davam etməkdədir. Mövzuya həm tarixi, həm də fəlsəfi aspektdən yanaşmaq daha doğru olar. Tarix boyu yeni yaranmış dinlər, ideologiyalar, hərəkatlar bu və ya digər formada qadınların həyatına da təsirsiz ötüşməmişdir. Qadının yaradıcı xüsusiyyəti onun bir dönəm kult kimi görülməsinə gətirib çıxarıb, bolluq, bərəkət rəmzi kimi qəbul olunub. Qədim dövrdə təbiət qüvvələri ilə yaşamaq uğrunda mübarizə aparan qadın düşüncə, fikir, cəmiyyət inkişaf etdikcə müxtəlif cahil yanaşmalarla mübarizə aparmalı oldu. Uzun müddət təhsildən, elmdən uzaq saxlanıldı. Bunun nəticəsidir ki, qədim və orta əsrlər mənbələrində çox az sayda təhsilli qadının adına rast gəlirik. Qadınların öz haqları uğrunda mübarizəsi Fransa burjua inqilabından sonra başlamış, I Dünya müharibəsindən sonra daha da intensivləşmişdi. Tədqiqatda məqsəd tarix boyu qadınların öz səslərini eşitdirmək, haqlarını əldə etmək uğrunda mübarizələrinə nəzər yetirmək, onun səbəb və nəticələrini göstərmək, bugünkü dünyada qadının rolunu müəyyənləşdirməyə çalışmaqdır.

# MƏHƏBBƏT UĞRUNDA FƏDAKARLIQ, YAXUD XALQIMIZIN MÜQƏDDƏRATINA HESABLANMIŞ İZDİVAC

**Muxtarov Əlimuxtar**
*AMEA Gəncə Bölməsi Nizami Gəncəvi*
*Mərkəzinin şöbə müdiri, f.ü.f.d.*
*alimuxtar@gmail.com*

Məhəbbət uğrunda fədakarlıq, vəfa, sədaqət kimi anlayışlara daha çox Azərbaycan şifahi xalq ədəbiyyatında, klassik Azərbaycan ədəbiyyatında – Nizaminin, Xətainin, Füzulinin məhəbbət mövzulu məsnəvilərində, bir çox tarixi və ədəbi şəxsiyyətlərin həyatında rast gəlsək də, XX əsrin 50-ci illərində Ulu Öndər Heydər Əliyev və akademik Zərifə xanım Əliyevanın simasında yaşanan, bizlərə miras qalan məhəbbət hekayəti isə məzmununa, şəraitinə və kəsb etdiyi istiqbalı dəyərinə görə özünəqədərkindən tamamilə fərqlənir.

Ulu Öndər Heydər Əliyevin Zərifə xanımla ailə izdivacları təsadüfi, sıradan bir hadisə olmayıb, ölkəmizin, xalqımızın müqəddəratını təyin edən və ilahi qüdrətlə niyazlanan, "amin" deyilən bir evlilik olmuşdur. Mahiyyəti öz zamanında dərk edilən, yaşadığımız əsrdən isə olduqca dərindən idrak edilən bu xalis xeyir iş zamanın, dövrünün çox çətinlikləri ilə qarşılaşsa da, bütün maneələri aşdı və arxada qoydu. Və qeyd etdiyimiz kimi, ən böyük ölçüdə Azərbaycanın müstəqilliyi kimi taleyüklü bir olayı özündə ehtiva edəcək olan Heydər Əliyev və Zərifə xanım Əliyeva nikahının önündə duran, aşılmaz kimi görünən sədlər də məhz elə miqyasına görə bu izdivacın mahiyyətindən geri qalmırdı. Düşünsək ki, qurulacaq kiçik bir dövlət olan bu ailə ölkəmizin taleyüklü məsələlərinin həllinə səbəb olacaq, deməli, qəmlənməyə ehtiyac duymayıb, "xeyir işin zərərli maneələri çox olar" fəlsəfəsi ilə yolumuza davam etməliyik. Ulu Öndərlə Zərifə xanım Əliyevanın quracaqları ailə həyatı ilahi qüdrətində elə bir hüsnü-qəbul görmüşdü ki, səmavi əmrlə – mələklərin qələmi ilə elə ölçülüb-biçilmişdi ki, bu gedişin önündəki başlıca maneə də Stalinin ölümü və Mir Cəfər Bağırovun zəifləməsi ilə nəticələndi. O hadisələri xatırlayan Ulu Öndər yazır ki, bundan sonra sonra bizim yolumuz asanlaşdı. Və onlar bundan sonra 30 il xalqımızın minnətdarlıq dolu alqışları ilə əbədiyyət qazanan ömür yaşayırlar. Halallıq, dürüstlük üzərində təməli qoyulan bu ailədə xalqımızın, dövlətimizin Ali Baş Komandanının böyüməsi, evlilik günlərinin gələcəkdə 44 günlük Vətən Müharibəsindən doğan 8 Noyabr Zəfər gününə düşməsi bu ailənin ayrıca bir əsrarının meyarıdır. Dədəmiz Qorqudun ifadə etdiyi kimi, "Gəlimli, gedimli dünya, son ucu ölümlü dünya"da bir gün Zərifə xanım da əbədiyyətə köçdü. Amma xeyirxah əməlləri ilə əbədi yaşayacaq əbədiyyətə.

Ulu Öndərin Zərifə xanımı itirərkən keçirdiyi iztirabları, ağrı-acını dahi Azərbaycan şairi Nizami Gəncəvinin ömür gün yoldaşı Afaqı itirərkən yaşadığı ayrılıq həsrəti ilə də müqayisə edə bilərik. Çünki dahilərin dərdi də, iztirabı da, demək olar ki, oxşar və dahi olur.

## AZƏRBAYCANIN QADIN HÖKMDARLARI
## (ORTA ƏSRLƏRƏ DAİR NUMİZMATİK FAKTLAR ƏSASINDA)

**Məmmədova Aygün**
*Milli Azərbaycan Tarixi Muzeyi*
*Numizmatika Fondunun müdiri,*
*tarix üzrə fəlsəfə doktoru*
*aygun_kons@mail.ru*

Azərbaycan numizmatikasında çoxşaxəli və tədqiqata ehtiyac duyulan bir sıra məsələlər mövcuddur. Belə məsələlərdən biri də "Azərbaycanda qadın hökmdarlar olubmu?" sualıdır. Azərbaycanda istər arxeoloji qazıntılar, istərsə də təsadüfi halda aşkarlanan numizmatik faktlar – sikkələr bu suala ən mükəmməl cavabdır.

Məqalədə ilk və orta əsrlərdə Azərbaycanda qısamüddətli hakimiyyətdə olan qadın rəhbərlər dövründə zərb edilən gümüş sikkələr tədqiqata cəlb edilmişdir.

Tarixdə "Sasanilər imperiyası" adı ilə bilinən Qafqaz Albaniyası dövründə, daha dəqiq desək, 630-631-ci illərdə hakimiyyətdə olan qadın şahzadə Buran dövründə zərb edilən gümüş sikkələr (drahmalar) Naxçıvanda zərb edilmişdir. Belə sikkələrə pəhləvi dilində yazılar, şahzadənin təsviri, atəşgah və iki mühafizəçi həkk edilib.

Numizmatik faktlara əsasən, I Xosrovun (531 - 579) 3-cü hakimiyyət ilindən etibarən Naxçıvanda ilk sikkələrin zərbinə başlanılmışdır. Belə istehsal sonrakı şahənşahlar - IV Hörmüzd, II Xosrov, III Ərdəşir, Buran, Azərmiduht, V Hörmüzd, V Xosrov dövründə davam etdirilərək III Yəzdəgirdin (632 - 651) 7-ci hakimiyyət ilində bitmişdir.

Çingizilər (1230-1271) dövrünün numizmatik faktlarına əsasən, hicri 639-644-cü (1241-1246) illərin Təbriz, Gəncə, Naxçıvan, Kiran (Ordubad rayonunda şəhər), Laçın, Varsan gümüş dirhəmləri Turakinə xatunun hakimiyyəti dövrünə aiddir. Belə dirhəmlərin üst tərəfinə əlində dartılmış yay və ox tutan atlı, onun üzərinə ərəbcə "uluğ monqol uluş bəy" sözləri, arxa tərəfinə isə: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur", ətrafında zərbxana və sözlərlə zərb ili həkk edilmişdir.

Hazırda həm Azərbaycanda, həm də xarici muzeylərdə qorunan belə numizmatik faktlar tariximizin nadir yadigarlarıdır.

# MEHMED ƏMİN YURDAKUL POEZİYASINDA TÜRK QADININ CƏMİYYƏTDƏ MÖVQEYİ MƏSƏLƏSİ

**Abbasova Aytən**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Türkologiya mərkəzinin Türk ədəbiyyatı bölməsinin*
*baş mütəxəssisi, filologiya üzrə fəlsəfə doktoru*
*ayten.abbasova@list.ru*

Milli ədəbiyyat cərəyanının aparıcı simalarından biri, türkçülük və milliyyətçilik duyğularını tərənnüm edən dəyərli əsərlərin müəllifi Mehmed Əmin Yurdakul (1869-1944) "türk şairi", "milli şair" kimi adlarla türk ədəbiyyatı tarixində silinməz izi olan sənətkarlardandır. Şair həm İstanbulda, həm də Ərzurum, Trabzon və Sivasda dövlət məmuru kimi çalışdığı vaxtlarda müxtəlif həyat hekayələrinin şahidi olmuş, cəmiyyətdə müşahidə etdiyi çatışmazlıqları bədii əsərlərinin mövzusuna çevirmişdir. Yurdakul qadın, uşaq və gənclərin problemlərinə etinasız qalmamış, "Ah analıq, yaxud Zeynəbin duası" şeirində uçuq-sökük daxmasında atasız övlad böyüdən ananın, "Zavallılar", "Ana və qızı" və digər şeirlərində Anadolunun dörd bir tərəfində yoxsul, kimsəsiz, hüquqsuz yaşayan türk qadınlarının obrazını yaratmışdır. Şair canından çox sevdiyi millətinin qadınlarını səfil, göz yaşı axıdan, cəfa çəkən, hüquqsuz görmək istəmir. Qız uşaqlarının təhsildən uzaqlaşdırılması məsələsi də şairi olduqca narahat etmişdir. "Axirətlik" şeirində bir kəndli qızının işləmək üçün Boludan İstanbula gəlməsi, tarladan məhsul ala bilməyən atasının öküz almaq üçün qızını bir neçə il müddətində varlı bir ailənin yanına verməsi göstərilir.

Şair "Ya qazi ol, ya şəhid", "Ey iynəm, tik", "Aydın qızları", "Şəhid, yaxud Osmanın ürəyi" adlı şeirlərində gecə-gündüz cəbhədəki igid oğulların ehtiyaclarını ödəmək üçün çalışan fədakar qadınların obrazını yaradır, həm də vətənə şəhid vermiş qəhrəman türk analarını ağlamamağa, vətən yolunda övladlarını qurban verməkdən çəkinməməyə çağırır. Şair övladlarını vətənpərvərlik ruhunda böyüdən, onlarda vətənə, bayrağa sonsuz məhəbbət aşılayan anaların qələbədəki rolunu yüksək qiymətləndirir. Yurdakul "Ey hilal qadınları, ey yurdun pak alınları" deyə müraciət etdiyi türk qadınlarının yaşadıqları bütün çətinliklərə baxmayaraq milli və dini dəyərlərindən uzaqlaşmadan yaşamaq əzmi qarşısında baş əydiyini dilə gətirir, cəmiyyətdə və ailədəki firavanlığın əsas səbəbkarının qadın olduğunu hər məqamda israrla vurğulayır.

# ORXAN VƏLİ KANIKIN ŞEİRLƏRİNDƏ QADIN

**Osmanova Barat**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*Türk filologiyası şöbəsinin*
*aparıcı elmi işçisi, f.ü.f.d.*

Orxan Vəli Kanık cümhuriyyət dövrü türk poeziyasının ən məşhur, haqqında ən çox danışılan və yazılan şairlərindən biridir.

Yeni forma və məzmunu şeirin əsası hesab edən Orxan Vəli "Garip" kitabında bunun ilk nümunələrini verdi. Yeni ünsürlər, yeni ifadə vasitələri, yeni mövzular axtarışında olan şairin, xalq içərisindən çıxmış sadə insanlara olduğu kimi, eşqə və qadına münasibəti də başqa şairlərdən fərqli idi. Onun şeirlərində bəhs olunan qadın ətrafında onlarla aşiqlərin, pərəstiş-karların dolaşdığı qadın deyil, fəhlə, məmur, şofer arvadı, dost, həyat yoldaşı, barlarda rəqs edib həyatını qazanan qadın, küçə qadınları və s.-dir. Bu qadınlar həyatda necədirlərsə, Orxan Vəlinin şeirlərində də eynilə təsvir olunurlar. Onun şeirlərindəki qadınlar həmişə şairin ətrafında olan, real həyatda rastlaşdığı qadınlardır. Şairin eşqə və qadına özünəməxsus münasibəti, fikirləri vardır. O, adi, sadə, real eşqi və qadını şeirə gətirərək bu mövzuda da türk şeirində bir yenilik yaratmışdır.

Şairin qadınlara münasibəti özünəməxsus şəkildə, "Gülümsüyor mavi bir ay ışığında kamış", "Işıkla dolu billur bir kadah kimi", "Bir sesin aydınlattığı yalan dolu gece" kimi misralarda əks olunur. Şair başqa mövzularda olduğu kimi, eşq və qadın mövzusuna da incə, həssas bir yumorla yanaşmış, sevgi hisslərini ciddi qəbul etməmişdir. O, bir çox şeirlərində bir tərəfdən sevgini bir əyləncə kimi təsvir etsə də, həyatının ən ağır anlarında sevgini onu həyata bağlayan ən ülvi bir hiss hesab edir və bununla insanı, hissləri inkar etmədiyini ortaya qoyur. Belə şeirlərini oxuyarkən hiss olunur ki, şairin nəzərində eşq və qadın həyatın, təbiətin cəmiyyətin bir hissəsidir və qadına münasibət bir həyat tərzidir.

Şair həyatı qadınsız təsəvvür etmir və onun şeirlərində qadın cəmiyyətin içərisində mövcud olan kişilərlə çiyin-çiyinə çalışan, yeri gələndə onlara yardım edən, çalışaraq öz həyatını qazanan fədakar insandır.

Bütün bunlardan da görünür ki, Orxan Vəli başqa mövzularda olduğu kimi, qadın mövzusunda da şeiri yeniləmək üçün qarşısına qoyduğu məqsədə sadiq qalmış və qadına, eşqə yeni yanaşma tərzini türk şeirinə daxil etməyə nail olmuşdur.

# XIX ƏSR ÇEX ƏDƏBİYYATINDA QADIN YAZARLAR

**Nağıyeva Əfsanə**
*Bakı Avrasiya Universitetinin müəllimi,*
*filologiya üzrə fəlsəfə doktoru*
*hc.akad83@gmail.com*

XVIII əsrdən formalaşan modern çex dilində ədəbiyyat milli düşüncələrin ifadə vasitəsinə çevrildi və bütün tarixi proseslərin fonunda Avropa mədəniyyətinin təsiri ilə maarifçiliyə keçid prosesi başlandı. Maarifçi düşüncə, öz növbəsində, milli ədəbiyyatın formalaşmasına gətirib çıxardı. Bu ab-havanın təsiri ilə yetişən ədəbi nəsil yalnız öz dilində yazıb-yaradırdı ki, bu da çex ziyalıları arasında siyasi fəallığın artmasına səbəb olmuşdu və XIX əsr boyunca çex ədəbiyyatında artıq qadın yazarların imzasına da rast gəlinirdi. İlk qadın yazar kimi tanınan Maqdalena Dobromila Rettiqova, daha sonra Bojena Nemtsova, Karolina Svetla çex ədəbiyyatının tanınmış qadın yazarlarına öncüllük edirlər. 20 yaşına kimi ana dilini bilməyən M.D.Rettiqova yarı alman, yarı çex mənşəli həyat yoldaşının köməyi ilə çex dili öyrənmiş və məhz öz dilində bədii nümunələr yaratmışdır. M.D.Rettiqova çex milli hərəkatının ən fəal üzvlərindən olmuş, qadınları cəmiyyətə qazandırmaq üçün evdarlıq və kulinariya məktəbi təşkil etmişdir.

Bojena Nemtsova bütün zamanların ən tanınan çex qadın yazarı və eyni zamanda müasir şeirin yaradıcılarındandır. Özünün kədərli həyatını əsərlərində əks etdirən B.Nemtsova müxtəlif yaş təbəqələrinin sevimli yazıçısı idi. Sovetlər dönəmində yazarın iki hekayəsi – “Vəhşi Bara” və “Çoban və rıtsar” yazıçı-dramaturq Nağı Nağıyev tərəfindən Azərbaycan dilinə tərcümə olunmuşdur. Yazara şöhrət gətirən əsərlər içərisində “Nənə”, “Müəllim”, “Yaxşı adam”, “Karla” və s. povest və hekayələrin adını çəkə bilərik. B.Nemtsovanı həm öz xalqı tərəfindən, həm də ölkəsindən kənarda sevdirən başlıca səbəb əsərlərinə kəndliləri, sadə zəhmət insanlarını qəhrəman seçməsidir.

# XAN QIZI NATƏVANIN ƏDƏBİ İRSİNDƏ "MƏCLİSİ-ÜNS" ƏNƏNƏLƏRİ

**Həsənov Elnur**
*AMEA Gəncə Bölməsinin elmi katibi,*
*Tarix üzrə fəlsəfə doktoru*
*el-hasanov@mail.ru*

Azərbaycan mədəniyyətinin incisi olan Qarabağın xanlıq dövrünün ədəbi-mədəni mühitində insanın mənəvi dünyasını zənginləşdirən şərtlərdən biri ədəbiyyat və incəsənət ənənələrini inkişaf etdirən sanballı məclislərin, ədəbi yığıncaqların fəaliyyəti olub. Burada söz ustadları üstünlük təşkil etdiklərindən onları adlandırmışlar. Bu məclislərin dövrün vətəndaş cəmiyyətinin inkişafında aparıcı rolu müstəsnadır. Ölkənin ayrı-ayrı mədəniyyət mərkəzlərində XIX əsrin ikinci yarısında bu cür "məclis"lər yaranmışdır. Məsələn, Şuşada "Məclisi-fəramuşan"ın olduğu mənbələrdə göstərilmişdir.

"Məclisi-üns" isə bu dövrün ən mühüm ədəbi-mədəni birliklərindən hesab edilir və ona sədrlik edən milli ədəbiyyatımızın görkəmli qadın təmsilçisi, Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın təşəbbüsü ilə musiqiçi və xanəndələrin çıxışı, şairlərin bədii mövzuda söhbətlərindən əlavə, daha geniş təhlillər aparılırdı. Bunlardan Nizami Gəncəvinin, Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərləri ilə bərabər, bir sıra qəzəllər oxunur, təhlil edilir, onlara cavablar yazılırdı.

Hətta xan qızının qəzəllərinə nəzirə yazan müəlliflərin sırasında tək Qarabağın deyil, Bakı, Şəki, Quba, Şamaxı şairlərinin qələm nümunələri var. Onlardan Seyid Əzim Şirvani, İsmayıl bəy Nakam və digərlərini göstərmək mümkündür. Azərbaycan Sovet dövrü ədəbiyyatında bir sıra yazarların əsərləri Natəvan şəxsiyyəti və onun poeziyasına marağın sönməməsinə zəmin yaradıb. Nümunə olaraq Məmməd Rəhimin "Natəvan" poeması, Səməd Vurğun və Hökümə Billurinin "Natəvan" adlı cavabları, Hüseyn Arif, Əliağa Kürçaylı, Əkbər Məftunun ithaflarını göstərmək olar.

Beləliklə, milli ədəbiyyatımızın görkəmli xanım nümayəndəsi olan Xurşidbanu Natəvanın yaşatdığı ədəbi məclisin və bu qətiyyətli qadının yaradıcılığı müasir dövrümüzə qədər öz dəyərli töhfələrini yaşatmaqdadır.

# GÖVHƏR AĞA VƏ XEYRİYYƏÇİLİK FƏALİYYƏTLƏRİ (VƏQFNAMƏSİ ƏSASINDA)

**Mustafayev Elnur**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Din və ictimai fikir şöbəsinin müdiri,*
*Şərqşünaslıq İnstitutunun Gənc Alim və*
*Mütəxəssislər Şurasının sədri, f.ü.f.d.*
*elnur.mustafayev88@mail.ru*

Gövhər ağa (əsl adı *Gövhərnisə bəyim*) 1790-cı ildə Qarabağ xanlığında anadan olmuşdur. O, Qarabağ xanlarından İbrahim xanın (1732-1806) qızı, Mehdiqulu xanın (1763-1845) isə bacısıdır. Şəki xanı Cəfərqulu xan Xoyskinin xanımı olmuşdur. Gövhər ağa gənc yaşlarında Qarabağ və Cənubi Qafqaz gözəli, ahıl yaşlarında isə Qarabağda öz dövrünün məşhur xeyriyyəçilərindən biri hesab edilmişdi. Övladı olmamış, bacısı oğlu Süleyman xanı – Şəki xanı Səlim xanın oğlunu, oğulluğa götürmüşdür. Gövhər ağa həm də məşhur şairə Xurşidbanu Natəvanın bibisi idi.

Qeyd edildiyi kimi, Gövhər ağa xeyriyyəçiliklə məşğul olur, deyilənlərə görə, maarif və mədəniyyətə maraq göstərir, sənət adamlarına, alim və şairlərə hamilik edirmiş. Dövrümüzə gəlib çatmış Gövhər ağanın vəqfnaməsi bu baxımdan çox böyük əhəmiyyətə malikdir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda B-590 şifrə altında surəti saxlanılan bu vəqfnamə 24 vərəqdən ibarətdir. Bu vəqfnamənin yalnız kağız üzərinə yazılması ilə kifayətlənməyən Gövhər ağa onun məzmununu iki böyük daş üzərinə yazdırıb Şuşadakı Cümə məscidinin divarlarına hördürmüşdür. Əlyazmalar İnstitutunda qorunan vəqfnamənin surəti olan bu nüsxə fars dilində təliq xətti ilə qamış və qara mürəkkəblə yazılmışdır. Bu surətin orijinal nüsxə ilə uyğun olduğunu təsdiq edən qeydlər də vardır.

Gövhər ağa Qarabağ vilayətinin Cavanşir mahalından olan Maqsudlu və Qaradağlı kəndlərini, Kəbirli mahalındakı Evoğlu kəndini, Daruğludakı mülk və əkin yerlərini, Şelli kəndindəki bağını və on iki dükanını, həmçinin karvansarasını ömürlük məscid və mədrəsələrə vəqf etmişdir.

# TÜRK HƏRBİ ƏSİRLƏRİN XİLASKARI - SONA HACIYEVA

**Şıxıyeva İlhamə**
*Bakı Avrasiya Universitetinin Ümumi filologiya kafedrasının müəllimi, f.ü.f.d.*
*ilhame.shixiyeva@bk.ru*

1914-cü il Rusiya-Türkiyə müharibəsində Rusiyanın Qars, Ərzurum, Ərdahan bölgələrindən alınan əsirlərin tərkibində həm mülki şəxslər, həm də hərbçilər vardı. Əsirlərin böyük bir hissəsi, 10 mini Xəzər dənizinin Nargin adasında yerləşdirilmişdi. Rusiya hökuməti əsirlərə nəzarəti erməni zabit və həkimlərə həvalə etmişdi.

H.Z.Tağıyevin təşəbbüsü ilə yaradılmış Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin əsas məramlarından biri Nargin adasındakı hərbi əsirlərin qaçırılması, təhlükəsizliyinin təmin edilməsi, onların döyüş təcrübəsindən ermənilərə qarşı mübarizədə istifadə olunması idi. Rəhilə xanım Hacıbabayevanın Bakıda yaratdığı Qadın Xeyriyyə Cəmiyyətinin üzvləri də türk əsirlərinə böyük yardım göstərmişlər. Bu cəmiyyətin fəallarından biri Bakının zəngin, yüksək təhsilli qadını Sona xanım Hacıyeva milyonçu qlasnı (deputat) Kərbalayi İsrafil ağa Hacıyevin həyat yoldaşı idi. Xeyriyyəçi xanım şəxsi gəmisində qohum və xidmətçiləri ilə Nargin adasına yardım, ərzaq, geyim, yataq aparırdı. O, geri qayıdarkən gəmini yoxlamasınlar deyə, rus nəzarətçilərinə rüşvət verərək hər dəfə bir neçə hərbi əsir qaçırırdı. Sona xanım Hacıyeva, beləliklə, 100-dən çox hərbi əsirin qaçırılmasına müvəffəq olmuşdu. Amma işin üstü açılmış, böyük bir istintaq işi başlanmışdı. Hərbçilərin qaçırılmasında şübhəli bilinənlər istintaqa cəlb edilmişdi. Xeyriyyəçi qadın məhkəmədə əsirlərə yardım etdiyini etiraf etmiş, istintaq əsirlərin qaçırılmasında Sona xanımın iştirakını sübut edə bilməmişdi. Amma onun sonrakı taleyi haqqında məlumat yoxdur. Fədakar xanımın istintaqda 110 səhifəlik ifadəsi var. Bu istintaq sovetlər birliyində də davam etmiş, hərbi zabitlərin qaçırılmasında iştirak edən hər bir şəxs repressiyaya məruz qalmış, qətlə yetirilmişdir.

# AZƏRBAYCANIN FƏDAKAR QADINLARI

**Mikayılzadə Lalə**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun Şərqşünaslıq*
*elminin tarixi və nəzəriyyəsi şöbəsinin*
*aparıcı elmi işçisi, p.ü.f.d.*
*lala-mak70@mail.ru*

Azərbaycanda qadınlar ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Bu qadınlardan biri də Azərbaycan milli mətbuatının banisi, böyük maarifpərvər, tanınmış publisist, pedaqoq, görkəmli ictimai xadim Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovadır.

Hənifə xanım Məlikova (1856-1929) Azərbaycanın ilk maarifçi qadınlarından biri və ilk qadın xeyriyyə cəmiyyətinin yaradıcısı kimi milli mədəniyyət tariximizdə adı ehtiramla yad edilən ziyalıdır.

1908-ci ildə yaradılan ilk qadın xeyriyyə cəmiyyətinin xətti ilə gördüyü işlər, qadınlarımızın maariflənməsi, hüquqlarının müdafiəsi, onlara maddi və mənəvi qayğı göstərilməsi, cəmiyyətdə layiqli yer qazanmaları üçün Hənifə xanımın xidmətləri danılmazdır. Hənifə xanım dövrünün həm sayılıb-seçilən şəxsiyyətlərindən olmuş, həm də ömrünü vətəninin, xalqının ömrünə calayan, ümummilli maraqları şəxsi taleyindən öndə görən fədakar bir ziyalı ömrü yaşamışdır. Bu ömrün hər bir səhifəsi isə Azərbaycan qadınının adını tarixə qızıl hərflərlə yazdıra bildi.

Xalqımızın fəxr və qüruru olan qadınlarımız ölkəmizi bu gün bütün dünyada ləyaqətlə təmsil edir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər bu gün bütün Azərbaycan qadınlarının yorulmaz, mübarizə əzmi göstərən güc və qüdrətinin bariz nümunəsidir.

Ölkəmizin çoxcəhətli mədəni həyatını öz istedadı ilə xalqın mənəvi sərvətlərini artıran ziyalı qadınlarımızın diqqət və qayğısı sayəsində müstəqil Azərbaycanın yeni nəsilləri tərbiyə olunur.

# “İSLAMLIĞA GÖRƏ VƏ İSLAMDA QADIN” (ƏHMƏD BƏY AĞAOĞLU) QADIN BƏŞƏRİ DƏYƏR KİMİ

**Hüseynova Maral**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu,*
*f.ü.f.d.*
*maral.leyla@gmail.com*

Azərbaycan Cümhuriyyətinin ideoloqlarından olan Əhməd bəy Ağaoğlunun qələmindən çıxan əsərlərin əksəriyyəti mahiyyətində azadlığı ehtiva edir. Həmçinin qadın azadlığı, qadının cəmiyyətdə mövqeyi və bu mövqeyə olan həm bəşəri, həm də mürtəce baxışlar Ə.Ağaoğlunu da düşündürmüşdür. O, qadın azadlığını azad cəmiyyətin təməli hesab etmişdir. Bu baxımdan Əhməd bəyin “İslamlığa görə və islamda qadın” əsəri xüsusi mahiyyət daşıyır. Əsərdə qadın və zaman, qadın və cəmiyyət, qadın və dini münasibət və s. olaraq müxtəlif quruluşların və fərqli sistemlərin – Şərq və Qərb ölkələri kontekstində qadına münasibət kimi paralellər aparılmış, qadının varlığı bəşəri dəyərlər sisteminin mahiyyəti yönündən araşdırılmış və təqdim edilmişdir. Əhməd bəy Ağaoğlu əsərində islam dinində qadına münasibətin gerçək mahiyyətini təhlilə çəkərək doğruların və təhriflərin analizini edərək əsl islami dəyərlər sistemində qadına göstərilən münasibətin gözəlliyini açıqlamışdır. Qadın hüquqlarını qorunmasının gərəkliliyini həm dini istinadlarla – Qurani Kərimdən və Məhəmməd peyğəmbərdən, həm də hüquqi dövlət qanunlarına əsaslanaraq şərh etmişdir. Əsərdə həmçinin bir çox tarixi dövlətlərin yaranmasında və idarə olunmasında qadınların müstəsna xidmətlərinin olması da nəzərə çatdırılır.

# SƏMAVİ DİNLƏRDƏ "ANA HAQQI" ANLAYIŞI VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Babaşlı Məmmədəli**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*İla.ü.f.d.*
*mbabasov@yahoo.com*

Qloballaşan dünyada insanlığın sonuncu qalası hesab olunan ailə institutunun, əsrlərin sınağından çıxmış ailə dəyərlərinin məruz qaldığı aşınma bəşər nəslinin gələ-cəyini ciddi şəkildə təhdid edir. Qərb cəmiyyətləri üçün səciyyəvi olan "eynicinsli ni-kah", "daşıyıcı ana" və sair qeyri-ənənəvi təmayüllərin planlı şəkildə digər coğrafiya-larda yayılması, qanunvericilikdə tanınması qəbilindən israrlı tələblər ciddi narahatlıq doğurur. Baş verən aşınmalar ailə institutunun, ər-arvad, valideyn-övlad münasibətlə-rinin, onların qarşılıqlı hüquq və vəzifələrinin mahiyyətini kökündən dəyişdirir. Məhz bu səbəbdən də milli və mənəvi dəyərlərimiz, müqəddəs saydığımız ailə ocağı, böyüklərə hörmət, kiçiklərə sevgi anlayışımızla uzlaşmayan sözügedən təhdidlərdən qorunmaq millət olaraq gələcək varlığımız üçün həyati əhəmiyyət kəsb edir.

Mövcud məqalədə milli və dini mənsubiyyətindən asılı olmayaraq hər bir insan üçün ortaq səciyyə daşıyan "ana haqqı" anlayışının tədqiqi nəzərdə tutulur. Bəşər övladının dünyaya gəlməsinə vəsilə olan iki əziz insanın – ana və atanın varlığının hikməti və əhəmiyyəti vurğulanır. Zəif və aciz halda dünyaya göz açan hər bir övladın bəşərin ilk müəllimləri olan valideynlərinin himayəsinə, xüsusilə ana şəfqətinə olan ehtiyacından bəhs olunur.

Bu səbəbdən də övladları yetkinlik yaşına çatana qədər hər cür fədakarlığa qatlanan anaya səmavi dinlərdə verilən dəyərin mahiyyətinə, onun övlad üzərində haqqı anlayışına nəzər salınır. İudaizm, xristianlıq və islam baxımından ananın övlad üzərində hüquqları və övladın anaya qarşı daşıdığı məsuliyyət ətraflı şəkildə təhlil edilir. Uşağın doğulması ilə ailəyə yeni bir fərdin gəlməsinin həyəcanlı hadisə olması ilə yanaşı, ailə üzvlərinin qarşılıqlı məsuliyyət hissini artırdığı qeyd olunur. Ana-övlad münasibətlərinin ümumi səciyyə daşıyan ortaq və fərqli cəhətləri müqayisəli şəkildə nəzərdən keçirilir. İslam dinində Allahın özünə qulluğu əmr etməsi və şirkdən çəkindirməsi kimi mühüm məsələnin ardınca valideyn haqqına riayət edilmədən Allahın rizasının əldə edilə bilinməməsi, övladın valideyn hüququna riayət etməsi, nümayiş etdirməli olduğu səbir və hörmət hissinin zəruri olması üzərində durulur.

## “KOROĞLU” DASTANININ QADIN QƏHRƏMANLARI

**Əskər Nailə**
*AMEA Folklor İnstitutunun doktorantı*
*f.ü.f.d., dosent*
*qaracantali@live.com*

“Koroğlu” dastanının Azərbaycan variantlarında iştirak edən qadınların sayı çoxdur. Nigar xanımdan başqa Hürü xanım, Telli xanım, Məhbub xanım, Mahru xanım, Mömünə xanım, Aypara xanım, Ruqiyə xanım, Dönə xanım, Bilqeys xanım, Bənövşə xanım, Mərcan xanım, Zərnişan xanım, Dünya xanım və digərlərinin də gözəlliyi, incəliyi, nəcibliyi ilə yanaşı, igidliyi, şücaəti mətnlərdə qeyd edilmişdir. “Koroğlu” dastanında qadın əsasən həm həyat yoldaşı, həm də döyüşçüdür. Bu daha çox dastanın Şərq versiyasına məxsus variantlarında görünməkdədir. Qərb versiyasında oturaq həyat tərzinin təsiri ilə qadın daha çox evə bağlıdır, həyat yoldaşıdır, dostdur, amma yenə də bəzi epizodlarda onların Alp qadın xüsusiyyətlərinə rast gəlmək mümkündür.

Koroğlunun həyat yoldaşı Nigar xanım Azərbaycan variantlarında Osmanlı sultanı Muradın qızı və ya bacısı, bəzi variantlarda Həsən paşanın qızıdır. Koroğlunun şöhrətini və igidliklərini eşitdikdən sonra ona aşıq olmuş və onu götürməsi üçün sifariş göndərmişdir. Bir çox çətinlikdən sonra Koroğlu sultanın sarayına gedib çıxır və Nigarı qaçırır. Nigar Çənlibelin xanımı və Koroğlunun həyat yoldaşıdır. O, şahzadə bir xanımdır, lakin bununla belə sonrakı mətnlərdə onun əlinə qılınc alaraq savaşdığı epizodlara da rast gəlirik. Bu da qədim qəhrəmanlıq dastanlarından gələn qadın alp ənənəsinə xas bir motivdir. Nigar eyni zamanda tədbirli, təmkinli və məntiqli bir xarakter olaraq göstərilir. O, Koroğluya dəfələrlə doğru yolu göstərir, yeri gələrsə, öyüd-nəsihət, məsləhət verməkdən belə çəkinmir. Dastanın bütün mətnlərində Koroğlu və Nigar arasında ülvi bir məhəbbət mövcuddur.

“Koroğlu” dastanının Azərbaycan variantlarında qadın qəhrəmanlar əsasən əsilzadə ailəsindəndir və onlar Çənlibelə qaçırılaraq gətirilmiş və dəlilərlə evləndirilmişdir. Burada mühüm epizod odur ki, bu xanımlar əsasən özləri buraya gəlmək istəmiş, müxtəlif yollarla Koroğluya sifariş göndərmiş və öz qaçışları üçün qəhrəmanlara kömək etmişlər.

# MÜASİR CƏMİYYƏTDƏ QADININ ROLU

**Salmanova Nəzakət**
*Bakı Dövlət Universiteti*
*f.ü.f.d., dosent*
*naza_salmanova@mail.ru*

Müasir cəmiyyətdə qadınların sosial rolunun son onilliklərdə köklü dəyişikliklərə məruz qalması ilə əlaqədar olaraq, zərif cinsin nümayəndələrinin statusu, təbii olaraq, dəyişir. Beləliklə, müasir psixoloqlar qadınların aşağıdakı əsas kateqoriyalarını nəzərdən keçirməyə meyillidirlər: liderlər, karyeraçılar, evdar qadınlar, pulsuz peşə sahibləri.

Qadının cəmiyyətdəki mövqeyi daim elmi fikrin diqqətini cəlb etmişdir. Tarixdə, fəlsəfədə, təbiət elmlərində, dində tez-tez tamamilə əks fikirlər söylənilir, bu problem müxtəlif yollarla həll edilirdi. Xüsusən də qadının cəmiyyətdə və ailədə rolu ilə bağlı bir çox ziddiyyətli ifadələrə xristianlıq dinində rast gəlmək olar. Məsələn, 1400 il əvvəl Makedoniya kilsəsi rəsmi olaraq bir suala baxırdı: "Qadının ruhu varmı?" İştirak edən ruhanilərin demək olar ki, yarısı bu suala mənfi cavab verdi.

Xristian kilsəsi yalnız bir səs fərqi ilə belə nəticəyə gəldi ki, qadın aşağı bir varlıq olsa da, hələ də ruha bənzəyir. Belə bir baxış minilliklər ərzində qadına öz zəkasını göstərmək imkanı verilməməsinin nəticəsidir. Onun cəmiyyətin bir üzvü, intim münasibətlər obyekti kimi əsl insani dəyəri məsələsi daim müzakirə olunurdu. Qadın ağasının quluna çevrildi. Onun taleyi uşaq dünyaya gətirmək və insanın bütün şıltaqlıqlarını təmin etməkdir.

Orta əsrlərdə qadınlara qarşı ənənəvi nifrət güclənir. "Zəif cins" ilə münasibətlərin lütfdən dəhşətli bir düşmə olduğuna inanılır.

Qadının kişi ilə bərabərhüquqlu cəmiyyətin üzvü kimi əsl dəyəri, görünür, İntibah dövründə xatırlanmalı idi. Bununla belə, hər şey yalnız qadının tabeçilik mövqeyini qoruyaraq estetik ibadət obyektinə çevrilməsi ilə məhdudlaşdı. Hətta kişi və qadının bərabər qabiliyyətlərini tanıyan J.J.Russo buna baxmayaraq ənənəvi kişi gücünün tərəfdarı idi, inanırdı ki, arvad həlim olmalı, kişiyə tabe olmalı və hər şeyə, hətta haqsızlığa da dözməyi ondan öyrənməlidir.

Kapitalizm dövrü qadınların cəmiyyətdəki yeri və roluna dair bir çox cərəyanların, baxışların olması ilə xarakterizə olunur. Napoleon Bonapart qadınların təhsilini yaxşılaşdırmağa çağırırdı. Ancaq qadınların çoxu yalnız uşaq doğulmasını düşünürdü.

Burjua cəmiyyəti qadınların alçaq olması ilə bağlı bir çox yalançı nəzəriyyələrin yaranmasına səbəb olmuşdur. A.Şopenhauer, F.Nitşe, O.Vayninger və başqaları təbiətin qadına ancaq bəhanə, hiylə, xəyanətə meyil, nankorluq bəxş etdiyini müdafiə edirdilər. "Qadın öz təbiətinə görə itaət etməyə məhkumdur, ona ağa lazımdır... bu cinsin ən parlaq nümayəndələri heç vaxt... həqiqətən, böyük və orijinal bir şey yaratmayıblar". Şopenhauerin bu sözləri kişi hüquqlarını, eləcə də müəllifin fərdi xüsusiyyətlərini əks etdirirdi.

O.Vayningerin fikrincə, dahi qadın üçün tamamilə əlçatmazdır. O, “şüurun orijinallığından” məhrumdur: ikincisini ərindən götürür. O, şüursuz yaşayır, ər şüurlu yaşayır...” Qadın məntiqdən məhrumdur: “Həqiqətən, qadın varlığı nə məntiqi, nə də əxlaqi imperativi bilir”.

Platon güman edirdi ki, gələcək ideal dövlətdə hər iki cins eyni peşələrə və sənətlərə yiyələnməli olacaq. Müharibədə kişilərlə yanaşı qadınlar da iştirak etməli olacaqlar, bu səbəbdən də onlar hərbi bacarıqlara yiyələnməli olacaqlar. Lakin, eyni zamanda Platon yazırdı: “Qadın təbiəti ləyaqət baxımından bizim kişi təbiətimizdən nə qədər aşağıdırsa, çoxluğuna görə də bizdən üstündür”. Onun fikrincə, bir çox çatışmazlıqlara malik olan qadın yer üzündə kişi xoşbəxtliyinə nail olmaq üçün bir vasitə rolunu oynayır. Bənzər bir nöqteyi-nəzər qədim yunan filosofu Aristotel tərəfindən də ifadə edilmişdir.

O, qadının düşünməyə qadir olduğunu, lakin son dərəcə “zəif dərəcədə” olduğunu söylədi. Onun ailədəki tabeliyindəki rolu, iddialara görə, qadınların qeyri-kafi inkişafı ilə izah olunur.

N.G.Çernışevski qadının ailədə və cəmiyyətdə ləyaqətsiz yer tutmasından qəzəbləndi. Onun fikrincə, qadın indiyədək psixi həyatda belə əhəmiyyətsiz rol oynayıb, çünki zorakılığın hökmranlığı onun həm vasitələrini, həm də inkişaf istəyini əlindən alıb.

Cəmiyyətin inkişafının bütün mərhələlərində sivilizasiya olsaydı, çətin ki, qadınlara qarşı bu cür mənfi münasibət baş verərdi. Qüsurlu qadının, eləcə də aşağı kişinin olmadığını elm deyir.

Cəmiyyət və mədəniyyət sahəsində daim dəyişikliklərə məruz qalan müasir cəmiyyətdə “qadın məsələsi” son dərəcə aktuallaşıb: qadının mövqeyi getdikcə cəmiyyətdəki vəziyyətdən, sosial və mədəni islahatların nə qədər tez və uğurla aparılmasından asılıdır. Həyatın hüquqi aspektlərinin islahatı, dünyəviliyin inkişafı ailə institutunun daxilindən başlandı.

Cəmiyyətin sosial-mədəni inkişafının qloballığı və sosial zənginliyi, dinamizmi, ən əsası isə cəmiyyətin tələblərinə cavab verən yeni statusunun formalaşması ilə səciyyələnən müasir tendensiyalar onun cəmiyyətdəki rolunu fərqli qiymətləndirməyə imkan verdi.

Ailə son dərəcə mühafizəkar bir qurumdur, onda nisbətən az dəyişikliklər olur. Son zamanlar Azərbaycan ailəsində baş verən əsas dəyişiklik qadının mövqeyidir. Qadının getdikcə artan sosial və peşəkar fəaliyyəti bəzən “21-ci əsrin sakit inqilabı” adlandırılır. Azərbaycanda sosial uğurun dəyəri indi xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətdə və şəxsi həyatda şüurlu şəkildə uğur qazanmaq istəyən qadınların sayında ciddi artım var.

Etiraf edək ki, kişilərin bəziləri qadının təkcə işləməsini deyil, karyera yüksəlişinə və cəmiyyətdəki ictimai roluna çox vaxt sərf edəcəyini qəbul etməyə hazır deyil.

Eyni zamanda bəzi qadınlar ənənəvi süjetlərə maraqsız olurlar: varlı bir adamla evlənmək və tam rahatlıq əldə etmək istəyənlər də cəmiyyətimizdə yox deyildir. Bununla belə həyatlarının təşkilatçısı olmaq istəyən qadınlar üstünlük təşkil edir, şəxsi müstəqilliyi çox yüksək qiymətləndirirlər. Onlar öz nailiyyətlərini ailə naminə qurban verməyə hazır deyillər. Ancaq, eyni zamanda tənhalıqdan əziyyət çəkirlər. Bu, gənc nəslin qadınlarının əsas ziddiyyətidir. Qadınlar ali təhsil almağa, reallaşmağa çalışırlar.

Bəziləri ömürlük deyil, yalnız kiçik uşaqları böyütmək üçün evdar qadın olmaq istəyir. Orta təbəqəyə mənsub və ya ona yaxın olan qadınlar əvvəlcə təhsil alır, ayaq üstə durmağa çalışır, yalnız bundan sonra ailə qurmaq qərarına gəlirlər. Çox vaxt onların sınaq nikahları olur. Belə bir evlilik qalıcı olur və ya dağılır. Qadınlar əsrlər boyu öz yerlərini ailə ocağında qoyub ictimai həyat arenasına çıxdılar və özlərini müasir sivilizasiyanın müstəqil qüvvəsi elan etdilər.

Müasir bir qadın onun üçün vacib və maraqlı olan sosial rolları ahəngdar şəkildə birləşdirməyə və uğurla həyata keçirməyə çalışmalıdır.

Aparılan araşdırmalar müəyyən edir ki, müasir qadının cəmiyyətdəki rolunu aydın şəkildə dərk etməsi və ona əməl etməsi vacibdir. Müvafiq olaraq, universitetdə bunun üçün tələbə qızlara onlar üçün vacib və maraqlı olan sosial rolları ahəngdar şəkildə birləşdirməyə və uğurla həyata keçirməyə kömək edəcək şərait yaratmaq lazımdır.

# İSLAMDA QADIN HÜQUQLARI VƏ GENDER BƏRABƏRLİYİ

**Cavadlı Qəmərxanım**
*Qafqaz Müsəlmanları İdarəsinin*
*sədr müavini, fəl.ü.f.d.*
*haci_xanim1960@yahoo.com*

İslamda qadınların sahib olduğu hüquqları nəzərdən keçirmək müasir reallıqlar baxımından zəruridir.

1. Yaşamaq hüququ – İslamın bərqərar olması doğulan qız uşaqlarını öldürmək adətini zamanla sıradan çıxardı. Qızların yaşamaq hüququ onların təbii və ilahi hüquqlarından biri olub, Quranda öz əksini müxtəlif formalarda tapmışdır.

2. Cəmiyyətdə iştirak etmək hüququ – İslamdan öncə bəzi qadınların cəmiyyətdə mövqeləri vardı, lakin bu sadəcə varlı və əsilzadə nəslinə mənsub olanlara aid idi. İslam yarandıqdan sonra isə təbəqəsindən asılı olmayaraq, bütün qadınlara bu hüquq tanındı.

3. Bərabərlik hüququ – Bir qayda olaraq həm qadınlar arasında bərabərliyi, həm də qadın və kişi arasındakı bərabərliyi özündə əks etdirir.

4. Seçmək və seçilmək hüququ – Biət etmək qadınların azad bir şəkildə öz rəhbərlərini seçməsi anlamına gəlir və bu hüquq islamın bərqərar olduğu ilk dövrlərdə meydana gəlmişdir. Seçilmək hüququna gəldikdə isə, bu hüququ qadınlara qadağan edən hər hansı bir dəlil yoxdur.

5. Təhsil hüququ – Qadınlar islamın gəlişi ilə oxu və yazı qaydalarını öyrənmiş və öyrətməyə başlamışlar.

6. İqtisadi müstəqillik hüququ – Qadın ixtiyarında olan irsdən, öhdəsində olan maldan istədiyi kimi istifadə edə bilər.

7. Xərclərini tələb etmək hüququ – Qadının bu hüququ kişilərin vəzifəsi olaraq formalaşmışdır. Buna nail olmadıqda məhkəməyə müraciət edə bilər. Bu, məhkəmə müdafiəsi hüququnu ortaya çıxarır.

8. Nikahda söz hüququ – İslamda qadının izdivacı öz əlindədir, bu məsələdə hər hansı bir məcburiyyət yolverilməzdir. Əgər nikah əqdində qarşılıqlı razılıq olmazsa, islam baxımından bu müqavilə etibarlı hesab olunmur.

9. Miras və ya vərəsəlik hüququ – İslamda maddi məsələlər üzrə məsuliyyət kişiyə verilmiş bir öhdəlikdir. Ona görə də bu qayda qadınlara qarşı ayrı-seçkilik nəzərdə tutmur.

# DASTANLAŞAN AZƏRBAYCAN XANIMLARI, YAXUD MİLLİ EPİK DÜŞÜNCƏMİZDƏ QADININ YERİ

**Umudov Qüdrət**
*ADPU-nun dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
*qumudov1957@ gmail.com*

Qadın bəşəriyyətin mövcudluğunda əvəzsiz rola malikdir. Qəlbi ləyaqət hissi ilə döyünən Azərbaycan qadını öz soyunun, vətən bildiyi torpağının azadlığı, müstəqilliyi uğrunda mübarizədən çəkinməyən yenilməz bir güc olmuşdur.

Qədim türk dini-mifoloji görüşlərində Göy Tanrı ilə yanaşı, Humay ilahəsinə də sitayiş olunduğu qaynaqlarda xatırlanmaqdadır. Teoloji funksiyasına görə nəsil artıran qadınları, yeni doğulan körpələri himayə edən Humay – "Humay Ana" Göy Tanrının sevimli qadını hesab olunmuşdur.

Dastanlaşaraq antik müəlliflərin əsərlərinə düşən ilk azərbaycanlı qadın, qədim dünyanın ən böyük hökmdarlarından biri Tomris olmuşdur. Herodotun qeydinə görə, Tomrisin hökmdarı olduğu xalq həddən çox cəsur bir xalq imiş.

Tomrisdən sonra onun davamçısı kimi böyük Nizaminin qələmi ilə dastanlaşan qüdrətli Arran hökmdarı Nüşabə yada düşür. Nizami onu tarixi gerçəklər zəminində təsvir etmişdir.

"Kitabi-Dədə Qorqud"dakı oğuz xatunları, o cümlədən Burla xatun da əfsanəvi Tomris və Nüşabə təki "erkək tinətli"dir. Xan qızı Burla xatun ərinin yoxluğunda belə özünü itirməyən, oğuz bəylərini ardınca aparan, kafirin sancağını qılınclayan, namus, qeyrət mücəssəməsi olmaqla bugünkü qadınlıq üçün örnək deyilmi?!

Azərbaycan tarixində hünərli qadın hökmdar, canını Vətən uğrunda sipər edən qeyrətli qadınlar çox olmuşdur. Mömünə xatun, İnanc xatun, Sara xatun, Taclı xatun, Pərixan xatun, Tuti Bikə, Xədicə Bikə, Pəricahan, Həcər və b. bu qəbildəndirlər.

Məhsəti Gəncəvi kimi elə hünərvər qadınlarımız da olmuş ki, onlar vətəninə qələmləri, poetik istedadları, humanist ideyaları ilə xidmət göstərmişlər.

Gülşad xatun, Zöhrə xatun, Ağabəyim ağa, Heyran xanım, Gövhər ağa, Natəvan, Fatimə xanım Kəminə, Aşıq Bəsti, Aşıq Pəri kimi onlarla qadın söz sərrafı və xeyir əməl sahibləri yazıb-yaratmış, Azərbaycan mədəniyyətinə töhfələr vermişlər.

# MOĞOLLAR SÜLALƏSİNİN MƏŞHUR QADINLARI

**Məcidova Şəhla**
*Şirvan şəhər 16 №-li tam orta məktəbin*
*Azərbaycan dili və ədəbiyyat müəllimi,*
*f.ü.f.d.*
*shahla.majidova@mail.ru*

XVI əsrdə Babur tərəfindən qurulan və nəvəsi Əkbər tərəfindən imperiyaya çevrilən, müasir Hindistan, Pakistan və cənub-şərqi Əfqanıstanı əhatə edən Böyük Moğol İmperiyası belə nəhəng bir dövləti yaratmaqla kifayətlənməmiş, təkcə siyasətdə deyil, həmçinin elm və mədəniyyət sahələrindəki fəaliyyətləri ilə də özünü göstərmişdir. Babur özündən sonra kifayət qədər lirik şeirlər və "Baburnamə" əsərini qoydu. Babur qeydlərini türkcə, poeziyasını isə, adətən, farsca yazıb-yaratmışdır. Moğollar hər iki dildən istifadə edirdilər. Baburun xatirələri o qədər təravətli və xüsusi üslubda yazılmışdır ki, onların cazibəsi bu gün bizi özünə cəlb edir. Baburun qızı Gülbədən Bəyim qardaşı Humayun haqqında bir salnamə yazdı, bizə maraqlı bir dövrün tarixini əks etdirən dəyərli bir əsər qoydu. Oğlu Kamran Mirzə həm də farsca əsərlər yazmışdır. Hətta nəvəsi Əkbərin yazı-pozu ilə məşğul olmamasına və mənbələrin onun yazı yazmağa belə vaxtı olmadığını söyləməsinə baxmayaraq, onun haqqında istedadlı vəziri Əbül-Fəzl daim qeydlər aparmış, məktublarında Əkbərin müdrik kəlamları və alicənablığını ifadə etmişdir. Yeri gəlmişkən qeyd edək ki, məhz Əkbərin xahişi ilə bibisi Gülbədən Bəyim salnaməni yazıb. Cahangir də Babur kimi öz xatirələrini yazdı və onlar da ədəbiyyatda yüksək yer tuturlar. Şah Cahan haqqında bəzi məlumatlar yazıldı, onun ədaləti və səyahətləri haqda qeydlər aparıldı. Sultan Övrəngzib Alamgirin də fiqhə dair kitablar yazdığı bilinir. Bu sülalənin ədəbi istedadı kişi nümayəndələri ilə məhdudlaşmır. Bu sülalənin qadın nümayəndələri də öz ədəbi nümunələri ilə ədəbiyyat tarixində görkəmli yer tutur. Şah Cahanın qızı Cahanara Bəyimin də şair olduğu məlumdur. Sultan Övrəngzibin qızı Zibun-Nisənin yaradıcılığı da diqqətə layiqdir.

# AZƏRBAYCAN AŞIQ ƏDƏBİYYATINDA QADIN SƏNƏTKARLAR

**Qaybalıyeva Səkinə**
*AMEA Folklor İnstitutu*
*f.ü.f.d., dosent*
*sakinaqaybali74@gmail.com*

Şifahi xalq ədəbiyyatının ən zəngin sahələrindən biri olan aşıq sənəti klassik ənənəyə bağlı olub, milli düşüncə və söz yaradıcılığımızın çox mühüm qaynaqlarından birini təşkil edir. Saz və söz birliyini özündə yaşadan aşıq yaradıcılığı xalqımızın qəhrəmanlıq ruhunu, tarixi keçmişini, adət-ənənələrini, dilini, mədəniyyətini və s. günümüzədək qoruyub saxlamışdır. Bədii təfəkkürün mənəvi insani dəyərləri, fəlsəfi görüşləri əks etdirməsi baxımından geniş sahəsini təşkil edən aşıq yaradıcılığı mühüm bir mədəniyyət hadisəsidir.

Bütün türk xalqlarının folklor həyatında əhəmiyyətli rol oynayan aşıq sənəti yüzillər boyu formalaşmış və müxtəlif inkişaf mərhələləri keçərək təşəkkül tapmışdır. Aparılan araşdırmalar göstərir ki, digər türk xalqlarının folkloru ilə müqayisədə Azərbaycan aşıq ədəbiyyatında qadın sənətkarların yaradıcılığına daha çox rast gəlinir. Öz zəngin yaradıcılığı ilə həm də el şairləri kimi tanınan qadın aşıqlar Azərbaycanın, demək olar ki, bütün regionlarında tanınmış saz və söz sənətkarları kimi fəaliyyət göstərmişlər. Onlar aşıq sənətinin bütün formalarında – qoşma, gəraylı, təcnis, deyişmə və s. gözəl poetik nümunələr yaratmışlar. Qarabağ və Şirvan aşıqları arasında rast gəldiyimiz tanınmış aşıqlardan Ağabəyim ağa, Aşıq Pəri, Aşıq Nabat, Aşıq Bəsti, Aşıq Sənəm, Nübar Mədətli, eləcə də Püstə Şikar qızı, Aşıq Pərnaz, Zeynəb Zərbəli qızı, Badam, Gülümsoltan, Naxçıvan aşıq mühitində Aşıq Nabat, Göyçə aşıq məktəbinin yetirməsi Şımpırlı Sevgili, Aşıq Başxanım, Aşıq Savad, Borçalı aşıq mühitində Aşıq Güllər Pərisi, Aşıq Leyli Əzizbəyqızı və onlarla başqaları müxtəlif dövrlərdə Azərbaycan aşıq ədəbiyyatının zənginləşməsində əhəmiyyətli rol oynamışlar. Qadın aşıqların yaradıcılığında əsas etibarilə zəmanədən şikayət, vətən sevgisi, ictimai quruluşdan şikayət, haqsızlığa dözümsüzlük, təbiət hadisələrinin təsviri, bəzi hallarda cəngavərlik, azadlıq hissləri (Ağabəyim ağa) hakimdir.

# NİZAMİŞÜNAS ALİM – MƏNZƏRƏ XANIM MƏMMƏDOVA

**Pənahoğlu Şəmsi**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu, f.ü.f.d.*
*shemsi_59@mail.ru*

Dosent Mənzərə xanım Məmmədova (1932, İrəvan-2019, Bakı) əsas elmi yaradıcılığını Nizami leksikasının tədqiqinə həsr etmiş görkəmli Azərbaycan şərqşünasıdır. Ana dilindən başqa, türk, fars, tacik, rus və erməni dillərini də mükəmməl bilməsi, əlyazmalarla işləməyi bacaran əndər mütəxəssis olması, milli dəyərlərə bağlılığı və Nizami irsinə sonsuz sevgisi ona əski Sovet İttifaqının aparıcı elmi mərkəzlərinin (Moskva, Sank-Peterburq, Bakı, Daşkənd, Səmərqənd, Aşqabad, Düşənbə, Tbilisi, İrəvan) müvafiq kitabxanaları, arxivləri, əlyazmalar fondlarında çalışmağa imkan vermiş və elmi axtarışları bu dərəcədə məhsuldar olmuşdur.

Mənzərə xanım "XI-XVII əsr fars dili izahlı lüğətlərinin əsas tərtib prinsipləri" monoqrafiyasının giriş hissəsində qeyd edir ki, mövzunun işlənməsində lüğətlərin əlyazmaları haqqındakı kataloq məlumatları və digər ədəbiyyatlarla yanaşı, XI-XVII əsrlərdə yazılmış iyirmi altı lüğətin əlyazmasından birbaşa istifadə olunmuşdur. Daha sonra müəllif, həmin lüğətləri bir-bir sadalayır. Bu faktın özü onun əsərlərinin həqiqi elmi dəyərini ortaya qoyur.

Mənzərə xanım 80-ə qədər məqalənin (onlardan 10-a yaxını xarici ölkələrdə çap olunmuşdur), 1 ikicildlik lüğətin, 3 monoqrafiyanın, 6 proqramın müəllifi, 2 tərcümə əsərinin, 2 dərsliyin, eləcə də ikicildlik əlyazmalar kataloqunun həmmüəllifidir.

Azərbaycanda lüğətçilik və leksikoqrafiyaya aid əlyazmaların araşdırılmasının əsasını qoymuş Mənzərə xanım, xüsusi kartoteka hazırlamış, ömrünün 30 ildən artığını Şeyx Nizaminin leksikasının öyrənilməsinə və öyrədilməsinə sərf etmiş, Nizami leksikologiyası məktəbini yaratmışdır. O, Nizamini yenidən kəşf etmiş və başqalarına da kəşf etdirmişdir.

**Nəticə:** Mənzərə xanım Məmmədova Nizami leksikologiyası məktəbinin banisidir.

**Təklif:** Mənzərə xanımın əsərlərinin dünyanın aparıcı dillərinə tərcüməsi Azərbaycanımızın, onun ədəbiyyat, elm və mədəniyyətinin, bütünlükdə kulturologiyamızın təqdimatı və təbliği yolunda yeni bir mərhələ olardı.

# TÜRK DÜNYASININ İLK QADIN HÜQUQŞÜNASI

**Abdullayeva Sevda**
*Azərbaycan Dövlət Aqrar Universiteti,*
*dosent*
*sevda.abdullayeva.1986@mail.ru*

Birinci Dünya müharibəsindən sonra Mustafa Kamal Paşanın rəhbərliyi ilə türk millətinin ümumi mübarizəsini qazandığı Türkiyə Cümhuriyyəti, Atatürkün dediyi kimi, yalnız hər iki cinsin tərəqqisi ilə qurula bilərdi. Buna nail olmağın yolu savadlı insanlardan keçirdi. Xüsusilə qadınların təhsil səviyyəsinin bir millətin inkişafında çox mühüm addımlar atmağa təsiri böyükdür. Elə, kökən Şuşaya, Azərbaycana bağlı olan Sürəyya Ağaoğlu da onlardan biridir. O, gələcək nəsillərə yol açan türk qadınlarından idi. Fərqli mövzularda söz sahibi olan Sürəyya Ağaoğlu yalnız o dövrün deyil, eyni zamanda bu gün hüquqşünas olan bütün qadınların yolunu açdı. Sürəyya Ağaoğlu savadlı, öz dəyərlərinə və mədəniyyətinə sadiq, gələcək nəsillərə yol açan türk qadını olmaqla yanaşı, bir insanın vətənə ən yaxşı şəkildə xidmət edəcəyinə həyatı ilə nümunə olub. Hüquq sahəsində fəaliyyəti ilə bərabər, gənclərin təhsil almasında, vətənə, dövlətə layiqli vətəndaş kimi böyüməsində də xidmətləri az olmamışdır. Belə ki, o, küçə uşaqlarını himayə altına alır və onların təhsili üçün nə lazımdırsa edirdi. O bütün həyatını insanlara kömək etməyə həsr edib. Sürəyya Ağaoğlu qadınlar üçün bir çox yeniliklərin yolunu açmaqla yanaşı, Türkiyənin beynəlxalq aləmdə səsi oldu. Savadı, dil bilikləri, dünyagörüşü Sürəyya Ağaoğlunun dünyanın bir çox ölkələrində fəaliyyət göstərməsinə şərait yaradırdı. O, çalışdığı, fəaliyyət göstərdiyi ölkələrdə gördüyü yenilikləri doğma Türkiyəsində tətbiq etmklə yanaşı, qeyri-hökumət təşkilatlarının formalaşmasında da mühüm rol oynayıb. Türkiyə Hüquqşünas Qadınlar Dərnəyi, Universitet Qadınlar Assosiasiyası, Azad İdeyaların Yayılması Assosiasiyası, İstanbul Soroptimists Klubu da bunlara nümunədir.

# Ə.AĞAOĞLUNUN ƏSƏRLƏRİNDƏ QADININ CƏMİYYƏTDƏKİ YERİ HAQQINDA

**Yusifli Afaq**
*Gəncə Dövlet Universiteti,*
*Filologiya fakültəsi, dosent*
*yusifli.afaq@mail.ru*

Qadınların öz hüquqları uğrunda mübarizəsi bütün dünyada paralel olaraq XIX əsrdən başlayır. Lakin Türk dünyasında qadınlar deyil, cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən kişilər qadın hüquqlarının cəmiyyətdəki yeri haqqında danışmağa başladılar. Bu məqalədə konkret olaraq Azərbaycan və Türkiyə Cümhuriyyətlərində qadın hüquqlarının bərqərar olması mərhələləri və onların Ağaoğlunun əsərlərində əks olunması məqamları nəzərdən keçirilir.

XX əsrin ilk onilliklərində yazdığı bir çox əsərlərində Ə.Ağaoğlu qadın hüquqları uğrunda qadınların mübarizəsini metaforik şəkildə əks etdirmişdir. "Sərbəst insanlar ölkəsində" əsərinin "Sərbəst ölkənin ilk hürriyyət qəhrəmanı" bölümündə qadınların öz siyasi hüquqları uğrunda mübarizəsi təsvir edilir. Hüquqlarının müdafiəsi üçün müxtəlif arqumentlərdən istifadə edən qadınlardan biri maraqlı bir sual səsləndirir: "Necə ola bilər ki, qadının yetişdirdiyi oğul bu məqama gələ bilsin, amma özü gələ bilməsin?"

Ə.Ağaoğlu "Üç mədəniyyət" əsərinin "Ailə" bölümündə XX əsrdə qadına və ailəyə yeni münasibətin formalaşmasını zəruri sayır. Əsrlərcə qadının iqtisadi və fiziki asılılığına, kişinin iqtisadi və fiziki hökmranlığına əsaslanan ailənin yenilənməsini istəyir. Ə.Ağaoğlu üçün yeganə çıxış yolu türk ictimai quruluşunun ailəni kişi və qadının hüquqca bərabərliyi üzərində qurması idi. Yalnız bu cür ailədə böyümüş türk övladı demokratik quruluşda yaşamanın şərtləri əsasında yeni tipli vətəndaş kimi yetişə bilərdi. Eyni zamanda Ə.Ağaoğlu üçün bərabərlik sözdə deyil, əməldədir. O, böyük Azərbaycan – türk mütəfəkkiri, eyni zamanda islamı gözəl bilən bir alim kimi türk-müsəlman dünyasının xilası yolunu belə müəyyənləşdirir: "Müsəlmanların nicatı, onların mənəvi və siyasi yüksəlişi iki məsələnin həllindən asılıdır: qadın məsələsi və əlifba islahatı. Yalnız azad, müstəqil düşüncəyə malik ana və övrət olduğu halda, müsəlman qadını öz sosial funksiyalarını məqsədyönlü tərzdə həyata keçirə bilər; yalnız bu şərtlə o öz övladlarında xarakter və iradə tərbiyə edib, ictimai həyat üçün vacib olan hiss və düşüncələri tətbiq etməyə qadirdir".

# FİRİDUN BƏY KÖÇƏRLİ MƏŞHUR MÜSƏLMAN QADINLARI HAQQINDA

**Hacıyeva Arzu**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, f.ü.f.d.*
*arzuhaci@gmail.com*

Azərbaycan ədəbiyyat tarixçiliyinin banisi Firidun bəy Köçərli milli mədəniyyətimizin yorulmaz təbliğatçısı, xalqımızın maarifləndirilməsi yolunda böyük işlər görən görkəmli ziyalı alimdir. F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi" kitabı özünün elmi, tarixi və mənəvi dəyəri ilə qiymətsiz bir məxəzdir.

F.Köçərlinin publisistikasında qadın və onun sosial missiyası məsələsi xüsusi yer tutur. Vətənini, millətini sevən F.Köçərli qadının cəmiyyətdəki əhəmiyyətli roluna dəyər verir və hesab edirdi ki, bəşəriyyətin taleyi məhz qadından – anadan asılıdır; cəmiyyəti təşkil edən fərdlərin tərbiyəsi, şəxsiyyət kimi formalaşması yolunda – təkamülündə ilkin və əsas mərhələ ana tərbiyəsidir.

"Keçmişdə müsəlman qadınları" məqaləsində F.Köçərli ilk olaraq islamın təbliği və yayılmasında əməyi olan, Peyğəmbərin sevimli həyat yoldaşı Xədicə xanımın adını çəkir. "Kübra", yəni "Böyük" adını qazanmış bu xanım Məhəmmədin peyğəmbərliyini və islamı qəbul edən ilk müsəlman qadındır.

Bundan əlavə, F.Köçərli islam tarixində xüsusi xidmətləri olan qadınlar sırasında Fatimə Xəttab qızı, Peyğəmbərimizin qızları – Fatimeyi-Zəhra və Ruqiyyə, Ümmi-Sələmə Əsma, Ümmül-Xeyr Bağdadi, Zübeydə Ümmi-Cəfər, Zeynəb Əli qızı, Asimə Məhəmməd qızı kimi din mücahidləri barədə ətraflı məlumat verir. Haqqında danışılan qadınlar sosial-siyasi, ictimai-mədəni mövqeyə malik olan xanımlardır. Onlardan bəzisi fiziki qüvvəsi ilə, bəzisi şəri bilikləri ilə islamın təbliğində rol oynayaraq, bəzisi isə mədəniyyətin daşıyıcısı kimi tarixə düşmüşdür.

Ərəb xəlifəsi Harun ər-Rəşidin zövcəsi Zübeydə Ümmi-Cəfər poeziya bilicisi olan müsəlman qadınları sırasındadır. F.Köçərli yazır ki, tarixdə xeyriyyə işlərinin müəllifi kimi qalan bu xanım həm ictimai fəaliyyəti ilə, həm də şairə kimi tanınırdı. Əslən Azərbaycan türklərindən hesab edilən Zübeydə xatun poeziyası ilə Azərbaycan ədəbiyyatı tarixində də iz qoymuşdur.

# NİZAMİ GENCEVİNİN YÖNETİCİ KADIN KARAKTERLERİ TÜRK KAHRAMANLIK DESTANLARIYLA FİKİR BAĞLANTISI BAĞLAMINDA

**Bahşiyeva Ülker**
*ADPU-nun Filologiya fakültesinin*
*Edebiyatın tedrisi teknolojisi*
*bölümünün öğretmen üyesi, f.ü.f.d.*
*ulker.baxsiyeva@mail.ru*

Tezde Nizami Gencevinin "Hosrov ve Şirin" mesnevisindeki hükümdar kadın obrazları türk kahramanlık destanlarıyla olan ideolojik bağlantısı bağlamında incelenmişdir. Burada Mehin Banu obrazının sadece bedii-estetik özellikleri değil, onun türk epik folklor kimliği de karşılaştırılarak incelenmiştir. Nizami kasıtlı olarak "Hosrov ve Şirin" mesnevisinde "Mehin Banunun Şirine nasihat vermesi" bölümünde karakterlerin türk etnik kimliğinin tesvirinde türk destançılıq geleneğinden yararlanmışdır. Dolayısıyla Mehin Banunun Şirine nasihatını sadece anne statüsünde olan bir teyzenin yeğenine yaptığı olan nasihat, hatırlatma gibi değil, bir hükümdarın şehzadeye verdiği ahlak dersi gibi de değerlendirmek lazımdır. Mehinbanu Şirine bir veliahd, şehzade hanımın nasıl davranması gerektiği konusunda "devletçilik dersi" verir. Onun verdiği nasihatlara bu bakımdan yanaşdığımız zaman onlarda türk devletçilik geleneğinin yansıdığını görürük. Mehin Banu Şirine siyasi-menevi açıdan türk devlet görgü kurallarına uygun olarak ölçülü davranmasını tavsiye eder. Nizaminin mesnevisinin bu kısmı ilə "Kitabi-Dədə Qorqud" destanındakı Dirse hanın karısının oğluna verdiyi nasihatı içerik olarak farklı olsa da, destan işlevi bakımından benzerliği bulunmaktadır. Her iki kadın-anne evlatlarına toplum için faydalı olanı yapmayı söyler, eve, aileye, devlete, toplumun hayatına sosyal-menevi uyum getiren eylemler için çağrıda bulunur. Her iki nasihat bireysel değildir: destandakı anne nasihati Oğuz-Türk devlet ahlakına dayandığı gibi, mesnevide türk kimliği açıkca gösterilmiş Mehin Banunun nasihatı da doğrudan Oğuz-Türk devlet ahlakını yansıdır.

# XIX ƏSR OSMANLI HEKAYƏSİNDƏ QADIN PROBLEMLƏRİNİN TƏHLİLİ

**Səmədova Ülkər**
*AMEA Şərqşünaslıq İnstitutunun*
*baş elmi işçisi, f.ü.f.d.,*
*ulker.kudretkizi@gmail.com*

Tənzimat yazıçıları əsərlərə qadınla birlikdə qadının problemlərini də gətirərək mətnlərin bir parçası olmasını təmin etmişlər. Əhməd Mithədin yazdığı "Suizan" hekayəsində kişi xarakterin *"Ölünün üzündə həyat eşqi axtarın, amma qadının üzündə iffət işığı axtarmayın"* deməsi, əslində, dövrün kişilərinin qadınlara qarşı belə düşüncəsi yazıçıların diqqətini çəkmiş və öz hekayələrində məhz bu mövzuları işləmişlər. Tənzimat illərində ən önəmli anlayış olan Qərb və Şərqin müsbət tərəflərini alıb ikisini sintez edə bilmə fikrinin bir ayağını Mithəd Akilədə göstərir. Yazıçı, Akilə xarakteri ilə Qərbin elmini öyrənərkən Şərqin ünsürlərinin unutulmamasını əsas göstərir. Midhətin ideal qadını deyilincə ilk ağıla gələcək adlardan biri də "Bir Tövbəkar"dakı Tələt xanımdır. Yazıçı Tələt xanımın şəxsiyyəti haqqında Feda əfəndiyə bu sözləri söylədir: "*Xanım, zəkanız təkcə qadınlara deyil, bir çox kişi üçün belə çoxdur"*. "Toy" hekayəsindəki Dilsitan və "Mehriban" hekayəsinin əsas qəhrəmanı Mehriban belə səfil cariyələrdəndir və yaşadıqları bütün çətinliklərin öhdəsindən gəlmələrinə baxmayaraq, sonda yalnız qalaraq dünyadan köçürlər. Yazıçı çətinliklər çəkən bu qadınları hekayələrində ideal bir baxış bucağından anlatmışdır. Ümumiyyətlə, adıçəkilən dövrdəki ədəbi əsərlərdə avtoritar qadınlar, zəif qadınlar, savadlı qadınlar, cahil qadınlar, görünüş cəhətdən avropalaşmış, ancaq düşüncə cəhətdən hələ də cahil qalan qadınlar, evə cariyə kimi gəlib sonradan təhsil alıb, piano öyrənən qadınlarla çox rastlaşılır. XIX əsrdə qadın hüquqlarının tanınmağa başlanması, qadınlar üçün peşə məktəblərinin açılması, artıq bir mal kimi alınıb-satılmanın ləğv olunduğunu bu dövrün roman və hekayələrində də görürük. Amma yenə dövrün yazıçıları qarşılaşdıqları və mane ola bilmədikləri qadın problemlərini öz əsərlərində işıqlandırmışlar. Gözləri bağlı bir şəkildə məmləkətin xaricinə çıxan türk hekayəsi, Şərq qadını profilini ilk dəfə bu əsərlərdə təsvir etməyə başlamışdır. Dövrün yazıçıları bu müddətdə Qərb mədəniyyətinə obyektivlikdən uzaq, Şərq mədəniyyəti ilə formalaşmış bir perspektivdən baxmışdır.

# ELM VƏ TƏHSİLDƏ AZƏRBAYCAN QADINLARININ ROLU

**Orucova Ülviyyə**
*M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı, f.ü.f.d.*
*ulviyya_1989@mail.ru*

Sürətlənmiş elmi-texniki tərəqqi ötən əsrin xarakterik cəhətlərdən biri olmuşdur və dünya birliyinin qarşısında duran əsas çağırışlardan biri hesab olunur. Bununla qarşılaşdıqda bir sıra suallar ortaya çıxır: Bu transformasiyalarda qadınların rolu nədə olub və hal-hazırda varmı? Qadınların elm sahəsini seçmələri üçün hələ də mövcud olan maneələr və texnoloji sahələr hansılardır; onlar da tam inkişafa nail olmağa can atırlarmı?

Qadınlar və elmin inkişafından danışarkən qeyd etmək lazımdır ki, qadınların elm sahələrinin inkişafında rolu azdır. Keçən əsrdə yalnız on bir qadın Nobel mükafatına layiq görülmüşdür.

Müasir elmin inkişaf etməyə başladığı dövrdən bu günümüzə kimi tarix boyunca qadınların imkanlarının və təhsildə mövcud olan maneələrin xarakterinin dəyişdiyini görmək mümkündür. XII-XV əsrlərdə Avropa universitetlərində qadınların imkanları məhdud olmuşdur. Belə ki, universitetlərin klerikal kilsə xarakteri onların universitetlərə qəbul edilməsinə veto qoymuşdu.

Beləliklə, son dövrlərə qədər qadınlar üçün elmi müəssisələrə qəbul məhdudlaşdırılmışdı. Ötən əsrin ikinci yarısında qadınlar əvvəllər onlara ayırılan müəssisələrə qayıtmağa razılaşmışdılar və getdikcə evdən kənar yerlərdə daha çox çalışmağa başlamışdılar; onlar ailənin əsas aparıcı qüvvəsinə çevrilirlər; iqtisadi cəhətdən müstəqil olurlar; müəyyən vəzifələr tuturlar və iş həyatında uğurlu addımlar atmağı bacarırlar. Sosial inkişafa ehtiyac duyan qadınların sayı getdikcə artır və hər biri öz ailəsində və iş yerlərində uğurlu şəxs olmağa çalışır.

Dünyəvi inkişaf yolunu seçmiş müasir Azərbaycanda elm və təhsil sahəsində gender məhdudiyyətləri qoyulmamışdır. Əsrlər öncədən qadınların elmə, təhsilə və incəsənətə böyük maraqları olmuşdur, lakin dövrlərin qanunlarına uyğun olaraq, belə qadınlar haqqında danışılmamışdır. Lakin müasir dövrdə Azərbaycanda elm və təhsil sahəsində qadınlara böyük hörmətlə yanaşılır.

# XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA REAL QADIN SURƏTLƏRİNİN BƏDİİ ƏDƏBİYYATDA REPREZENTASİYASI

**Ağabəyli Vüsalə**
*Azərbaycan Dillər Universiteti*
*f.ü.f.d., dosent*
*vusale.agabeyli@gmail.com*

XIX əsr mühafizəkar Şərq qaydaları ilə idarə olunan Azərbaycan cəmiyyətində qadınların hərəmxana həyatından, göbəkkəsmə, görücü üsulları ilə zorakı evliliklərdən, iqtisadi və mənəvi asılılıqdan, sosial və psixoloji təzyiqlərdən əziyyət çəkdikləri dövrdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin maarifçilik ideyalarının təbliğatı və formalaşdırılması asan deyildi. Yenilikçi fikirlərə, təbliğatlara baxmayaraq, maarifçilik stereotipləşmiş mühafizəkarlığa tam qalib gələ bilməmişdi. Qızların təhsil alması, məhdudlaşdırılmış ictimai fəaliyyəti hələ də problem olaraq qalırdı. Bununla yanaşı, XIX əsrin əvvəllərində olan mühit ilə ortalarından sonra olan mühit bir-birindən ciddi şəkildə fərqlənirdi. Əlavə olaraq, xüsusilə XIX əsrin ortalarından sonra fəaliyyətə başlayan xeyriyyə təşkilatları və cəmiyyətlər də qadın inkişafı və təhsili üçün təkan idi.

Qadının təhsil alması ailə və cəmiyyətin inkişafı ilə yanaşı, digər tərəfdən də önəmli idi. Belə ki, təhsil almaq üçün Qərb ölkələrinə üz tutan bəzi azərbaycanlı kişilər təhsilsiz azərbaycanlı qadını ilə uyğunluq tapmadığından, çox vaxt təhsil aldıqları ölkədə evlənib elə orada qalırdılar. Beləliklə də, təhsilli Azərbaycan gənci töhfəsini öz millətinə verə bilmirdi. Zərdabi, Axundzadə, Vəzirov və s. bu məsələni də Azərbaycan qadınının təhsil alması baxımından zəruri nüans hesab etdiklərindən əsərləri və fəaliyyətlərində Azərbaycan qadınına təhsilə çağırış edirdi. Cəhalətin, mövhumatın hökm etdiyi mühitdə Axundzadə, Zakir, Mirzə Kazımbəy, Vazehin Azərbaycan ədəbiyyatında yaratdığı obrazların qadının vəziyyəti, cəmiyyətdəki yeri, onlara qarşı münasibətin dəyişməsində əvəzsiz rolu olmuşdur.

# ELM VƏ TƏHSİLDƏ AZƏRBAYCAN QADININ ROLU

**Kərimova Xanımzər**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*
*x.asadova@hotmail.com*

Zəkası, müdrikliyi, sədaqəti ilə hər zaman xalqımızın adını uca tutan Azərbaycan qadını cəmiyyətimizin ən aparıcı qüvvəsinə çevrilib. Dünya elm və mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Bu gün də həmin tendensiya davam etməkdədir. Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları və xidmətləri qədim tariximizin səhifələrini zənginləşdirib.

Qadına dəyər vermək və onun elm və təhsildə rolunu qiymətləndirmək islam dini yaranandan bu günə kimi öz qüvvəsində qalmaqdadır. Peyğəmbərimizin zamanına baxdığımızda qadınların tibb, iqtisadiyyat, sosial fəaliyyətlər, ticarət, maarif işlərində işlədikləri görülməkdədir. Peyğəmbərimiz qadınların öyrənmə sərbəstliyi, söz və ifadə azadlığı çərçivəsində təhsil almalarına şərait yaradıb. "Elm öyrənmək hər müsəlmana fərzdir" buyuran Peyğəmbərimiz (s.a.s.) qadın və kişi ayrı-seçkiliyi salmadan hər kəsin elmli olmasını istəmiş və qadınların təhsil almada sərbəst olduqlarını bildirmişdir. Bu gün Azərbaycanda savadlılıq səviyyəsinin yüksək olmasını qadınlarımızın və qızlarımızın payına düşən rəqəmlərdən görmək olur. Müasir dövrdə həyatımızın hər bir sahəsində çalışan Azərbaycan qadını ictimai-siyasi həyatda mühüm rol oynayır, fəal mövqe tutur, öz zəkası, fəda- karlığı, vətənpərvərliyi ilə fərqlənir.

Təsadüfi deyil ki, Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan qadınına həmişə yüksək qiymət vermiş, rəhbərlik etdiyi bütün zamanlarda cəmiyyətdə qadınların mövqeyinin möhkəmləndirilməsinə imkan yaratmışdır. Həyatın bütün sahələrində qadınların rollarının artırılmasına çalışan Heydər Əliyev onların rəhbər vəzifələrdə irəli çəkilməsini də həmişə diqqət mərkəzində saxlayırdı.

Heydər Əliyev ölkənin təhsil sisteminə həmişə qayğı göstərir və bu sahənin inkişafına mühüm əhəmiyyət verirdi. Ulu öndər Azərbaycan qadınının, qadınların cəmiyyətdəki rolunu və fəaliyyətlərini yüksək dəyərləndirərək demişdir: "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf-şan, şöhrətdir. Qadın ucalıq, ülvilik, bakirəlik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir".

# ƏRƏB ŞƏRQİNDƏ GENDER BƏRABƏRSİZLİYİNDƏN DOĞAN PROBLEMLƏR

**Ələkbərova Xumar**
*Azərbaycan Milli Elmlər Akademiyası akad.*
*Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*f.ü.f.d., dosent*
*uxba@mail.ru*

Bu gün Ərəb Şərqi bitməyən savaşlar, daha çox səfalət, cəhalət və gerilik ehtiva edən region mənzərəsini sərgiləyir. Və bu mənzərədə qabarıq əks olunanlar arasında gender bərabərsizliyi problemi Ərəb Şərqinin dünya çapında mənfi mənada özünəməxsusluğunu xarakterizə edir. Bu problemlər sırasında erkən nikahlar, ailədə və cəmiyyətdə qadın haqlarının pozulması, qadın zorakılığı hallarının olması, qadınlara qarşı sosial ədalətsizlik, qadın savadsızlığı və işsizliyi faizinin yüksək göstəriciləri və s. sadalana bilər. Bu arada yalnız bir neçə daha mühüm statistik göstəricini ehtiva edən qısa məlumat verməklə bu haqda geniş mənzərə yaratmaq mümkündür.

Məsələn, erkən nikahlarla bağlı statistikaya nəzərə salaq: Somalidə 45%, Yəməndə 37%, Sudanda 27% təşkil edir. Regionda qadın savadsızlığı da, təəssüf ki, tarixin həll edə bilmədiyi problemlərdəndir və XXI əsrdə 50 faizdən çox təşkil edir.

Ərəb ölkələrində qadınların işsizlik faizi də böyükdür. Bütün regionda 2004-2007-ci illərdə qadınların işsizlik səviyyəsi (18,4%) kişilərin işsizlik payından iki dəfə çox olmuşdur (10,4%). Ayrı-ayrı ərəb ölkələrində, əlbəttə ki, bu mənzərə daha fərqli və acınacaqlıdır. Məsələn, Misirdə və Səudiyyə Ərəbistanında işsiz qadınların sayı işsiz kişilərin sayından 3 dəfədən çoxdur (müvafiq olarq Misirdə 18,6% və 6%, Səudiyyə Ərəbistanında 13,2% və 4,2%).

Ümumiyyətlə, ərəb ölkələri üzrə aktiv işçi qüvvəsinin yalnız 25 faizini qadınlar təşkil edir. Və bu yerdə bir fakt qeyd olunmalıdır ki, qadınlar daha çox qeyri-rəsmi işlərdə – kənd təsərrüfatında, təmizlik, xidmət sektorunda çalışırlar. Məsələn, Yəməndə aktiv işçi qadınların 88 faizi (1995-2005) kənd təsərrüfatında işləyir (Suriyada 58%, Mərakeşdə 57%, Misirdə 39%, Fələstində 34%).

# ORTA ƏSRLƏR MÜSƏLMAN DÜNYASINDA QADIN: HÖKMDAR, YAXUD "ƏSİR"

**Yaxşıxanım Nəsirova**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Türkiyə tarixi və iqtisadiyyatı şöbəsi*
*yaxshi.selim@bk.ru*

Dünya mədəni fikir xəzinəsinə nadir incilər vermiş məşhur elm və sənət adamları, görkəmli siyasi xadimlər cərgəsində hörmət və məhəbbətlə çəkilən adı bizim üçün həmişə əziz olan qadın tarixin bütün səhifələrində cəsarətli və daimi iz qoymuş sevimli bir varlıqdır. Ən qədim dövrlərdən başlamış müasir həyatımıza qədər sevgisi, səbri, dözümü, inadı, kamil düşüncəsi ilə bəşəri dəyərlərin yaranmasında imzasını atmış qadınlar artıq ictimai-siyasi fəaliyyətlərində də kişilərlə bərabər hüquqlardan istifadə edirlər.

Diqqətinizə təqdim etdiyimiz məruzə keçən əsrin tanınmış türk tarixçisi və siyasətçisi Bahriyə Üçokun müəllifi olduğu "Müsəlman dövlətlərində qadın hökmdarlar" adlı kitabı və digər müvafiq məlumatlar əsasında yazılmışdır. Ankara Universitetinin İlahiyyat fakültəsinin ilk qadın alimi (akademisyen), Ordu millət vəkili (1983-1987) və Sosial-Demokrat Xalq Partiyasından partiya məclis üzvü (1987-1990) olan Bahriyə Üçok 1971-ci ildə Türkiyə Respublikası Prezidentinin fərmanına əsasən TBMM-nin senatına (yüksək palatasına) üzv seçilmiş və 6 il senator vəzifəsini yerinə yetirmişdir. Onun bütün həyatı, yaradıcılığı və siyasi fəaliyyəti müsəlman aləmində qadının vəziyyəti, hüquqları, mübarizəsi və s. məsələlərə həsr olunmuşdur. Əsər ingilis, fransız, ərəb və fars dillərinə, 1982-ci ildə isə mərhum akademik Z.M.Bünyadov tərəfindən rus dilinə tərcümə olunmuş və nəşr olunmuşdur.

Müsəlman dünyasının tanınmış qadın hökmdarlarından olan Dehli sultanı-Raziyə sultan, Misir sultanı Şəcarət ət-Dürr, Kirman hökmdarı Qutluq Türkan xatun və digərləri haqqında tarixi-sənədli məlumatlar təqdim etmiş müəllif hələ XIII əsrdən başlayaraq dünya səhnəsində hökmran qadınların tutduğu siyasi mövqeyi, ölkəsinin əmin-amanlığı üçün həyata keçirdiyi islahatlarla bağlı maraqlı mülahizələrini oxucu ilə bölüşmüşdür.

Məruzəmizdə əsərdə verilmiş bilgilərdən yararlanaraq orta əsrlər müsəlman dünyasında qadın məsələsi mövzusunu həm Bahriye Üçok, həm də şəxsi prizmamızdan izah etməyə çalışacağıq.

# TARİXDƏ İZ QOYAN QADINLAR: ZİBA QƏNİYEVA

**Şıxəlibəyli Zenfira**
*AMEA Şərqsünaslıq İnstitutu*
*Asiya və Sakit Okean regionu*
*ölkələri şöbəsinin müdiri, f.ü.f.d*

Azərbaycan çox keşməkeşli tarixi keçmişə malikdir. Yüzillər ərzində xalqımız çoxlu sayda sınaqlardan keçmiş, vətənimizin övladları bu torpağın varlığı uğrunda dərin iz qoyub getmişdir. Belə övladlar arasında qadınlarımızın da sayı az deyil.

Məlumdur ki, tarixdə yadda qalan xeyli xanımlarımız var. Onların arasında İkinci Dünya müharibəsində qəhrəmanlıqla həmvətənləri ilə bərabər vuruşan gənc qızlarımızın əvəzolunmaz yeri vardır. Yüzlərlə azərbaycanlı xanım düşmən qüvvələrinə qarşı, müharibənin ən qızğın bölgələrində müxtəlif səpkili vəzifələri yerinə yetirmiş, öz gənc ömürlərini vətənin müdafiəsi yolunda qurban verməkdən çəkinməmişlər. Azərbaycanın qəhrəman qadınlarından biri də II Dünya müharibəsində şücaət göstərmiş ilk azərbaycanlı snayper qadın Ziba Qəniyeva olmuşdur.

Qeyd etmək lazımdır ki, kəşfiyyatçı kimi müharibəyə yollanan Ziba Qəniyeva öz döyüş yolunda göstərdiyi qəhrəmanlığa görə Sovet İttifaqının ən yüksək təltifləri ilə mükafatlandırılmışdır. Ziba həm də özbək xalqının qəhrəman qızı hesab edilir, belə ki, onun tərcüməçi və müəllim olan atası azərbaycanlı olsa da, anası özbək qızı idi. Bu baxımdan, bir çox mənbələrdə onun özbək xalqının qəhrəmanı kimi göstərilməsi təsadüfi deyil.

Ziba Qəniyevanın adı II Dünya müharibəsində çıxış edən sovet əsgərləri arasında fəxrlə qeyd olunsa da, çox az adam bilir ki, onun ailəsi 1937-ci ildə repressiya qurbanı olmuşdur. Anasını itirən balaca qızcığaz 14 yaşında sovet imperiyasının bədnam rəhbərləri tərəfindən yetim həyatına məhkum olmuşdur. Həbs olunan anasının aqibətini yaşatmamaq üçün atası məcburən ondan imtina etməli olmuşdur. Həyatda ayaqda qalmaq üçün yolunu incəsənətdə axtaran Ziba beləcə Moskvaya gedir və aktyorluq fakültəsinə daxil olur. Lakin müharibə onun arzusunu yarımçıq qoyur, müharibənin ilk günlərindən cəbhəyə yollanır. Beləcə, əvvəlcə tibb bacısı, sonra da kəşfiyyatçı olur, sovet kəşfiyyatçılarının malik olduğu optik nişanlı tüfənglə işləməyi, xizəkdə gəzməyi, əlbəyaxa döyüş növlərini öyrənir.

Ziba Qəniyeva haqqında maraqlı faktlardan biri də onun şərqşünas olması idi. Müharibədən sonra vətəninə dönən Ziba öz həyat yolunu elm və təhsildə axtarmağa çalışır. Türkiyədə, Hindistanda olmuş, urdu dilini öyrənmiş, hind fəlsəfəsi ilə maraqlanmış, görkəmli hind siyasi və ictimai xadimləri ilə tanış olmuşdur. O, şərqşünaslıq üzrə doktor, professor, fəlsəfə elmləri namizədi, SSRİ Elmlər Akademiyasının əməkdaşı idi. Bu baxımdan, tarixdə böyük rol oynamış özbək və Azərbaycan qadınları arasında Ziba Qəniyevanın ayrıca rolu vardır.

# ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN TƏDQİQATLARINDA QADIN MÖVZUSU

**Məmmədov Vüqar**
*AMEA akademik Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun İran filologiyası*
*şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.,*
*vm12345@mail.ru*

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Şərq ölkələrinin ictimai-siyasi həyatı, ədəbiyyatı, Şərq təfəkkürü araşdırılarkən qadın mövzusu həmişə diqqət mərkəzində olub. Son illər bu mövzuya diqqət daha da artırılıb. Şərqşünas alimlər qadın məsələlərinə həsr olunmuş tədqiqatları, çap olunan kitabları, elmi məqalələri, müxtəlif beynəlxalq və respublika səviyyəli konfranslarda, simpoziumlarda məruzələri ilə fəal olublar. Son 20 ildə aparılan tədqiqatlarda Şərq ölkələrində – Türkiyədə, Mərkəzi Asiyada, ərəb ölkələrində, qadın hüquqları, qadın azadlığı məsələləri, eyni zamanda ictimai həyatda fəal qadınların fəaliyyəti, ədəbiyyatda qadın yazıçı və şairlərin yaradıcılığı, ədəbi əsərlərdə qadın obrazları və digər mövzular nəzərdən keçirilib.

Qadın mövzusu f.ü.f.d. Xanım Abdullayevanın 2022-ci ildə fəlsəfə doktorluğu üzrə müdafiə etdiyi “XIX əsr türk ədəbiyyatında roman janrının təşəkkülü və inkişafı” mövzusunda dissertasiya işinin “XIX əsr türk romanında qadın imzası” bölməsində, f.ü.f.d. Xumar Ələkbərovanın “Ərəb ədəbiyyatının ehramı Nəcib Məhfuz” monoqrafiyasındakı “Nəcib Məhfuz romanlarında qadın obrazlarının timsalında Ərəb Şərqi qadınlarının təkamülü” bölməsində, “Misirdə müasir qadın yazıçılar” mövzusunda tədqiqat işində, həmçinin t.ü.f.d. Nüşabə Bayramlının “İbn Xəlliqanın «Vəfayət əl-əyan» adlı əsərində türk əsilli qadınlar və onların ictimai-siyasi fəaliyyəti”, Aysel Vəliyevanın “Müstəqillik illərində Mərkəzi Asiya ölkələrində qadın faktoru”, Humay Məmmədovanın “Türk qadın yazıçılarının romanlarında qadına münasibət (Cümhuriyyətə qədərki dövr)” mövzusunda tədqiqatlarında xüsusi araşdırılıb.

Eyni zamanda f.ü.f.d. Səriyyə Gündoğdu “Məhməd Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü”, f.ü.f.d. Sədaqət Qasımlı “Türkiyə ədəbiyyatında yeni hekayəçilik” kitablarında, f.ü.f.d. Lalə Əliyeva “Müasir Suriya yazıçısı Qadə əs-Səmmanın yaradıcılığı”, İbrahim Quliyev “Foruğ Fərruxzad yeni fars şerinin görkəmli nümayəndəsi kimi”, Pərvinə Əfəndiyeva “Rifai Təhtəvi və onun Misirin ictimai-siyasi həyatında rolu” mövzusunda tədqiqatlarında qadın məsələsini də nəzərdən keçiriblər.

Şərqşünas alimlər bu mövzuda konfranslarda məruzələr ediblər, məqalələrini dərc etdiriblər.

Bütün bu diqqətə çəkilən faktlar Şərqşünaslıq İnstitutunda qadın məsələlərinin daim alimlərin diqqət mərkəzində olduğunu göstərir və institutda bu sahədə tədqiqatlar davam etdirilir.

# QADIN MATRİARXATDAN BİARXATA DOĞRU

**Şabanov Zeynəddin**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*f.ü.f.d., dosent*
*zeynaddin.shabanov@gmail.com*

Cəmiyyət təşəkkül tapandan bu günədək qadın təzadlı inkişaf yolu keçmişdir. Əgər insanlıq tarixinin ilk dövrlərində, yəni tarixçilərin fikrincə, 5000 il davam etmiş matriarxat dövründə (I dövr) qadın cəmiyyətdə daha üstün mövqeyə malik idisə, sonradan ictimai əmək bölgüsünün yaranması, hücum və müdafiə elementlərinin önə keçməsi, fiziki əməyə ehtiyacın artması nəticəsində heç bir zorakılıq əlamətləri olmadan qadın öz mövqeyini kişilərə güzəştə getdi və cəmiyyətdə kişilərin hökmranlıq etdiyi patriarxat dövrü (II dövr) başladı. Zaman-zaman öz üstün mövqeyindən sui-istifadə edən kişilər qadınların hüquqlarını tanımadılar, ayrı-seçkilik elementləri artmağa başladı. Uzun illər hüquqsuz vəziyyətdən əziyyət çəkən qadınlar mübarizəyə qalxaraq feminizm siyasi-ideoloji hərəkatını yaratdılar. Bu hərəkatın liderlərini hədəfə alan patriarxal cəmiyyət müəyyən güzəştlər etməyə başladı və yeni – gender termini formalaşdı. Müasirləşən cəmiyyətdə əksər inkişaf etmiş dövlətlərdə yeni qanunların qəbul edilməsi nəticəsində hər iki cinsin nümayəndələrinə ictimai həyatın müxtəlif sahələrində bərabər iştirak etmək hüququ və imkanı verildi. Beləliklə, cəmiyyət öz inkişafının yeni – biarxat mərhələsini (III dövr) yaşamağa başladı.

Mütəxəssislərin bəziləri bu bölgünü fərqli qaydada aparırlar: təmiz matriarxat, təmiz patriarxat, qarışıq matriarxat, qarışıq patriarxat, təmiz biarxat, qarışıq biarxat, cinssiz biarxat. Hər bir bölgü özünəməxsusluğu ilə fərqlənir. Müasir biarxat dövrünün reallığı ondan ibarətdir ki, burada qadınlara kişilərlə bərabər hüquqlar, qanunlarda de-yure verilsə də, cəmiyyətdəki stereotiplər bunu həzm etmir və nəticədə qadınlar de-fakto bu hüquqlardan kənarda qalırlar. Bunun nəticəsində qadın hələ də diskriminasiya, ayrı-seçkilik, zorakılıq hallarına məruz qalır, hüquqları pozulur, özünü cəmiyyətdə təsdiq etməkdə çətinlik çəkirlər. Ölkəmizdə beynəlxalq standartlara uyğun olan qanunlar, mexanizmlər olsa da, zəruri qurumlar fəaliyyət göstərsə də, gender mədəniyyətinin kifayət səviyyədə olmaması bir sıra problemlərin yaranmasına gətirib çıxarır.

# MADAME DE SÉVİGNÉ'DEN SEVİN TAÇLI'YA DEĞİŞEN DÜNYADA KADIN ROMANTİZMİ DOĞU-BATI ETKİLEŞİMİNDE

**Vəliyeva Önlen Zülfiyyə**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Türkiyə tarixi və iqtisadiyyatı şöbəsi, t.ü.f.d.*
*veliyevaz@gmail.com*

Bildiride geçmişten günümüze iki kadın yazar arasındaki bağ üzerinde durulmakta ve her iki yazarın edebi tarzı ile ilgili bilgi verilmektedir. Bu yazarlardan ilki 1626-1696 yıllarında Fransa'da yaşamış olan Madame de Sévigné'dir. O, kızına yazmış olduğu mektuplarıyla ünlüdür. Yazışmalarında döneminin bazı siyasal olayları ve önemli kişileri konusunda bilgi vermenin yanı sıra Fransa'nın doğa olaylarına – Rhone (Ron) nehrinin coşkun sularına dikkat çekmektedir. XVII. yüzyılın sonunda Avrupa'da yayılan hastalık sonucunda Sévigné'nin kızı hastalanmış ve o, da enfeksiyon kaparak, dünyasını değişmiştir.

Diğer yazar Sevin Taçlı ise günümüz dünyasında yaşayan fakat pek de popüler olmayan kadın yazarlardan birisidir. Bu iki kadın yazarın birlikte ele alınmasının nedeni ise Sevin Taçlı'nın 2022 senesinde yayınladığı "Pandemi Savaş ve Aşk Tuzağında" adlı eserindeki bazı nüansların dikkatimizi çekmesidir. Şöyle ki, yazar Sevin Taçlı romanın sonunda kendisini Madame de Sévigné'ye benzeterek, onunla geçmişten günümüze bağ kurmaktadır. Bunun yanı sıra o, 2020 senesinde ülkesinde yaşanan savaşı ve onun psikolojik sarsıntılarını Madame de Sévigné gibi epistolary tarzda anlatmaya çalışmıştır.

İki kadın yazarın yaşadığı dönem ve ülkeler arasında epey bir mesafe olmasına rağmen Doğu-Batı kavramlarının değişen dünya koşullarında bile kadın duyarlılığında bütünleşebildiğini her iki edibin duygusal iz düşümlerinden anlamak mümkündür.

# TARİXDƏ AZƏRBAYCAN QADINLARININ ROLU

**Şərifov Şahlar**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*Azərbaycanın VII-XIV əsrlər tarixi şöbəsinin*
*aparıcı elmi işçisi, dosent*
*shahlarsharifov@gmail.com*

Tarixi mənbələrə nəzər saldıqda bütün dövrlərdə Azərbaycan qadınlarının torpaqlarımızın toxunulmazlığı, milli-mənəvi dəyərlərimizin qorunması və dövlətçiliyimizin möhkəmləndirilməsi uğrunda gedən mübarizələrdə yaxından iştirak etdiklərinin şahidi oluruq.

E.ə. V əsrdə yaşamış yunan tarixçisi Herodot "Tarix" əsərində Əhəməni hökmdarı II Kirin (e.ə. 550-530) Şimali Azərbaycana yürüşü və bu zaman massaget türklərinə rəhbərlik edən Tomris (e.ə. 570-520) tərəfindən məğlub edilməsi haqqında ətraflı məlumat verməkdədir. Bu döyüşdə qalib gələn Tomris Massaget dövlətinin ərazi bütövlüyünü qoruya bilmişdir.

Romalı tarixçilər Dion Kassi, Yuli Frontin və Appianın verdiyi məlumatlara görə, e.ə. 65-ci ildə romalı sərkərdə Pompeyin Albaniyaya hücumu zamanı ona qarşı mübarizə aparan alban ordusuna hökmdar Oroysun qardaşı Kozis rəhbərlik edirdi. Bu orduda alban qadınları da kişilərlə bərabər sonadək döyüşmüşlər.

VII əsrdə başlayan ərəb yürüşləri zamanı da azərbaycanlı qadınlar mübarizə aparmaqdan geri qalmamışlar. Bu dövrdə adı qeyd olunan qadınlar sırasında əvvəlcə Cavidanın, onun ölümündən sonra Babəkin xanımı olmuş Banu xanımın adı xüsusilə qeyd olunur. Babəklə birlikdə iyirmi ildən artıq ərəblərə qarşı mübarizə aparan Banunun 838-ci ildə Bağdadda vəfat etməsi barədə məlumatlar mövcuddur.

XII-XIII əsrlərdə Azərbaycan Atabəylər dövlətində baş verən siyasi hadisələrdə iştirak edən azərbaycanlı xanımlar sırasında Möminə xatunun, İnanc xanımın və Mehrcan xanımın adları xüsusilə qeyd edilir. Bu xanımlardan Mehrcan xanımın adı siyasi hadisələrdə daha çox çəkilir.

XV əsrin tarixi hadisələrində adı qeyd olunan azərbaycanlı xanımlardan biri də Sara xatundur. O, Ağqoyunlu dövlətinin daxili və xarici siyasətində diplomatik əlaqələrdə mühüm rol oynamışdır. 1461-ci ildə sultan II Mehmedlə Yassıçəmən sülhünün bağlanmasında, Trabzon xəzinəsinin bölüşdürülməsində yaxındam iştirak edən Sara xatun, 1468-ci ildə də Teymuri Əbu Səidlə danışıqlar aparan elçilərə rəhbərlik etmişdir.

Səfəvilər dövründə baş verən Çaldıran döyüşündə və digər hadislərdə iştirak edən azərbaycanlı xanımlardan Şah İsmayılın xanımı Taclı xanım və I Təhmasibin qızı Pərixan xanımın adlarını qeyd etmək olar.

Sonrakı dövrlərdə baş verən tarixi hadisələrdə adları qeyd olunan azərbaycanlı xanımlar sırasında Qubalı Fətəlinin xanımı Tuti Bikənin və Gəncəli Cavadın xanımı Bəyimin, 1898-ci

ildə Təbriz üsyanına rəhbərlik edən Zeynəbin, C.Məmmədquluzadənin xanımı Həmidənin, Ə.Topçubaşovun xanımı Pərinin adlarını qeyd edə bilərik.

Bütün dövrlərdə olduğu kimi, müasir dövrdə də azərbaycanlı xanımlar siyasi və elmi arenalarda sözlərini deməyi bacarır ki, bunun bariz nümunəsi kimi Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanı xüsusilə qeyd etmək lazımdır.

# TÜRK ƏDƏBİYYATINDA İLK QADIN ROMAN MÜƏLLİFİ

**Abdullayeva Xanım**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*Türk filologiyası şöbəsinin elmi işçisi, f.ü.f.d.*
*mehivaqo@mail.ru*

XIX əsr bütün dünyada sosial transformasiya və siyasi sarsıntıların elmi-texniki yüksəliş və inkişaf dövrü olmaqla yanaşı, "qadın inqilabı" adlanan yeni məfhumun tarixi meydanı dövrüdür. Dünya tarixindən məlumdur ki, bir sıra iri siyasi sosial-iqtisadi böhranlar dövründə qadınlar ictimai hərəkatların yaranmasının ilkin təşəbbüskarı və bəzən də liderləri rolunda iştirak etmişlər. Bu zaman onlar nəinki "güclü cinsi" təkrar etməmiş, hətta kişilərə, onların əxlaqına, dünyagörüşünə və s. təsir etmişlər. Türkiyə cəmiyyətində və ədəbi həyatında qadının bir şəxsiyyət kimi önə çıxdığı dövr Tənzimatdan (1839) sonra başlamışdır. Türkiyə ədəbiyyatında ilk qadın roman müəllifi 1877-ci ildə yayımladığı "Eşqi-Vətən" adlı romanı ilə Zəfər xanım qəbul edilir. Lakin əsərin primitivliyi, obrazların azlığı, mövzunun bəsitliyi və həcmcə kiçik olması onu romandan daha çox hekayə janrına yaxınlaşdırır. Təəssüf ki, Zəfər xanım yalnız bu əsərlə kifayətlənmişdir və yazıçılığa davam etməmişdir. Bu səbəblərə görə bəzi tədqiqatçılar onu bir yazıçı kimi qəbul etmədiklərindən, Türkiyə ədəbiyyatının və ümumilikdə islam coğrafiyasının ilk qadın romançısı kimi beş roman müəllifi Fatma Aliyə Topuzu dəyərləndirirlər. 1908-ci ildə II Məşrutiyyətin elan edilməsinə qədər Fatma Aliyə xanım, demək olar ki, yeganə qadın yazıçıdır. O, ədəbi fəaliyyətə 1889-cu ildə George Ohnetin "Volente" romanını "Məram" adı ilə tərcümə edərək başlamışdır. Müəllif bu romanı Bir Xanım imzası ilə yayımlamışdır. İlk romanı "Mühədərat"ı isə 1891-ci ildə öz adı ilə yayınlamışdır. "Mühədərat" romanında evlilik, cariyəlik, məhəbbət, xəyanət, tanışlıq vasitəsilə ailə qurulması kimi mövzular ətrafında müsəlman-türk qadınının feminal anlamda özünü dərk etməsinin bədii simvolu olan Fəzilə obrazı vasitəsilə cəmiyyət içərisindəki ayrı-seçkiliyi dəyişdirmək, kişilərlə bərabər hüquqlara sahib olmaq, əzilməyə, alçaldılmağa qarşı çıxmaq və iqtisadi azadlığı qazanmaq uğrunda göstərilən cəhdlər əks edilmişdir.

# UTOPİYA/DİSTOPİYA ƏDƏBİYYATINDA FEMİNİST İDEYALAR

**Hacıyeva Mahirə**
*Azərbaycan Dillər Universiteti,*
*Filologiya üzrə fəlsəfə doktoru*
*mhacieva@hotmail.com*

Spekyulativ janr adı altında ümumiləşdirilən utopiya/distopya, bir qayda olaraq, mükəmməl və pis yer olaraq qəbul edilir. Bədii ədəbiyyatda bu anlayışlar spesifik xüsusiyyətlər daşıyan bədii əsərlərə şamil edilir. Zaman keçdikcə, utopiya ədəbiyyatı distopiya və elmi fantastik bədii ədəbiyyata çevrilmişdir. Mükəmməl və ya pis ərazini, mühiti təsvir edərkən sosial, istisadi, siyasi təsirlər ön plana çəkilir. Lakin, bir sıra yazıçıların diqqət mərkəzində duran əsas məsələ qadının bu cəmiyyətdəki mövqeyi məsələsidir. Buna görə də, ayrıca olaraq feminist utopiyası və ya feminist ditopiyası kateqoriyası fərqləndirilir.

M. Kavedişin elmin yüksək inkişafını təmin etmiş qadınların hökmranlığı altında yaranan "The Blazing World" (1666) utopiyası, S. Skotun "Millenium Hall" (1762) feminist utopiyası, M. Leynin "Mizora" (1880), Ş.Perkinsin bir neçə hissədən ibarət "Herland" (1915) feminist utopiyaları bu qəbildən olan əsərlərdir.

Distopia əsərlərində cəmiyyətin ümumi problemləri qadınlar üçün ikiqat ağırdır. Lakin, M. Piersin "Woman at the Edge of Time" (1976) distopiyası və M. Atvudun distopiya ədəbiyyatının zirvəsi sayılan romanları feminisit distopiyasında əvəzsiz yer tutur. Onlar sosial-siyasi səbəblər üzündən qadın identikliyinin ittihama çevrildiyi distopiya dünyasını bütün rəngləri ilə təsvir edirlər.

Utopiya/distopiya ədəbiyyatı gerçəkliyin problemlərinə əsaslanan paralel və ya gələcək dünyanın təsviridir. Bu əsərlər yazıçı təxəyyülünün, həm də istənilən qədər genişlənən bir təxəyyülün əksidir. Amma, təsvirini tapan problemlər reallıqdan götürülür. Bu mənada, utopiya/distopiya təsvir olunan məsələlərin həlli yollarını müzakirə edir və onların gələcəkdə daha da böyüməsinə əngəl olmağa çağırır.

## AMALI NUR OLAN İNSAN…

**Cümşüdlü Elnarə**
*Həkim-oftalmoloq,*
*Türk Dövlətləri Oftalmoloqları Cəmiyyətinin üzvü*

Zərifə xanım Əliyeva haqqında söhbət açılanda yada ilk olaraq işıq düşür. Təkcə ona görə yox ki, Zərifə xanım həkim kimi gözlərə nur verirdi. Onun yaşadığı ömrün özü bir işıq mücəssəməsidir. Bu işıqdan hamıya pay çatırdı: ailəsinə, övladlarına, əhatəsində olanlara, gözünün nurunu itirmiş insanlara… Dəyərli oftalmoloq alimimiz Zərifə Əliyeva yüzlərlə insana işıq bəxş edib, qaranlıqdan çəkib çıxarıb. O zülmətə qərq olan gözlərə nur verib, köməksizlərə həmdəm olub- əsl insan olub, əsl həkim olub. Zərifə xanım öz peşəsini çox uca tuturdu. Həkimi günəşə bənzədərək deyirdi: “Həkim insanlara günəş qədər lazımdır”. “Hippokrat andı” Zərifə xanım Əliyeva üçün toxunulmaz dəyər olub, o öz peşəsinə ömrü boyu vicdanla yanaşıb. Səmərəli və zəhmətsevər fəaliyyətində əsil insani dəyər olan vicdana, səmimiyyətə böyük önəm verib. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına sərf edib, saysız-hesabsız müalicələri ilə göz xəstəliklərinin qarşısını almağa səy göstərib.

Zərifə Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib.

Fəaliyyəti boyunca onlarla araşdırmaya, elmi məqalələrə imza atan Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb.

Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olub.

Zərifə xanım Azərbaycan tibb elminin tarixində, onun şöhrətlənməsində ləyaqətli yer tutmuş görkəmli alim və mütəxəssislərdən biri idi. Dünya tibb elminə yeni nailiyyətlər bəxş edib akademik adına yüksələn Zərifə xanım Əliyeva dəyərli ziyalı və alim kimi respublikamızın hüdudlarından kənarda da yaxşı tanınmışdı. Onunla birlikdə elmi iş aparanlar onun nailiyyətlərindən, yüksək mədəniyyətindən, nəcib xüsusiyyətlərindən hər zaman iftixarla danışıblar.

Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

# ELM OLİMPİADASINDA ÖLKƏMİZİ TƏMSİL EDƏN QIZLAR

**Ələkbərova Əzizə**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu,*
*böyük elmi işçi*
*aalekberli@mail.ru*

Elmlə məşğul olmaq, alim olmaq əyləncəlidir. Yer üzündə yeni bir məlumatı tapmaqdan və ya dünyada hansısa sahənin dəyişdirilməsinə töhfə verməkdən böyük uğur yoxdur. Kiçik yaşlardan öyrəndiklərinə məsuliyyətlə yanaşıb özünü təkmilləşdirənlər kiminsə yanında özünü aciz görmür, iş tapmaqda çətinlik çəkmir. Xüsusən dəqiq elmlər sayəsində tədqiqatlar, yeniliklər etməyi bacaranları dövlət, kommersiya şirkətləri yüksək əməkhaqqı ilə işə dəvət edirlər. Savadlı əməkdaş axtaran təşkilatlar üçün müəssisəsini yüksəyə qaldıran işçinin cinsiyyəti əhəmiyyət kəsb etmir. On il öncə doktorantura pilləsində oxuyan, yaxud iyirmi il öncə elm olimpiadalarında iştirak edən azərbaycanlı qızları görmək nadir hal idisə, 2022-ci ilin hesabatında beynəlxalq olimpiadalarda azərbaycanlı şagirdlərin ümumi iki qızıl medalı var və onun birini Fidan qazanmışdır. Bu medalı qazanmaqla Fidan Avropa Qızlar Riyaziyyat Olimpiadasında ilk qızıl medal qazanan şagirdimiz olmuşdur.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun 2022-ci il hesabatına görə, həmin ildə beynəlxalq olimpiadada iştirak edən şagirdlərdən 95 nəfərin 24 nəfəri qız, qalib olan 64 nəfərin 14 nəfəri qızdır. İki qız iki fənn üzrə beynəlxalq olimpiadaya qatılmışdır. Fidan Qarayeva informatika və riyaziyyat, Selcan Şəfizadə isə kimya və riyaziyyat fənləri üzrə ölkəmizi təmsil etmişdir. Sevindirici haldır ki, araşdıran, yeni kəşflər etməyin faydasını anlayan qızlarımızın sayı çoxaldıqca cinsiyyətçilik fərqi azalır. Günümüzə qədər "Dünyada ən çox tanınan elm qadınları hansılardır?" sualı ilə axtarış etdikdə Mariya Küri, İren Jolio-Küri, Cennifer Dudna və başqa Nobel mükafatçılarının adına rast gəliriksə, 15 il sonra elm olimpiadasında uğur qazanan Azərbaycan qızlarının da adı dünyada ən çox tanınan elm qadınlarının adı sırasında olacaq.

# CAHİLİYYƏT DÖVRÜNDƏ QADINLAR

**İsmayılova Əzizə**
*AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu,*
*Ərəb filologiyası şöbəsi,*
*elmi işçi,*
*a.ismailova78@mail.ru*

Ərəblərin islamaqədərki Cahiliyyət adlanan dövrünün ədəbi həyatında qadınlar mühüm yer tuturdu. Onlar cahiliyyət ənənəsini qoruyub saxlayaraq döyüşlərdə iştirak edər, həmasə tipli şeirlər söyləræk döyüşçüləri qələbəyə ruhlandırardılar. Ukaz bazarında qurulan ədəbi məclislərdə isə qəbilə üzvlərinin əsil-nəcabəti, şücaət və qəhrəmanlıqları, şərəf və ləyaqətlərini tərənnüm edən şeirlər söyləyər, qarşılıqlı öyünmələr aparardılar.

Belə bir mövqedə olan qadınlardan biri Cahiliyyət adət-ənənəsi ilə davranan Əbu Sufyanın həyat yoldaşı, birinci Əməvi xəlifəsi Müaviyənin anası Hind bint Utbə idi. Onun həyatının bir hissəsi Sədrül-islam dövrünə təsadüf etsə də, o, Cahiliyyət dövrünün milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamışdı. Hind bint Utbə çox hökmlü, təkəbbürlü qadın olmuşdur. O, Ühüd döyüşündə müşriklərin müsəlmanlar üzərində qələbəsinin, bir növ, təminatçısı hesab olunur. Bu döyüşdə müsəlmanlardan xeyli insan qətlə yetirilmiş, peyğəmbərin əmisi Həmzə ibn Əbdül Müttəlib şəhid olmuş, peyğəmbər özü isə çiynindən yaralanmışdı.

Bir məqamı qeyd etmək istərdik ki, Hind bint Utbənin bu döyüşdə başlıca rolu özünün musiqisi və şeirləri ilə müşriklərə güc-qüvvət verməsindən, onları qələbəyə ruhlandırmasından ibarət olmuşdur. Ühüd döyüşünə özü kimi altı nəfər dəf çalan Cahiliyyət qızlarını başına yığaraq cəbhəyə getmiş və orada həmasə tipli nəğmələr oxuyaraq məkkəliləri qələbəyə ruhlandırmışdır.

Cahiliyyət dövrünün digər məşhur qadını ədəbiyyat kitablarında haqqında təfsilatı ilə məqalələr yazılan şairə əl-Xənsadır. O, Züheyr bin Əbi Sulmanın bacısı idi. Şairə əl-Xənsa qəbilələrarası müharibələrdə öldürülən atası Amr bin Şərid və qardaşları Sahr və Müaviyəyə ağılar həsr etmişdir. Məhəmməd peyğəmbərlə görüşüb tanış olduqdan sonra islamı qəbul etmiş və sonrakı həyatını islam ideyalarına xidmətdə keçirmişdir.

Ərəb ədəbiyyatı tarixində əhəmiyyətli rolu olan bu qadınlar öz şücaət və hünərpərvərlikləri ilə Cahiliyyət və Sədrül-islam dövrlərinin ictimaiyyəti arasında şöhrət qazanmışlar.

# GÜNEYİMİZİN DÜNYACA ÜNLÜ FƏRİBA VƏFİSİ

**Nəsirova Fidan**
*AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*nasirova1975@list.ru*

Güney Azərbaycanımızın parlaq isimlərindən biri də türk əsilli Fəriba Vəfidir. 1988-ci ildə "Adinə" dərgisində çap olunan "Rahat oldun, ata" adlı ilk hekayəsi ilə ədəbiyyat aləminə qədəm qoyan yazarın sonralar "Səhnənin dərinliklərində" (1996), "Hətta güldüyümüz vaxtda" (1999) qısa hekayələrdən ibarət topluları oxuculara təqdim olunmuşdur. 2002-ci ildə yayımlanan "Zirzəmi quşu" adlı ilk romanı ədəbi camiədə böyük rezonansa səbəb olmaqla "İlin ən yaxşı romanı" nominasiyası üzrə İranın nüfuzlu ədəbi mükafatı "Golşiri" və "Yəlda"ya layiq görülmüşdür. Əsər qısa müddətdə ingilis, italyan, kürd, alman, türk, Azərbaycan dillərinə tərcümə olunaraq yazarın imzasının dünyada tanınmasına yaşıl işıq yandırır. Məhsuldar yazarın "Tərlan" (2004), yenə "Golşiri" mükafatı ilə təltif olunan "Tibet röyası" (2007), "Dalandakı sirr" (2008), "Ay tamamlanır" (2011), "Sondan sonra" (2014) romanları ədəbi dəyər və mahiyyətinə görə heç də "Zirzəmi quşu"ndan geridə qalmır.

Fəribanın qəhrəmanları real gerçəkliklərdən, həyatın içindən boylanan qadınlardır. O, qadınlardan yazır və qələmə aldıqları ağrısı, acısı, sevinci, hissləri, duyğuları, problemləri ilə onların riya donundan uzaq, real yaşantılarının bədii inikasıdır. Təbii ki, hipnotik gücə, mistik təsir mexazminə malik Fəriba əsərlərinin uğuru yalnız poetik planı, bədii təsvir priyomları ilə, təhkiyəçilik peşəkarlığı ilə məhdudlaşmır, bu sənət nümunələrinin ədəbi-bədii hadisəyə çevrilməsində ideya-tematik seçim, zaman, məkan çərçivələrindən qurtulma, arınma, daxili çırpıntıların incəliklərinə vararaq, qlobal kontekstdə paradoksal, özünəməxsus yanaşma daha önəmli faktora çevrilir. Onun əsərlərinin qəhrəmanları istisnasız cəmiyyətin zərif qisminin hər bir fərdidir və o hamımızdan yazır.

"Zirzəmi quşu" adı özü-özlüyündə cild-cild kitablara sığmayacaq qadın acı həqiqətinin, sosial diskriminasiyasının ən lakonik ifadəsidir. Tanrının ona bəxş etdiyi qanadları sayəsində uçmaq kimi əlahiddə səlahiyyətə sahib quş azadlığı simvolizə edir. Zirzəmi çərçivə, hədd, sərhədlərin, arzulara qoyulan qadağaların göstəricisidir. Azad ruhun daşıyıcısı olan qadın özündən asılı olmayan şərtlərə əsasən zirzəmidə yaşamağa məhkumdur. O, daimi mübarizədə, mücadilədə, axtarışdadır. Ona sırınan, cəmiyyətin istəklərinə uyğun yaşadığı həyat daxili təbəddülatları, düşüncələri, məni ilə ziddiyyət təşkil edir, uçurum yaradır. Fəriba Vəfi yaradıcılığı çağdaş ədəbiyyat tariximizdə paradokslar məngənəsində çırpınan qadın dünyasına tutulan, həqiqəti əks etdirən ən aydın güzgüdür.

# AZƏRBAYCAN VƏ TÜRK ATALAR SÖZLƏRİNDƏ QADIN OBRAZI

**Usubova Gülnisə**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq*
*İnstitutunun kiçik elmi işçisi*
*usubova1992@gmail.com*

Azərbaycan, türk qadını tarixən öz qəhrəmanlığı, qeyrəti, namusu, vətənpərvərliyi, ailəcanlılığı və s. ilə seçilmişdir. Bütün bu xarakterlər ulu babalarımızdan bizə miras qalan atalar sözlərində də öz əksini tapmışdır. Bu məqsədlə də Azərbaycan və türk atalar sözlərinin qadını necə təqdim etməsinə nəzər yetirəcəyik.

Qadınlara dəyər verən atalar sözləri. Bu atalar sözləri ümumiyyətlə qadınları dəyərli, əvəzolunmaz hesab edən və qadınsız bir dünyanın mümkün olmadığını ortaya qoyan atalar sözləridir: "Qadın, erkəyin əşi, evin günəşi; Arvad kişinin qoltuq saatıdır; Arvad yıxılı evin dirəyidir; Arvad ərinin tacıdır; Arvad evin sütunudur; Arvad kişinin qanadıdır; Arvadsız ev – susuz dəyirman; Yaxşı arvatlı ev cənnətdir; Arvaddan yetim qalmaq anadan yetim qalmaqdan betərdir; Evi abad edən arvaddır; Evi ev eden avrat, yurdu şen eden devlet; Yuvayı yapan dişi kuştur; Karısız ev, parasız kese; Bir adamın karısı, o adamın yarısıdır; Kadın erkeğin eşidir, evinin güneşidir; Kadınsız hane, kuşsuz kafese benzer; Ocağın yakışığı odun, evin yakışığı kadın; Başında bez olsun, isterse yaşı yüz olsun; Erkek aslan, dişisinden kuvvet alır; Herkesin karısı, canının yarısı; Arvadsız igid urvatsız olar". Bu atalar sözləri qədim türklərin qadınlara verdiyi dəyəri göstərir.

Qız övlad ilə bağlı atalar sözlərində qız uşaqları zərif, qiymətli, evin yaraşığı hesab olunurlar: "Dünyanın tadı göz, aşın tadı tuz, evin tadı kız; Kıza iki kurban, oğlana bir kurban; Qızlar bir günəşdir, oğlanlarsa ay parçası; Bir qıza qurban olsun doqquz qoca, min qarı; Qız qızıldır, qədrini bilsin gərək; Qızdır qızıldır, oğlan nə çoxdur; Qızsız ana – duzsuz ana; Kızdır nazdır, bin kese azdır; Kız çocuğu, cam tabak; Qız – qızıl alma, qızı gözdən salma; Yiğidin ilki kız gerek, onun da yeri düz gerek; Yeddi fərsiz oğuldan bir fərli qız yaxşıdır; Kız evi, vezir evi; Kız kapısı, sultan kapısı; Oğlan adamı – sındırar badamı, qız adamı – sındırar adamı; Kız bir sevgi ile doğar, bin sevgiye çıkar; oğlan bin sevgi ile doğar, bir sevgiye iner".

# İSA HÜSEYNOV NƏSRİNDƏ QADIN OBRAZI

**Hümmətova (Pəniyeva) Günel**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gunelpeniyeva@mail.ru*

Azərbaycan ədəbiyyatı tarixində İsa Hüseynovun nəsr yaradıcılığı xüsusi yer tutur. Məhz Azərbaycan nəsr tarixində yeni nəsr, yeni nəsil dövrü İsa Hüseynovun adı ilə bağlıdır. 50-ci illər nəsr həyatında keçid dövrü kimi qiymətləndirilən bir zamanda "Bizim qızlar", "Dan ulduzu" əsərlərinin yaranması konfiliktsizlik nəzəriyyəsinin əsası olan "müsbət qəhrəman" ideologiyasını süquta uğratmağa başladı. Belə ki, "Bizim qızlar" və "Dan ulduzu" povestlərinin baş qəhrəmanları olan Minayə və Zərəfşan obrazları ilə yazıçı sovet ideologiyasına qarşı çıxan ilk qəhrəman obrazını yaratmışdır. Q.Xəlilov Minayə surətini "ürəyitəmiz, sadə, qoçaq, prinsipial və təşəbbüskar bir qızdır" kimi qiymətləndirmişdir. "Əgər tənqidçinin dediyi kimi prinsipial bir qız idisə, Minayə niyə sevmədiyi bir oğlanla nişanlanmışdır?" – deyə sual edən tənqidçi Elçin haqlı olaraq irad tutmuşdur. Tənqidçi M.Vəliyevin də müsbət tutduğu xarakterləri sırf işlə bağlıdır. Bəs Minayənin o "nəcibliyi, ürəkliliyi", mərd və şüurluluğu sübuta yetirən digər əməlləri "hanı?", məgər bir insan mənfi və müsbət meyarları onun işi ilə əlaqəlidirmi? Çünki hər hansısa işdə bu qədər inadkar olan bir gənc öz həyatının seçimində kor-koranə valideyn məsləhəti ilə sevmədiyi bir gəncə nişanlanmazdı. Minayənin bu xarakterləri sonradan, əhatəsində olduğu mühitdən, pambıqçılıq tarlalarından, ipəkçilikdəki uğurlarının nəticələrindən yaranmışdır. "Minayə kolxozun daha varlı olması üçün öz inadında davam edir" elə bu fikirə görə də onun həm iş həyatında etdiyi inad uğurla sonlanır, həm də şəxsi həyatda qərarı dəyişir və artıq öz həyatında da köklü dəyişiklik edir. Minayəni "yalnız qoçaq bir manqabaşçısı kimi deyil, azad və təmiz bir məhəbbət arzu edən nəcib bir insan kimi də tanıyır".

# ORTA ƏSR ŞƏRQ XALQLARININ ELM VƏ MƏDƏNİYYƏTİNDƏ QADIN

**Qəniyeva Zəhra**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, kiçik elmi işçi, doktorant*
*zehra.qeniyeva@mail.ru*

Cəmiyyətin bütün tarixi inkişaf dövründə bəşəriyyətin, o cümlədən insanın həyat tərzi onun bilik və bacarıqlarının toplanması ilə bağlıdır. Təhsil sözü yaratmaq, tərbiyələndirmək və praktiki fəaliyyət prosesində təcrübə toplamaq ifadələrini özündə ehtiva edir.

Quran tədqiqatçılarının müsəlman qadınların təhsili haqqında müxtəlif fikirləri mövcuddur: "*Quranda qadınların həyatda fəal yer almaları ilə əlaqəli ən kiçik bir qadağa belə mövcud deyil. Bu tarixi mənbələr araşdırıldığında, hələ o dövrdə müsəlman qadınların sosial həyatda aktiv olduqlarına, təhsil aldıqlarına, müxtəlif sahələrdə çalışdıqlarına dair bir çox hədisin olduğu görülür".*

Bildiyimiz kimi, Qərb-Şərq münasibətlərinin tarixi çox qədimdir. Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Məhsəti Gəncəvinin ədəbiyyat tarixində özünəməxsus yeri vardır. O, XII əsrin məşhur şairəsi, ədəbi şəxsiyyəti, Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilib. Məhsəti Gəncəvi Azərbaycan ədəbiyyatının çiçəkləndiyi bir dövrdə yaradıcılıqla məşğul olub. Öz dövrünün humanist poeziyası ilə yaxından bağlı olduğundan insanı, onun gözəlliyini, istək və arzularını ifadə edib. Şairə həm də dövrünün görkəmli musiqiçisi, Şərqin ilk şahmatçı qadını kimi tanınır.

Müsəlman qadın hökmdarlar içərisində xüsusi diqqət cəlb edən yeganə xanım Misirdə Məmlük sultanlığının ilk hökmdarı Şəcər Üddürdür ("Üd-dür" mirvari ağacı deməkdir). Turan şah öldürüldükdən sonra ordu başçıları və əmirlər yeni hökmdar seçməkdə çox çətinlik çəkirdilər. Uzun məşvərətdən sonra ağıl və kamalına bələd olduqları Şəcər Üddürü səltənət taxtına çıxarmağı qərara aldılar.

Şəcər əyan və əmirlərin çoxuna qiymətli hədiyyələr paylayır, yüksək rütbələr verirdi. Xalqdan alınan ağır vergiləri ləğv etdi, bəzilərini azaltdı. Ölkədə nizam və asayiş bərpa olundu. Tədbirli və mərd sultana xalqın məhəbbəti daha da artdı.

Bu tezisdən çıxan nəticəyə əsasən, insanın həyat yolu bilavasitə təhsillənmə yolu ilə bağlıdır.

# NAZLI NƏCƏFOVANIN (TAHİROVA) NAXÇIVANDA QADIN TƏHSİLİNİN İNKİŞAFINDA ROLU

**Cəlilova Zülfiyyə**
*Milli Azərbaycan Tarixi Muzeyinin*
*kiçik elmi işçisi*
*zulfiyyejalilova@gmail.com*

Naxçıvanda maarifçiliyin formalaşmasında və inkişafında mühüm rol oynayan elm xadimlərindən Nazlı Tahirova 1890-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. Qardaşı Yusif bəyin köməkliyi ilə Bakıya gələrək ilk təhsilini H.Z.Tağıyevin Qızlar Seminariyasında almışdır. 1900-cü ildə seminariyanı əla qiymətlərlə bitirərək İrəvan mahalında yaşayan atası Məmmədhüseyn bəyin yanına gedir və 1909-cu ildə İrəvan Qızlar Seminariyasında ilk müəllimlik fəaliyyətinə başlayır. Müəllimlik etdiyi vaxtlarda bir çox hədələrlə qarşılaşan Nazlı xanım böyük həvəslə elmin sirlərini şagirdlərə çatdırırdı. 1912-ci ildə atası ilə birlikdə Naxçıvan şəhərinə qayıdan Nazlı xanım burada ilk qızlar məktəbinin açılmasına nail olur. Həmin məktəbdə həm müdir, həm də müəllim kimi fəaliyyət göstərir. Siyasi hadisələr səbəbindən məktəbin fəaliyyəti 1917-ci ildə dayandırılsa da, 1920-ci ildə Nazlı xanım Naxçıvan Maarif Komissarlığının nəzdində yaradılan Qızlar məktəbində fəaliyyətə başlayır. 1919-cu ildə Nazlı xanım maarifçi və diplomat Nəcəfqulu Nəcəfovla ailə həyatı qurur. Bundan sonra 1920-1936-cı illərdə Nazlı xanım Naxçıvanda 1 nömrəli orta məktəbin müdiri və müəllimi kimi fəaliyyətini davam etdirir. Həyat yoldaşı Nəcəfqulu Nəcəfov 1937-ci ildə güllələndikdən sonra Nazlı xanım Naxçıvanda beynəlmiləl orta məktəbdə rus dili fənnini tədris edirdi. Ölkədə baş verən repressiya hadisələri Nazlı xanımdan da yan keçməmiş və 1942-ci ildə həbs edilərək Qazaxıstana sürgünə göndərilmişdir. Sürgündə olduğu dövrdə də Pavlodar şəhər məktəbində ibtidai siniflərə rus dilini tədris etmişdir. O özünün günahsız olduğunu dəfələrlə İ.V.Stalinə və M.C.Bağırova yazdığı məktublarda bildirmiş və nəhayət onun vətəni Naxçıvana qayıtmasına icazə verilmişdir.

Onun sürgün həyatı bununla bitməmiş, 1949-1954-cü illərdə yenidən Göyçaya sürgün edilmişdir. Stalinin ölümündən sonra bəraət qazanan Nazlı xanım yenidən Naxçıvana qayıtmış və ömrünün sonuna qədər burada maarifçiliklə məşğul olmuşdur. Nazlı xanıma aid olan materiallar Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır və təbliğ olunur.

# FÜZULİNİN YARADICILIĞINDA LEYLİNİN POETİK OBRAZI

**İsmayılzadə Cahan**
*AMEA akad. Ziya Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun magistrantı*

“Leyli və Məcnun” Yaxın Şərq xalqlarının folklorunda geniş yer alan dastandır. Bu dastanın nə zaman yazıldığı, tarixi barəsində iki fikir mövcud olmuşdur. Birinci fikrə görə, bu dastan haqqındakı rəvayətlər 7-ci əsrdə Ərəbistanda yaranmışdır. Bu barədə sovet alimləri İ. J. Kraçkovski və J. E. Bertels ətraflı məlumat vermişdir. İkinci fikir isə “Leyli və Məcnun” dastanının ərəblərdən də əvvəl asurilərə aid olduğu haqqındadır. “Leyli və Məcnun” dastanının xalq variantına nəzər yetirdikdə belə bir fikir yaranır ki, dastan qədim şumerlərin “Gilqamış” dastanının keçdiyi inkişaf yolunu keçmişdir. Ehtimal olunur ki, ərəblər “Leyli və Məcnun” dastanının süjetini Şərq xalqlarından götürmüşdülər. 7-ci əsrdə ərəb şairlərinin dilində dolanan dastana yeni süjetlər, əhvalatlar əlavə olunmuş və ərəb folkloruna uyğunlaşdırılmışdır.

Nizamiyə qədər “Leyli və Məcnun” haqqında xəbər verən çoxlu qaynaqlar var. Nizami Gəncəvi məsnəvilərini yazarkən bir çox yazılı qaynaqlara və xalq ədəbiyyatı nümunələrinə müraciət etmişdir. Bu yazılı qaynaqların içərisində ərəbdilli qaynaqlar da var. Nizami Gəncəvi elə “Leyli və Məcnun” məsnəvisini Əbul-Fərəc əl-İsfahaninin “Kitab əl-Əğani” və Əbu Bəkr əl-Vahibinin “Əxbar əl-Məcnun va aş’aruhu” əsərləri əsasında yazmışdır. Nizami Leylinin gözəlliyini romantik şəkildə ifadə etsə də, onun bədbəxtliyini real şəkildə ifadə edir. Leyli qəbiləsinin simasında canlandırılan cəmiyyətin köhnə adət-ənənənin əsiri olub. Leyli evdə dustaq edilir və nəcib hisslərini cilovlamaq tələb olunur. Lakin o, azad həyat sürmək istəyir. Onun bu istəyi reallaşmır, əksinə tamamilə yad biri ilə evləndirilir.

Bəs illər sonra Füzulinin “Leyli və Məcnun” mövzusunu qələmə alma səbəbi nə idi? Füzuli yaşadığı dövrün feodal münasibətlərini, çirkin ənənələrini tənqid etmək üçün yazmışdır. O, Məcnunun timsalında azad məhəbbət haqqında danışır. Leylinin vasitəsilə qadın hüquqsuzluğunu tənqid edir. Füzuli nəinki əsəri orijinal şəkildə inkişaf etdirmiş, həm də xalq ədəbiyyatı, dastanların xüsusiyyətlərini də əlavə edərək təkmilləşdirmişdir. Füzulinin “Leyli və Məcnun” əsərində tamamlanmış obraz Leylidir. Öz kölə həyatını dərk edib ona qarşı çıxan, lakin öz məhəbbətinə sadiq olan Leyli Füzulinin arzuladığı qadın obrazıdır.

# EKZİSTENSİAL BACARIQLARIN FORMALAŞDIRILMASI VƏ QADINLARIN TƏHSİLİNİN ÖNƏMİ

**Rüstəmova Xədicə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, dissertant*

Qadınların təhsili məsələsi universal təcrübədir: yaşından, sosial sinfindən, etnik mənsubiyyətindən, sosial qrupundan asılı olmayaraq bütün təhsil alanlara aiddir. Dünyada 118,5 milyon qızın məktəbə getmədiyini, bunun oxuya bilməyən yetkinlərin üçdə iki hissəsini təşkil etdiyini nəzərə alsaq, məsələnin əhəmiyyətini anlaya bilərik. Təhsilin əsas ekzistensial funksiyaları – özünü təkmilləşdirmə, mədəni dünyagörüşü ilə uyğunlaşma, fərddaxili və fərdlərarası münasibətlərin gücləndirilməsidir. Bu funksiyalardan birinin və ya bir neçəsinin uğurla reallaşdırılması cəmiyyətə müsbət təsir edir.

Təhsilin "ekzistensial" məqsədləri kurrikulumun "məzmunundan" qaynaqlandığından həyatın çətinliklərini, qeyri-müəyyənliklərini araşdırmaq məqsədi daşıyır və fənn kurrikulumun hazırlanmasında subyektiv/obyektiv, daxili/xarici, ya/yaxud əsaslandırmasında "qütblülüyün" aradan qaldırılmasını təklif edir.

Ekzistensializm baxımından qadınların qayğıları ilə bağlı üç baxış inkişaf etdirilir:

1) qadınlar obyekt deyil, subyektdir;
2) azad və məsuliyyətlidir;
3) fəaliyyətlərində məna axtarır.

Qadının inkişafını məhdudlaşdıran sosial şərtlər fəlsəfi fərziyyələr, dəyərlər və inancların təhrifindən qaynaqlandığından, dəyişiklik məqsədilə irəli sürülən texnika və strategiyalar fəlsəfi baxımdan əsaslandırılmalıdır. Alman filosofu Hegel insan təbiəti ilə təhsil arasında ziddiyyəti belə qiymətləndirirdi: "İnsan yalnız təhsil və nizam-intizamla bütünləşə bilər".

Dövlətçilik tariximizdə ilk respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququnu İstiqlal Bəyannaməsində bəyan etdi. Cümhuriyyət dövründə 4 qadın gimnaziyası (Bakı, Gəncə, Lənkəran, Nuxada), 3 Müqəddəs Nina qız tədris müəssisəsinin (Bakı, Gəncə, Nuxada) fəaliyyət göstərməsi təhsilli xanımların dövlət və ictimai həyatda tamhüquqlu tərəfdaş olaraq iştirakını təmin etdi.

1995-ci il sentyabrın 4-15-də Pekində keçirilən Qadınların Dördüncü Ümumdünya Konfransından sonra əksər ölkələr gender məsələlərinə daha həssas yanaşmaq üçün aşağıdakı addımları atmışlar:

1. Davamlı təlim və təhsilə şərait yaradılması;
2. Dərsliklərin dəyişdirilməsi;
3. Qızların xeyrinə ibtidai səviyyədən savadlılıq proqramlarına və məktəb kurrikulumlarına sağlamlıq və qidalanma təlimlərinin daxil edilməsi;
4. Gənc qızları iş yerində qorumaq məqsədilə:

a) İşə qəbul üçün minimum yaşın müəyyənləşdirilməsi;
b) İş şəraitinin ciddi monitorinqi (iş vaxtına hörmət, qanunvericiliklə nəzərdə tutulmayan uşaqların işləməsinə qadağa qoyulması, gigiyena və sağlamlıq şəraitinə nəzarət);
c) Sosial sığorta təminatının tətbiqi və s.

Konfransda iştirak edən Azərbaycan Respublikası Nümayəndə heyəti ölkəmizdə sülhü və paralel olaraq qadınların təhsilini təhdid edən məsələləri vurğulayaraq beynəlxalq tribunadan haqq səsimizi səsləndirmişdir. Müstəqilliyimizin bərpasından sonra bu sahədə reallaşdırılan islahatlar ölkədə qadınların təhsil alaraq ixtisaslaşdıqları sahədə iştirakına imkan yaratmışdır. Bu gün qadınlar Azərbaycan cəmiyyətinin bütün sahələrində fəaliyyət göstərir və heç bir formada onların hüquqları məhdudlaşdırılmır.

## AZƏRBAYCANIN ELM VƏ TƏHSİL TARİXİNDƏ QADIN FENOMENİ

**Həcəmova Zeynəb**
*AMEA Rəyasət Heyəti aparatının vitse-prezidentlərin xidmətində baş mütəxəssis*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı*
*hecemova7@gmail.com*

Bəşər sivilizasiyasına bənzərsiz töhfələr vermiş Azərbaycan xalqı həm də zəngin təhsil və maarifçilik ənənələri ilə seçilən milli mentalitetimizdə qadına yüksək münasibətilə fərqlənmişdir. Azərbaycan xalqının milli adət-ənənələrinin əsas mənbəyi sayılan "Kitabi-Dədə Qorqud" dastanında qədim azərbaycanlıların qadına, anaya münasibəti "Ana haqqı – Tanrı haqqıdır" milli modeli müstəvisində qurulmuşdur.

Son iki min ilin XIX əsrindən başlanan 1100 illik dövrdə müsəlman dünyasında qadınların maarifçilik hərəkatında fəal iştirakı danılmaz fakt kimi nəzərə çarpır. XIX əsrin 50-ci illərində Fatma Əsədbəy, Xədicə Haqverdiyeva, general-leytenant İbrahim xan Talışinskinin qızı Gövhər Ağa, Bikə Qutqaşenskaya, Balaxanım Xandəmirova müsəlman qızları arasında maarifçilik hərəkatının təşəbbüsçüləri və liderləri olmuşlar.

1874-cü ildə Azərbaycanda ilk qadın gimnaziyası açılmışdır. XIX əsrdə Azərbaycanda "Qadın Rus-Müsəlman Pedaqoji Məktəbi" açılmışdır. Zaqafqaziyada məşhur olan "Müqəddəs Nina" cəmiyyətinin Azərbaycanda eyniadlı qadın təhsil idarəsinin əsası qoyulmuşdur. 1910-cu ildə isə Tiflisdə qadın müsəlmanların "Qafqaz Xeyriyyə Cəmiyyəti" yaradılmışdır.

XX əsrdə Azərbaycan qadınının həyatında çox əlamətdar bir mərhələ olmuşdur. Belə ki, 1918-ci ildə Azərbaycan qadınlarına seçki hüququ, 1918-1920-ci illərdə isə ana dilində təhsil almaq imkanı verilmişdir.

XX əsrdə Azərbaycanda müxtəlif elm sahələrində fəaliyyət göstərən alim qadınlarımızdan danışarkən, ilk növbədə, akademik Zərifə Əliyevanın adını çəkmək zəruri xarakter daşıyır. Azərbaycanda oftalmologiya elminin inkişafına verdiyi misilsiz töhfələrə görə akademik Zərifə Əliyeva ilk qadın alim olaraq oftalmologiya aləmində ən yüksək mükafat olan "SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı"na layiq görülmüşdür.

XX əsrdə Azərbaycanda demokratik və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən qadınlar sırasında Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru və Şərq-Qərb ədəbi əlaqələrini sistemli şəkildə araşdıran ilk azərbaycanlı qadın alim professor Aida İmanquliyeva da olmuşdur.

Azərbaycanın ziyalı qadınları mövzusunda fikir bildirərkən ölkənin birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın vitse-prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi

Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri akademik Nərgiz Paşayevanın fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Qeyd edək ki, hal-hazırda Azərbaycanda elm və təhsilin ən ali və qədim məbədi olan AMEA-da fəaliyyət göstərən yüzlərlə qadın alim vardır.

Ölkədə qadınların elm və təhsilə cəlb edilməsinin əsas məqsədi Azərbaycanda öz milli-mənəvi köklərinə sadiq, vətənpərvər və müasir düşüncəli insan cəmiyyəti formalaşdırmaqdan ibarətdir. Qadın ilk öncə anadır. Ana isə öz Vətəninin keşiyini çəkən, zəruri olduqda torpaq uğrunda qəhrəmancasına canından keçməyə hazır olan Azərbaycan əsgərini tərbiyə edir. Təhsilli qadın – firavan gələcək deməkdir. Mövzu ilə əlaqədar fikirlərimi dahi Azərbaycan yazıçısı və mütəfəkkiri Hüseyn Cavidin unudulmaz misraları ilə tamamlamaq istərdim:

**“Qadın gülərsə şu issız mühitimiz güləcək**
**Sürüklənən bəşəriyyət qadınla yüksələcək!”**

# ƏRƏB ƏDƏBİYYATINDA QADIN MAARİFÇİLƏR

**Hüseynova Vüsalə**
*Azərbaycan Kooperasiya Universitetinin*
*İngilis dili kafedrasının baş müəllimi*
*l_b-lale@hotmail.com*

Maarifçilik feodal münasibətlərindən kapitalizmə keçid dövründə yaranmış inkişafyönümlü hərəkatdır. Qərb ölkələrində maarifçilik hərəkatı XVII-XVIII əsrlərdə, müsəlman ölkələrində isə nisbətən gec dövrdə – XIX əsrdə baş vermişdir. Ərəb ölkələrində isə maarifçilik hərəkatı XIX əsrin əvvəllərində yaranmağa başlamışdır. Ərəb maarifçilik hərəkatının Məhəmməd Əbdoh, Qasim Əmin, Əbdürrəhman əl-Kəvakibi kimi mütəfəkkirləri olmuşdur. Maarifçilik hərəkatının əsas problemlərindən biri qadın azadlığı problemi idi. Bu baxımdan qadın maarifçilər meydana çıxdılar. Onlar islami modernizə yolu tutub bu yolda geniş fəaliyyətə başladılar. Qadın maarifçilərdən Meyy Ziyadənin, Varda əl-Yazicini Mələk Hifni Nasifin, Ləbibə Haşimin, Maryana Mərraşının, Nəbəviyyə Musanın rolunu xüsusi qeyd etmək yerinə düşərdi.

Bu qadın maarifçilərin hər biri xalqına istər publisist, istər şair, yazıçı, istərsə də tərcüməçi kimi maarifləndirmə istiqamətində xidmət göstərir. Suriyada məşhur Yazicilər ailəsindən çıxmış, Misir və Suriyanın ədəbi dairələrində bir şairə kimi tanınmış Varda əl-Yazicini (1838-1924), ilk dəfə mətbuatda publisistik məqalələri ilə çıxış etmiş Maryana Mərraşı (1848-1922) misal gətirmək olar. Misirdə məşhur Teymurlar ailəsinə mənsub Aişə Teymur həm ədib, həm də publisist kimi tanınmışdı. Misirin qadın maarifçiləri arasında Nəbəviyyə Musanın (1886-1951) adını xüsusi qeyd etmək yerinə düşərdi. O, bakalavr dərəcəsi almış ilk misirli qadındır. Nəbəviyyə Musa Misir qadınlarının problemlərinə dair mövzularla bir sıra beynəlxalq forumlarda iştirak etmişdir. Digər misirli qadın maarifçi, əsl adı Məryəm Ziyadə olan Meyy (1895-1941) həm şair, həm yazıçı, həm də publisist kimi tanınmışdır.

Bir sözlə, XIX əsrdə ərəb ədəbiyyatında qadın sənətkarların meydana çıxması qadın problemlərinin bir çoxunun Şərq dünyasında həll edilməsində xüsusi əhəmiyyət kəsb etmişdir.

# ORTA MƏKTƏBLƏRDƏ GENDER SOSİALLAŞMASI

**Nəzərova Xalidə**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*elmi işçi*

Son illərdə Azərbaycan Respublikasında qadınların sosial funksiyalarında, sosial fəaliyyət formalarında müsbət anlamda xeyli dəyişmə və yeniləşmələrin baş verdiyi danılmaz bir gerçəkdir. Bu gün ölkəmizdə qadın problemləri ilə məşğul olan onlarla struktur və qeyri-hökumət qadın təşkilatları rəsmi şəkildə fəaliyyət göstərməkdədir. Müasir cəmiyyətin bütövlükdə və onun ayrı-ayrı institutlarının hərtərəfli inkişafı təhsil sisteminin inkişafı olmadan mümkün deyil. Təhsil irəliləyişin, gözəl gələcəyin təminatıdır.

Təhsil müəssisələrində gender probleminə öncə iki nöqtədən yanaşmaq lazımdır. Birincisi, təhsil sisteminin özündə, pedaqoji metodologiyada gender bərabərliyinə nail olmaq, ikincisi isə təhsil müəssisələrində gender tədrisinin, gender təhsilinin tətbiqidir.

Təhsil müəssisələrində ənənəvi gender normaları, sosial və mədəni stereotiplər təlqin edilir və dəstəklənir, nəticədə gender şüuru formalaşdırılır. Beləliklə, bu müəssisələrdə "əsl kişi" və "əsl qadın" xarakteristikalarına assimmetrik xarakteristikaya əsaslanan gender şüurunun sosial yenidən istehsalı baş verir. Bu isə gender assimmetriyasının, gender bərabərsizliyinin aradan qaldırılmasının qarşısını alır. Bütün bunlar yeni pedaqogika metodologiyasının (zamanla ayaqlaşan) təhsil prinsiplərinin tətbiqini qaçılmaz edir. Bildiyimiz kimi, gender, gender bərabərliyi yeni dünyagörüşü, yeni düşüncə tərzi deməkdir, ənənələrin yenidən dərki deməkdir. Milli özünəməxsusluğu, şəraiti nəzərə almaqla hər bir cinsin – kişi və qadının özünəməxsus stereotiplərinə, davranış formalarına həssaslıqla, ümumiyyətlə, baza dəyərlərinə hörmətlə yanaşaraq təhsil müəssisələrində səmərəli şəkildə genderin təbliğatını aparmaq, əlverişli metodları, üsul və qaydaları tətbiq edərək təhsilin genderləşməsini həyata keçirmək lazımdır.

# NECATİ CUMALININ HEKAYƏLƏRİNDƏ QADIN PROBLEMİ

**Xəlilova Emiliya**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun elmi işçisi*

Qırxıncı illərin əvvəllərində ədəbi yaradıcılığa şair kimi başlayan N.Cumalı (1921-2001) bir neçə şeirlər kitabının müəllifi olmaqla yanaşı, roman, povest, hekayə, dram əsərləri və publisist məqalələri ilə bugünkü türk ədəbiyyatında layiqli yerlərdən birini tutur.

Müəllif ilk hekayə kitablarında ("Yalnız kadın", "Değişik gözle") öz gənclik illərini, sevgilərini, eşq macəralarını, xatirələrini, müşahidələrini qələmə almışsa, sonralar yazdığı "Susuz yaz" (1962) kitabındakı hekayələrdə ictimai problemlər ön plana çəkilmiş, o dövrdəki Qərbi Anadolu kəndinin ümumi vəziyyəti, kəndlilərin ictimai-iqtisadi dərdləri, torpaq və susuzluq problemləri ("Susuz yaz"), gerilik və cəhalət, qız qaçırma ("Öç"), qadın hüquqsuzluğu, qadına feodal münasibət ("Gülsüm kıza agit") kimi aktual məsələlər obyektiv olaraq öz əksini tapmışdır.

N.Cumalı bütün Anadolu kənd və qəsəbələri üçün xarakterik olan ciddi problemləri bütün açıqlığı ilə göstərməkdən çəkinməmiş, cəmiyyətin ən aktual məsələlərini daha fəal surətdə əks etdirməyə çalışmışdır.

Müəllif "Ay büyürken uyuyamam" (1969, 1971) adlı kitabındakı hekayələrdə sırf ailə-məişət məsələlərinə toxunmuş, feodal qayda-qanunlarının hökm sürdüyü kəndlərdə ailə-məişət məsələsini, qadın hüquqsuzluğunu, kişi-qadın münasibətlərini realist qələmi ilə işıqlandırmışdır.

Onun cəmiyyət içindən üzə çıxardığı açıq səhnələr deyil, əsl problemlərdir.

N.Cumalının bu hekayələrdə toxunduğu əsas problemlər bunlardır:

1) Həyat yoldaşını itirərək tək-tənha, çarəsiz qalmış qadınların psixoloji vəziyyətləri, qadın düşkünü olan kişilərin qadınlara olan pis niyyətləri;

2) İşsizlik problemi. İş axtarmağa gedən kişilərin kənddə qalan ailələrinin maddi və mənəvi cəhətdən ağır vəziyyətləri, kənddəki kişilərin qadına alçaq gözlə, bir əşya kimi baxıb onları əxlaqsızlığa təhrik etmələri;

3) Qadınların sevib-sevilməkdən məhrum olmaları, qadını öz sevdiyi şəxsdən ayırıb zorla yaşlı adama ərə verilməsi və sevmədən onunla ömür boyu birlikdə yaşamaq məcburiyyətində qalması;

4) Anadolu üçün səciyyəvi olan ictimai bəlalardan biri də kişinin öz qadını üstünə günü gətirməsi və qadının keçirdiyi psixoloji vəziyyəti, daxili iztirabları;

5) Tüfeyli həyat sürən kişilərin hər ağır işdə qadınları işlətməsi, ictimai, iqtisadi sahələrdə ağır yükün əsas qadınların çiyinlərində olması.

N.Cumalının yaratdığı bu obrazlar müxtəlif olsa da, onların əksəriyyətinin taleyi bir-birinə bənzəyir.

Artıq öz hüquqsuzluqlarını başa düşən, ailədə heç bir kişi-qadın münasibəti görməyən, öz etirazlarını bildirmək istəyən qadınlar yeganə çarəni öz ərlərinə xəyanət etməkdə, aldatmaqda görürlər.

# TÜRK TARİXİNDƏ QADIN

**Dadaşova Arzu**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*Türk Filologiyası şöbəsinin kiçik elmi işçisi*
*d.arzu@bk.ru*

Bəşəriyyət yaranandan onun mühüm hissəsi olan qadın ta qədim zamanlardan tarix səhnəsində öz varlığını davam etdirmişdir. Digər cəmiyyətlərdə olduğu kimi, türklərdə də qadın cəmiyyətin vacib ünsürü kimi qarşımıza çıxır. Türk tarixində qadının cəmiyyətdəki yeri, rolu, vəzifəsi yaşanan tarixi dövrə və mədəniyyət dairəsinə görə müxtəliflik göstərir.

İslamdan əvvəlki dövrdə köçəri həyat keçirən bozqır mədəniyyətinə sahib türklərdə qadın kişilərlə bərabər hüquqlara sahib olmuş, hökmdar, şair, təbib, kahin kimi vəzifələri tutmuşdur.

Zamanla oturaq həyata keçən, islam dini və mədəniyyətini qəbul edən türk cəmiyyətində yavaş-yavaş qadınların sosial həyatdakı rolu passivləşmişdir. Mədəniyyət dəyişikliyi ilə türk qadınının cəmiyyətdə bir çox haqq və statuslarının itirilməsi Osmanlının son dövrlərinə təsadüf edir.

Türk cəmiyyətində qadının yeri və rolunu əlimizə gəlib çatan şifahi və yazılı ədəbiyyat nümunələri əsasında öyrənmək mümkündür. Qədim türklərdə qadının cəmiyyətdə yüksək mövqe tutduğunu türk dastanlarında da görmək mümkündür. Türklərin yaradılış haqqında ən qədim inanclarına görə, Tanrı Kayra xana kainatın yaradılması fikrini verən "Ak Ana" adlı gözəl bir qadın xəyalıdır. Yenə "Oğuz xaqan" dastanındakı Oğuzun anası işıqdan törəmiş müqəddəs varlıqlar olaraq göstərilmişdir. Yazılı ədəbiyyatın ən vacib nümunələrindən sayılan Orxon abidələrində, Dədə Qorqud hekayələrində də türk qadını igid, cəsur, qorxmaz təsvir olunmuş və qadına verilən dəyərin yüksək olduğu görülür. Türk qadını Qaraxanlı, Səlcuq və Osmanlı dövründə də qismən də olsa, siyasi, ictimai, hüquqi mövqelərini qoruyub saxlamışdır. Tənzimatla birgə Osmanlının dağılmasının qarşısını almaq üçün müasirləşmə mərhələsinin başlanması cəmiyyətdə qadının rolunu dəyişir. Türk qadının cəmiyyətdə rolunun dəyişməsində A.Mithat, N.Kamal kimi yazıçı və ziyalıların da rolu böyükdür.

# TÜRK VƏ QAQAUZ DİLLƏRİNDƏ "QADIN" KONSEPTİ

**Mirzəyeva Aygül**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu,*
*dissertant*
*mirzeli89@mail.ru*

Oğuz qrupu türk dilləri içərisində türk və qaqauz dilləri dil xüsusiyyətləri baxımından bir-birinə daha yaxındır. Eyni kökdən bəslənən bu dillərdə oxşar və ya eyni atalar sözlərinin olması, eyni zamanda xalqların mədəniyyətinin də bənzərliyindən xəbər verir. Lakin zaman keçdikcə fərqli coğrafi məkanlarda fərqli millətlərlə qaynayıb-qarışan, fərqli dinlərə sitayiş edən Türkiyə türkləri və qaqauz türklərinin özünəməxsus dünygörüşü formalaşmış, bu da dildə öz əksini tapmışdır.

Hər hansı bir xalqın mədəniyyətinin öyrənilməsində onun qadına münasibətinin öyrənilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, qadına münasibət cəmiyyətin dünyagörüşünü təzahür etdirən vacib elementdir. Qadın konseptinin atalar sözləri və məsəllər fonunda öyrənilməsi nəticəsində xalq təfəkküründə formalaşmış qadın portreti üzə çıxır. Əsasən universal xarakter daşısa da, hər bir xalqın dünyagörüşündə özünəməxsus məna çalarları qazanmışdır. Qadın konseptinin iki dildə (türk və qaqauz dillərində) müqayisəli şəkildə öyrənilməsi:

1) göstərilən xalqların qadına münasibətinin spesifik tərəflərini meydana çıxarır;
2) cəmiyyətdə qadınla bağlı formalaşmış stereotiplərin açılmasını təmin edir;
3) milli mentalitetlər arasındakı oxşar və fərqli məqamları müəyyənləşdirməyə kömək edir;
4) dil vahidi vasitəsilə reprezentasiya olunan mədəni informasiyaların qarşılaşdırılmasına imkan yaradır.

Həm türk, həm də qaqauz dilin materialları əsasında deyə bilərik ki, kişinin – ərin qadının həyatındakı yeri olduqca qabardılır. Eyni zamanda qaqauzlara nisbətən türk cəmiyyətində qadının daha çox dəyər gördüyünü də qeyd etməliyik.

# DİLBAZİ QADINLARI

**Bayramova Ülviyyə**
*Bakı Dövlət Universiteti Qazax filialının müəllimi,*
*Bakı Dövlət Universitetinin doktorantı*
*bayramova.ulviyya@inbox.ru*

Dilbazilər soyadı Nadir şahla bağlıdır. Dilbazoğulları sırf türkəsilli olmaqla, mənşələri Qaray/Qaraylı/Qaraman adı ilə tarixi qaynaqlarda qeyd olunan, XVI yüzilin sonlarında Səfəvi-Osmanlı müharibəsinin başlanmasına qədər Qazax bölgəsində böyük kütlə halında yaşamış çoxsaylı tayfa ilə bağlanır. Həmin müharibə əsnasında Qarayların çoxu bu diyardan Səfəvilər İmperiyasının iç vilayətlərinə köçüb getmişlərsə də, müəyyən hissə əski yurdlarında qalmış, yaxud sonra yenidən qayıdıb gəlmişlər. Dilbazoğullarının söykökü Qazax mahalının Xanlıqlar kəndi ilə lokallaşır. Bu kənd onların nəsillikcə tarixi yurd yerləri olmuş, burada artıb-çoxalmış və yalnız buradan başqa məntəqələrə yayılmışlar. Soykökün keçmişi ilə bağlı rəvayətlərə söykənsək, onların öncəki adı Xanoğulları olmuşdur. Dilbazilər onlara XVIII yüzilin birinci yarısında verilmiş addır. Nəslin ulu əcdadı Allahyarbəy Qaraylı (XVII yüzil) savadlı, qoçaq bir adam kimi xatırlanır.

F. Köçərlinin "Azərbaycan ədəbiyyatı" kitabında Əbdürrəhman ağa, Hacı Rəhim ağa Vəhidi, ana tərəfi Dilbazilər olan Kazım ağa Salik, Mustafa ağa Arif (Azərbaycan mühacirət ədəbiyyatının ilk nümayəndələrindən biri) haqqında məlumat qələmə alınıb. Xalq şairi Mirvarid Dilbazi 1994-cü ildə çap olunmuş "Bənövşələr üstə göz yaşları" xatirələr kitabında yazıb: "17, 18 və 19-cu yüzilliklərin axırına qədər nəslimiz ziyalı-mülkədar nəsli təmsil etmişdir. Sinfi mənsubiyyətlərinə görə, rast gəldikləri məhrumiyyətlərə, maneələrə baxmayaraq, nəslimizdən üç kənd təsərrüfatı elmləri namizədi — Hacı Dilbazi, Xanım Dilbazi (millət vəkili Arif Rəhimzadənin anası), Rəşid Osman ağa oğlu Dilbazi kənd təsərrüfatı elmləri namizədi (1930, iyul), tibb elmləri doktoru Nəcməddin Hacıyev (Dilbazi), bir xalq artisti — - Əminə Dilbazi, ömürlərini xalq maarifinə həsr etmiş iki qocaman pedaqoq: Vəli Dilbazi, "Məhəbbət qocalmır", "Ağ yasəmənlər" povestlərinin müəllifi Yaqut Dilbazi çıxmışdır. Bunların da hərəsinin faciəli bir həyatı olmuşdur".

# “MİN BİR GECƏ” NAĞILLARINDA İBRƏTAMİZ QADIN OBRAZI – ŞƏHRİZAD

**Şərifli Gülnar**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*magistrantı*
*gulnarserifl@gmail.com*

Xalq yaradıcılığının bariz nümunəsi olan “Min bir gecə” nağılları yalnız yarandığı Şərq xalqlarının deyil, bəşəriyyətin sahib olduğu ən qiymətli abidələrdən birdir. Əsrlər keçsə də, daim orijinallığını qorumuş, bütün tarixi dövrlərdə insanlara gərəkli olan ibrətamiz, əxlaqi-tərbiyəvi səciyyə daşımışdır.

“Min bir gecə” xalqın güzəranını, məişətini, ictimai həyatını, dünyagörüşünü, özündə əks etdirən nağıllar, hekayələr, təmsillərdən ibarətdir.

Əsərin başlıca qadın qəhrəmanı Şəhriyar şahın vəzirinin qızı Şəhrizaddır. Şəhriyar şahın şəxsi həyatında yaşadığı xoşagəlməz hadisələri öz dünyagörüşündə ümumiləşdirməsi ilə əsərdə konfiliktlər yaranır.

Xəyanətə uğramış şah bütün qadınlara nifrət edir və hər gün bir qızla gecələyib səhər edam etdirir. Şəhrizad da bu qadınlardan biridir və onu edam gözləyir. Lakin bu yerdə hadisələr fərqli şəkildə cərəyan edir. Şəhrizad öz ağıllı qadın zəkası ilə digərlərindən fərqlənir. O, bir-birindən maraqlı nağıllar, həyati hekayələr ilə şahın düşüncəsinə təsir etməyi bacarır.

Qəzəb, kin nümunəsi olan Şəhriyar şah ağılı təmsil edən Şəhrizadı əsir edərkən özü onun əsirinə çevirilir. Şah onun sayəsində səbirsizliyini, yanlışlarını görməyi, həyata daha böyük pəncərədən baxmağı öyrənir.

Şəhrizad, həmçinin öz əxlaqı, xanımlığı sayəsində tək öz həyatını deyil, özündən sonra edama məhkum olacaq qadınların həyatını xilas edir.

Beləliklə, əsərdəki nağılların müəllifinə çevrilən Şəhrizad şaha təsir edərək onu dəyişdirir və oxucuya qadın gücünü, zəkasını göstərmiş olur. Bundan başqa o, cəmiyyətdə Şərq qadınının nəcib, ali insani keyfiyyətlərin, peşəkarlığın, kamilliyin, dərin intellektin, tərbiyənin daşıyıcısı, bariz nümunəsidir.

Bir sözlə, Şəhrizad nəinki ərəb dünyasının, eləcə də ümumi Şərq dünyasının mənəvi dəyərlərinin əks olunduğu epik obrazıdır. Qadının cəmiyyətin dayağı olduğunu və bütün dövrlərdə xüsusi rolunu Şəhrizad obrazı ilə aydın şəkildə dərk etmək mümkündür.

## HARUKİ MURAKAMİ YARADICILIĞINDA QADIN OBRAZLARI

**Yunusova Gülnar**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*gulnar1340@gmail.com*

Çağdaş yapon ədəbiyyatının görkəmli nümayəndəsi Haruki Murakaminin postmodern nəsrinin əsası II Dünya müharibəsindən sonrakı ağır məğlubiyyətin yapon cəmiyyətinin ictimai yaddaşının və kimliyinin formalaşmasında dönüş nöqtəsi olması, o zamana kimi qəbul edilmiş dəyərlərin mənasını itirməsi, sürətli iqtisadi inkişaf göstərməklə bərabər, istehlakçı cəmiyyətə çevrilməsi, kapitalist dünya iqtisadiyyatının təsiri ilə fərdlərin yaşadıqları cəmiyyətə aid olma hissinin zamanla zəifləməsi, özünə və cəmiyyətə yadlaşma, real dünyadan təcrid olunma kimi problemlərlə əhatə olunmuşdur. Yazıçının əsərlərində kişi və qadın obrazlarının cəmiyyətin onları məcbur etdiyi bəzi rolları rədd edərək onlardan gözlənilən hərəkətləri yerinə yetirməməklə sözügedən nizamın gedişinə qarşı çıxdıqları müşahidə edilir. H.Murakami yaradıcılığında qadınlar, bir növ, kahin kimi çıxış edirlər. Onlar bir çox məsələlərin gerçəkləşməsində mühüm rol oynayırlar. Maraqlı məqam ondan ibarətdir ki, gələcəyin müjdəçisi olan bu qadınlar baş qəhrəman onları axtarmadan özləri gəlib baş qəhrəmanı tapırlar, böyük bir boşluğun içində tənha qalmış qəhrəmanların yol göstərəni qeyri-adi xüsusiyyətlərə sahib qadınlar olur. Murakami romanlarında, əsasən, iki qadın tipinə təsadüf olunur. Yazıçının iki zidd qadın obrazı təsvir etməsi və qəhrəmanın onlara olan münasibətini göstərməsi, əslində, qəhrəmanın seçiminə xidmət məqsədi daşıyır. Con Reyin qeyd etdiyi kimi, H.Murakami əsərlərinin əsas qəhrəmanları qadınlarla aktiv intim əlaqələrdə olsalar da, digər insani münasibətlərdə qorxularının və xəyallarının təsiri altında passiv davranırlar. Baş qəhrəmanlarla kahin qadınlar arasındakı metafizik münasibətlər qurmağın əsasını məhz seks təşkil edir.

Məruzədə H.Murakami yaradıcılığında qadın obrazları yazıçının erkən yaradıcılıq nümunələri "Küləyin nəğməsini dinlə" (1979) və "Pinbol 1973" (1980) romanları, ilk irihəcmli postmodern romanı "Qoyun ətrafında macəra" (1982) və debüt romanı "Norveç meşəsi" (1987) əsərləri əsasında geniş şəkildə şərh olunacaqdır.

# HALİDE EDİB ADIVARIN "ATEŞTEN GÖMLEK" ƏSƏRİNDƏ MİLLİ MÜCADİLƏ DÖVRÜNDƏ TÜRK QADINININ ROLU

**Şıxəliyeva Validə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Türkologiya mərkəzinin Türk dili bölməsinin*
*mütəxəssisi*
*v.shikhaliyeva@gmail.com*

XX əsrin ilk türk qadın roman yazarı olan Halide Edib Adıvar romanlarında yaşadığı dövrün ictimai-siyasi hadisələrinin gedişatını real təsvir və təhlillər əsasında uğurla oxuculara çatdıra bilmişdir. Təsvirləri reallıqlara əsaslanan Halidə Edib Adıvar dövlətin çətin anlarında ona dəstək olmaq və xalqdakı ruh yüksəkliyini qaldırmaq üçün mütəmadi olaraq tribunalarda vətənpərvər çıxışlar edərək xalqı milli birliyə səsləyirdi. Milli mücadilə dövrünün öndə gedən vətənsevər türk qadını Halide Edib Adıvar sonradan türkçülük cərəyanına qoşularaq müstəqil türk dövlətinin varlığı uğurunda mübarizəsini müxtəlif təbliğatlar vasitəsilə aparırdı. Bir bayraq altında müstəqil yaşayan türk dövlətinin azadlığı uğurundakı mübarizəsinə yazdığı romanlar, çap etdirdiyi təbliğatçı yazılar vasitəsilə dəstək olurdu. 1920-ci ildə milli mücadilə hərəkatına qoşulmaq üçün Anadoluya gedərək orduya dəstək olan və Qurtuluş savaşının "Halide onbaşısı" adını alan Halide Edib Enverin "Ateşten gömlek" əsəri məhz milli mücadilə zamanı dövlətə dəstək üçün yazılan dövrün vətənpərvər ruhlu əsərlərindən biridir. Halide Edib Enver ilk qadın roman yazarı olmaqla bərabər, həm də dövrünün ilk müharibə haqqında roman qələmə alan qadın yazarı olaraq türk ədəbiyyatında özünə yer tapa bilmişdir. Halide Edib Adıvar "Ateşten gömlek" adlı əsər yazmağı planlaşdıran Yakub Kadri Karaosmanoğlunun bu fikrinin Anadolunda baş verənlərə daha uyğun gələcəyini gözləri önündə canlandıraraq əsəri yazmağa başlayır. Halide Edib Adıvar "Ateşden gömlek"i ərsəyə gətirərkən bir xalqın yenidən var olması uğurunda mübarizəsini, çökməkdə olan dövlətin əzmkarlığının savaşçı ruhunu əks etdirmişdir.

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ QADIN RƏSSAMLARIN ROLU

**Yüzbaşıyeva Vəfa**
*Odlar Yurdu Universitetinin*
*Dizayn kafedrasının müəllimi*
*kenanvefainci@mail.ru*

Azərbaycanda rəssamlıq sənətinin inkişafında qadın rəssamların xüsusi rolu olmuşdur. Vəcihə Səmədova, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya kimi rəssamların müxtəlif janrlarında yaratdıqları əsərləri nümunə göstərə bilərik. Xalq rəssamı Maral Rəhmanzadə Azərbaycan təsviri sənət tarixində qrafika sahəsində yaratdığı əsərlərdə təbiət mənzərəli əsərləri böyük ustalıqla tərənnüm etmişdir. Rəssam Naxçıvan və Lənkəran, Şamaxı və Qubanın qədim tarixi abidələrini qrafik elementlərin lakonikliyi ilə təsvir etmişdir. Xalq rəssamı kitab qrafikası sahəsində də çox işlər görmüşdür. Belə ki, Nizami, Xətai və Füzulinin kitablarına verdiyi bədii tərtibatlar və çəkdiyi çoxsaylı illüstrasiyalar kitab qrafikasının gözəl örnəkləridir. Onun Məhəmməd Füzulinin “Qəzəllər”inə, Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanına və Nizami Gəncəvinin “Leyli və Məcnun” poemasına çəkdiyi illüstrasiyalar özünəməxsus sənətkarlığı ilə seçilir.

“Azərbaycan qadını keçmişdə və indi”, “Qadınlar müharibə illərində” adlı dəzgah qrafikası silsilələrində Azərbaycan qadınlarının həyatı öz əksini tapmışdır.

Təsviri sənət tariximizdə Qeysər Kaşıyevanın da adını xüsusi qeyd etməliyik. O, rəssamlıq təhsili alan ilk azərbaycanlı qadınlardandır. İlk dəfə Tiflisdə bu azərbaycanlı qadının əsərləri sərgidə nümayiş olunmuşdur. “Molla Nəsrəddin” jurnalının karikaturaçı-rəssamı Oskar Şmerlinq Qeysər Kaşıyevanın rəsm əsərlərini yüksək qiymətləndirmişdir. Onun “Azərbaycan ziyalısı”, “Göl sahili”, “Ziyalı qadın”, “Qoca keşikçi”, “Gürcü qızı”, “Ovçu”, “Yanğınsöndürən”, “İ.Qonçarovun portreti”, “Qoqolun portreti” kimi rəsm əsərləri özünəməxsus xüsusiyyətləri ilə seçilir. Rəssam qadın “Şərq qadını” jurnalına da çoxlu illüstrasiyalar çəkmişdir. Rəsm əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır.

Xalq rəssamı Elmira Şahtaxtinskaya çoxlu plakat və dəzgah rəsmlərinin müəllifidir. Onun “Azərbaycan qədim mədəniyyət diyarıdır” plakat silsiləsini, “Çexoslovakiyada”, “Bolqarıstanda”, “Sosialist Bakısı” seriyası, “Novruz bayramı ərəfəsində”, “Qutablar” və s. tablolarını xüsusi qeyd etmək lazımdır. Rəssam bir çox mədəniyyət xadimlərinin – Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əcəmi Naxçıvani, Sultan Məhəmməd, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov və başqalarının portretlərini çəkmişdir.

# İRAN İSLAM RESPUBLİKASININ KONSTİTUSİYASINDA QADIN HÜQUQU

**Məmmədova Sevinc**
*AMEA akad. Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*sevinc.mammedova81@gmail.com*

İran İslam Respublikasının konstitusiyası 1979-cu il dekabrın 3-də referendum yolu ilə qəbul edildi. Konstitusiyada insan və vətəndaş hüquqları ilə bərabər, ölkənin ictimai-siyasi həyatında qadının mövqeyinin müəyyən edilməsinə də yer ayrılıb. Bu səbəbdən İİR-da qadınların hüquqi məsələlərinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Konstitusiyanın müqəddiməsində qeyd edilir ki: "Monarxiya rejimində çox zülmə və əzab-əziyyətlərə məruz qalmış qadınlar daha artıq hüquqa malik olacaqlar". İlk baxışda qadınların hörmət və ehtiramının, şəxsiyyət və ləyaqətinin qorunması qeyd olunsa da, hökumətin qədul etdiyi qanunda bunlar öz əksini tapmır. Qadınların maddi və mənəvi hüquqları islam ənənələri əsasında təqdim edilərək onların ictimai həyatda iştirakı məhdudlaşdırılır. Şəriət qanunlarının hüquqi müstəvidə tətbiq olunması qadınların bir çox hüquqlarını əllərindən alır.

Konstitusiyanın 20-ci maddəsinə əsasən, "Vətəndaşlar qadın, yaxud kişi olmasından asılı olmayaraq, islam qaydaları çərçivəsində siyasi, iqtisadi, ictimai və mədəni hüquqa malikdirlər". Burada "islam qaydaları çərçivəsində" sözlərinin artırılması qadınlara qarşı bir çox yerlərdə ayrı-seçkiliyə yol açır, qadının siyasi hüququ və ölkə idarəçiliyində iştirakı məhdudlaşdırılır. İran konstitusiyasının 115-ci maddəsinə əsasən, prezident kişi və ya ölkənin dini və siyasi xadimlərindən biri olmalıdır. Deməli, qadınların prezident olmaq hüququ yoxdur. Bundan başqa, onların hakim kimi çalışmasına icazə verilmir. Hərbi sahədə də müəyyən məhdudiyyətlər var. Milli orduda qadınlar sadəcə müalicə və tibbi sahədə xidmət göstərə bilərlər.

Beləliklə, İİR-nın konstitusiyasında qadınların cəmiyyətdə ictimai və hüquqi vəziyyəti haqqında bəzi məsələlər yer almasına, ilk baxışdan az-çox demokratik görünməsinə baxmayaraq, onlar getdikcə daha çox qadağalara və sıxışdırmalara məruz qalırlar.

# YAQUB ƏLİOĞLUNUN "DUL QADININ ƏRİNİ ANMA GÜNÜ" ADLI HEKAYƏSİNDƏ QADIN XARAKTERİNİN ŞƏRQ VƏ QƏRB DƏYƏRLƏRİ KONTEKSTİNDƏ TƏHLİLİ

**Şəfizadə Sima**
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun*
*Türk xalqları ədəbiyyatı şöbəsinin elmi işçisi*
*sima-adass@mail.ru*

Yaqub Əlioğlunun *"Dul qadının ərini anma günü"* adlı hekayəsində obrazların milli xarakterini ifadə edən mənəvi dəyərlərə münasibət hər iki dünyanın (Qərb və Şərq) düşüncə tərzinə uyğun olaraq və dini dəyərlər (müsəlman və xristian) sistemi çərçivəsində müqayisəyə cəlb edilmişdir. Hekayədə ölüm ayağında olan müsəlman Kərim Sultanoviç xristian olan həyat yoldaşı Esmiraldanın dini və milli mənşəyinə bələd olduğundan dəfninin təşkilini sürücüsü müsəlman Paşaya vəsiyyət edir. Əlbəttə ki, Paşa mərhuma verdiyi sözün üstündə durur və tapşırdığı kimi də onun dəfnini təşkil edir. Lakin Esmiralda xanım yenə də dəfn mərasiminə öz qayda-qanunlarını diktə edir, həm mərhumun həyat yoldaşı, həm də müasir düşüncəli, varlı-pullu biznes-ledi kimi. O özünün Qərb və xristian düşüncəsinə görə, ərinin ruhuna hörmət etməyərək, dəfni öz dini dəyərlərinə uyğun reallaşdırır. Burada mənəvi dəyərlər həm Şərq-Qərb dünyası kontekstindən, həm də müsəlman-xristian dinlərinin nümayəndələrinin dini-mənəvi dəyərlərə olan inam və hörmətinin nisbəti aspektindən müqayisəyə gətirilir. Onu da qeyd edək ki, hekayədəki dini dəyərlərə hörmət məsələsi nəinki milli-mənəvi özünüdərkin mahiyyətini ortaya qoyur, həm də dini ünsürlərlə zəngin etnomədəniyyətin, etnopsixologiyanın qloballaşan dünyada vacibliyini irəli sürür. Aparılan tədqiqatlar həm də onu göstərir ki, qloballaşma prosesində ədəbiyyat qlobal məkanın böyük ədəbi prosesinə (ədəbi cərəyanlar kimi) daxil olmaqla, onun imkanlarından istifadə edir və özünəməxsus milli mədəniyyət sferası formalaşdırmağa çalışır. Bu zaman Qərb düşüncəsinə meyil edən qloballaşmanın obraza "dünya sənin vətənindir" fikrini aşılaması bir ümumi tendensiya kimi ortaya çıxır.

# MÜSTƏQİL AZƏRBAYCANDA QADIN SİYASƏTİNİN İNKİŞAF TARİXİ

**Namazova Solmaz**
*AMEA akademik Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*Şərq ölkələrinin tarixşünaslığı*
*şöbəsinin elmi işçisi*
*namazovaslmz@gmail.com*

Azərbaycan qadınları ictimai-siyasi fəallığı, vətənə sədaqəti, ailəyə bağlılığı ilə Şərq və Qərb dünyası üçün özünəməxsus inkişaf yolu seçmişlər. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük hörmətlə yanaşmışdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətin inkişafında, müstəqil dövlət quruculuğunda qadınların rolu daha da artmağa başlamışdır. Ulu Öndər Heydər Əliyev qadın siyasətinə daha çox diqqət yetirilməsi üçün çalışmışdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızda qadınların kişilərlə bərabər hüquqlarının olması ayrıca müddəa ilə təsbit olunur. Bununla da, demokratik cəmiyyət quruculuğunda qadınların iştirakının hüquqi bazası yaradılır. Qadınların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunu artırmaq, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasından irəli gələn öhdəliklərini mütəmadi həyata keçirmək üçün Heydər Əliyev 1998-ci il 14 yanvar tarixində "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncam imzalamışdır. 1998-ci ildə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin əsas məqsədi qadın hüquqlarının qorunması və dövlətin sosial-siyasi həyatında onların iştirakının artırılması olmuşdur. 2000-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi"nə dair imzalanmış Fərmanı da mühüm nəticələrin əldə olunmasına gətirib çıxarmışdır.

Beləliklə, müstəqil Azərbaycanda qadın siyasəti daim diqqət mərkəzində olmuş və bunun nəticəsində yüzlərlə qadın fərdi bacarığını nümayiş etdirmiş, müxtəlif idarəetmə orqanlarında rəhbər vəzifələrdə çalışmış, dövlət siyasətinin həyata keçirilməsində birbaşa iştirak etmiş, hökumət və qeyri-hökumət qadın təşkilatları və birlikləri beynəlxalq aləmdə Azərbaycanı layiqincə təmsil etmişlər.

Bu gün də qadın siyasəti dövlət siyasətinin tərkib hissəsi kimi yüksək səviyyədə həyata keçirilir. Qadın hüquqlarının müdafiəsi üçün bir çox qanunlar qəbul olunur, dövlət layihələri həyata keçirilir, tədbirlər təşkil olunur, beynəlxalq təşkilatlarla birgə işlər görülür, əməkdaşlıq genişləndirilir.

**MÜASİR ƏRƏB NƏSRİ (LİVAN VƏ SURİYA YAZIÇILARI) VƏ QADIN PROBLEMİNİ YARADAN MÜHİT**

**Mehdiyeva Türkan**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutu*
*turkanazad15@gmail.com*

Müasir ərəb nəsrində (Livan və Suriya yazıçıları) qadın problemini doğuran mühit və onun ədəbiyyata təsiri məsələləri ön plana çəkilməli, ayrı-ayrı folklor və yazılı ədəbiyyat nümunələri əsasında dəyərləndirmələr aparılmalıdır. Ərəb nəsrini formalaşdıran ərəb dünyası islam dininin təşəkkülündən sonra mühüm mərhələyə qədəm qoymuş, yeni dünyabaxışı, yeni düşüncə tərzi meydana gəlmişdir. Bu baxımdan istər ilkin ərəb folkloru dövründə, istərsə də islamdan sonrakı mərhələdə qadına münasibət, qadın məsələsi ərəb ədəbiyyatının, o cümlədən ərəb nəsrinin də inkişafına təsir edən mühüm amillərdən olmuşdur.

Qərblə yeni əlaqələrin başladığı 20-ci əsrin əvvəllərində qadın xalqın və ölkənin bütün problemlərinə sinə gərən, ərəb xalqının tarixi gələnəyinə arxalanaraq özünü fəda edən bir varlıq kimi ortaya çıxır. Uzun illər dörd divar arasına və qara çarşaba qapadılmış qadın, birdən-birə öz haqlarını tələb etməyə başlayır. Bu mənada müasir ərəb nəsri, ilk növbədə, qadın hərəkatına borcludur.

Qadın məsələsinin yaranmasında mühüm rol oynayan "Nəhda" - النهضة (ayaqlanma, qalxınma mənasında) hərəkatı ayrıca dəyərləndirilir. 19-cu əsrin "Nəhda"çılarını tez-tez üç əsr əvvəl Qərbdə yaranmış İntibahla müqayisə edirlər ki, bu da onların bir sıra sahələrdə, o cümlədən qadın azadlığı problemində nə qdər vacib iş gördüklərini ortaya qoymuş olur.

Müasir ərəb nəsrində qadın emansipasiyasının bir xətti də XIX əsr ərəb maarifçilik hərəkatına gedib çıxır. Bu hərəkat qadın azadlığı məsələlərində ərəb ədəbiyyatına birbaşa öz təsirini göstərmişdir.

Təəssüf ki, ərəb dünyasında, cinsi ayrı-seçkilik bir bəlayə çevrilmişdi ki, bu da qadın aktivistlərin əsərlərində haqlı etirazlara səbəb olmuşdur.

# SEYFƏDDİN DAĞLININ “BAHAR OĞLU” ROMANINDA QADINLARIN MAARİFLƏNMƏSİNƏ DAİR

**Məmmədzadə Arzu**
*AMEA akad. Z.Bünyadov*
*adına Şərqşünaslıq İnstitutu*
*arzumemmedzade2@mail.ru*

XX əsrin 40-cı illərində peşəkar ədəbi yaradıcılığa başlamış Seyfəddin Abbasov (1921-1983) dramaturq, şair və jurnalist kimi Azərbaycan ədəbiyyatında Seyfəddin Dağlı imzası ilə məşhurlaşmışdır. Azərbaycan kino sənətinin və jurnalistikasının inkişafında böyük xidmətləri olan Seyfəddin Dağlı “Mənziliniz mübarək”, “Kölgələr pıçıldaşır”, “Aydınlığa doğru”, “Adı sənin, dadı mənim”, “Təzə gəlin” pyesləri, “Bahar oğlu”, “Sabiqlər”, “Məşəl” və s. əsərləri ilə oxucuların böyük rəğbətini qazanmışdır. Onun əsərlərində dövrün aktual məsələlərinə toxunulmuş, qaldırılan mövzular yarı gerçək, yarı kinayəli şəkildə öz bədii həllini tapmışdır.

Yazıçının “Bahar oğlu” romanında qadınların maariflənməsi, təhsilə yiyələnməsi əsərin əsas xəttini təşkil edir. Seyfəddin Dağlı romanda görkəmli dramaturq Cəfər Cabbarlının parlaq və işıqlı simasını canlandırmışdır. “Bahar oğlu”nun baş qəhrəmanı Cəfərin dilindən Azərbaycan qadınının maariflənməsi, qızların kiçik yaşlarından təhsilə başlaması məsələsi qaldırılır. Əsərin baş qəhrəmanı 17 yaşlı Bakı Sənaye Texnikumunun tələbəsi əmisi qızı və gələcək ömür-gün yoldaşı Sonanı və qardaşı qızı Törəni məktəbə yazdırır. Çadralı qızların məktəbə yollanmasına Cəfər həddən ziyadə sevinirdi. Lakin böyük qardaşı Hüseynqulu qızının məktəbə getməsinə tərəddüdlə yanaşırdı. Çünki onların məskun olduğu məşhur Dağlı məhəlləsində hələ qızlar məktəbə getmirdi. O, camaatdan ehtiyat etdiyindən qəti qərar verməkdə çətinlik çəkirdi. Lakin Cəfər bu məsələdə durmadan israr edirdi. Bu işdə onların ailə üzvlərinin ilkə imza atacaqlarına sevinirdi.

Seyfəddin Dağlı “Bahar oğlu” romanında qadınların maariflənməsinə birmənalı yanaşmayanlara Cəfərin dili ilə ritorik suallarla müraciət edir və oxucunu düşünməyə sövq edir. Qadınların maariflənməsi dövrün ən vacib tələbi kimi səciyyələndirilir. Bakının bir məhəlləsində cərəyan edən hadisələr və obrazlar ictimailəşdirilir.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA QADIN KİMLİYİ

**Quliyev Elxan**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun elmi işçisi*
*elkhan2000@yahoo.com*

Hazırkı məqalədə Nizami Gəncəvi yaradıcılığında qadının fərdi və sosial kimlik problemi araşdırılmışdır. İnsanı kainatın əşrəfi hesab edən Nizaminin bəşər övladını insanlığa yaraşan həyat tərzinə, eləcə də qadınları ailə dəyərlərinə sadiq olmağa dəvət edən beytlərini təqdim etməyə çalışmışıq. Bu məqsədlə şairin "Xəmsə"sində əks olunan qadın şəxsiyyəti və onun həqiqi kimliyi ilə bağlı görüşlərini əvvəlcə tərcümə, sonra isə şərh etməyi qarşımıza məqsəd qoymuşuq.

Dahi Azərbaycan şairinin əsərlərində qadınla bağlı mühüm məsələlər, o cümlədən humanizm, sosial ədalət, əxlaq dərsi, təlim və tərbiyə, qadınların gələcəyi kimi mühüm məsələlər öz əksini tapmışdır. Şair bütün bacarıq və istedadını insanların xoşbəxt yaşamasını təmin edə biləcək amillərin, o cümlədən qadın amilinin bədii formada ortaya qoyulmasına sərf etmişdir. Başqa ifadə ilə desək, bir çox şairlər yalnız vətənpərvərdirlərsə, Nizami bundan əlavə, həm də insanpərvər bir şairdir.

Nizami Gəncəvi qadına ölkə idarəçiliyində ən yüksək məqama ucala bilən, eləcə də ağıla aid bütün hikmətləri mənimsəməyə qadir olan bir varlıq kimi baxır:

قوی رای و روشن دل و نغزگوی          فرشته منش بلکه فرزانه خوی
هزارش زن بکر در پیشگاه          به خدمت کمر بسته هر یک چو ماه
زنان داشتی رایزن در سرای          به کدبانویی فارغ از کدخدای

Güclü, iradəli, qəlbinur və gözəl danışan,
Mələk xislətli, ağlı özünə yaraşan.
Min-min qadın görünür ki cahanda,
Hər biri Aytək xidmətkardır meydanda.
Saraylarda müşavirdir xanımlar,
Kəndxüdasız kəndə sahib qadınlar. (filoloji tərcümə – E.Q).

**Nəticə**

Nizami Gəncəvi öz ədəbi irsində bizlərə daim üç istiqamətdə hərəkətdə olmağı tövsiyə edir:

1. Gözəllik – incəsənət;
2. Bilik və zəka – fəlsəfə, riyaziyyat, məntiq, dəlil, əqli və idraki mühakimələrə əsaslanan elmlər;
3. Yaxşılıq – gözəl əxlaq və gözəl davranış.

# SUAT DƏRVİŞİN ROMANLARINDA QADIN TALEYİ

**Əliyeva Pakizə**
*Azərbaycan Dövlət Pedaqoji*
*Universitetinin Şəki filialı*
*aliyeva.pakize.filolog@mail.ru*

Təqdim olunan məruzədə XX əsr türk ədəbiyyatının tanınmış simalarından olan, bir zamanlar əsərləri ən çox əcnəbi dillərə tərcümə olunan, Türkiyədə feminizm hərakatının öncüllərindən sayılan Suat Dərvişin (1905-1972) romanlarında qadın taleyi ilə bağlı görüşləri təhlil olunmuşdur. İmzası ilk öncə qəzet və jurnalların səhifələrindən oxuculara tanış olan Suat Dərviş qələmini dövrü üçün xarakterik olan məqalə, oçerk, hekayə və roman kimi epik əsərlərdə sınamışdır. Yaşadığı zamanın Türkiyə tarixinin mürəkkəb dövrünə təsadüf etməsi, ölkədə milli mücadilə, cümhuriyyətin elan olunması, siyasi maraqların toqquşması, devrimçilik və s. doğan mürəkkəb ictimai-siyasi hadisələr qadınların, təbii ki, müəllifin özünün də həyatına təsirsiz ötüşmürdü. Bütün bunları Suat Dərviş qadın tematikalı əsərlərində qələmə alır, fəal mövqeyini jurnalistika və ictimai həyatda olduğu kimi, əsərlərində də bildirməkdən çəkinmirdi. Bu əsərlər içərisində yazıçının müxtəlif illərdə yazdığı “Qara kitab”, “Heç biri”, “Əhməd Fərdi”, “Bəhirənin elçiləri”, “Fatmanın günahı”, “Mənmi?", “Böhran gecəsi”, “Könül kimi”, “Əminə”, “Heç”, “Onu gözləyirəm”, “Sürücü Mustafa”, “Yenidən yaşaya bilsəydim”, “Çökən İstanbul”, “Alov dodaqlı qadın”, “Özünə inanan qadın”, “Çılğın kimi”, “Ankara məhbusu”, “Fosforlu Cevriyə” və s. kimi romanlarının xüsusi çəkisi var. Romanlardan sadəcə ikisi – “Ankara məhbusu” və “Fosforlu Cevriyə” dilimizə çevrilərək əvvəlcə kiril, sonra isə latın qarfikası ilə bir neçə dəfə çap olunmuşdur. Müəllif mənşəcə saraya yaxın olan zadəgan ziyalılığına mənsub olmaqla Avropa təhsili görmüş mütərəqqi baxışlı qadın olsa da, romanlarında taleyini işıqlandırdığı qadınlar həyat və yaşam şərtləri, təhsil və dünyagörüşü, eyni zamanda əxlaqı baxımından çox fərqlidirlər. Yazıçı hər variantda qadından yazmaq, ədalətsiz dünyada həmcinslərinin taleyini diqqət mərkəzində saxlamağa önəm vermişdir.

# RƏSSAMLARIN ƏSƏRLƏRİNDƏ QADIN OBRAZI

**Muradi Pərvanə**
*Odlar Yurdu Universitetinin*
*Dizayn kafedrasının müəllimi*
*perish_1988@mail.ru*

Qadın obrazı rəssamları ilhamlandıran obrazlardandır. Azərbaycan təsviri sənət tarixində görkəmli rəssamlarımızdan Tahir Salahov, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Nadir Zeynalov, Vəcihə Səmədova qadınların obrazını kətan üzərində canlandırmışlar.

Bir çox gözəl tematik tablo, qadın portretlərini yaratmış T.Salahovun "Qadın obrazları" kataloq albomu nəşr olunmuşdur. Alboma "Ana portreti", "Aydan", "Alagöz", "Varvaranın portreti", "Aktrisa İ.Miroşniçenkonun portreti", "Rəqqasə Tamara xanımın portreti" kimi rəsm əsərləri daxildir. Bu əsərlərdə rəssam qadın gözəlliyini vəsf etmiş, qadının mənəvi dünyasını, çalışqanlığını əks etdirmişdir. Görkəmli rəssam M.Abdullayev dəfələrlə öz yaradıcılığında Azərbaycan qadınlarının gözəlliyini vəsf etmiş, "Mənim anam", "Leyla xanım", "Tələbə", "Müğənni" əsərləri, "Əminə xanım Dilbazi"nin portreti əlvan koloritliyi ilə seçilir.

Rəssam Sakit Məmmədovun yaradıcılığının böyük qismini qadın obrazları təşkil edir. "Leyla", "Nüşabə", "Güzgü qarşısında", "Qızıl gül", "İtaliyalı qız" portretlərini yaradan rəssam öz əsərlərində isti rənglərdən istifadə etmişdir.

Azərbaycan rəssamı B.Mirzəzadənin rəsm əsərləri Azərbaycanın zəhmətkeş, qadınlarına həsr olunmuşdur. "Şamama Həsənovanın portreti", "Sürəyya Kərimovanın portreti", "Pambıq yığımı", "Ziba Hüseynovanın portreti", "Qızxanım Qulamovanın", "Balerina Rəfiqə xanım Axundovanın", "Müğənni Sara Qədimovanın" portreti xüsusi plastik gözəlliyi ilə seçilir.

Tanınmış Azərbaycan rəssamı V.Səmədovanın qadn portretləri günəş işığı və parlaq rənglərlə zəngindir. Rəssamın "Aktrisa Leyla Bədirbəylinin portreti", "Heykəltəraş Həyat Abdullayevanın portreti", "Mühəndis Minirə Məmmədbəylinin portreti", "Tələbə qız portreti", "Tanınmış kolxozçu Sürəyya Kərimova", "Gilas Verdiyeva" portretlərində istedadlı və özünə hər baxımdan əmin qadınlar təsvir edilmişdir.

Qadın obrazlarını təsvir edən rəssamlardan biri də H.Zeynalov olmuşdur. Rəssamın "Çıxışdan qabaq", "Elmira Rəhimovanın portreti", "Nelli Mahmudovanın portreti", "H.Rzayevanın portreti", "A.Pənahovanın portreti" ndə rəngərəng abstrakt xətlər və cizgilərdən ibarət qadın bədəninin təqdiminin yeni rakursları verilmişdir.

Tanınmış rəssam Qəyyur Yunus "Azərbaycan qadınları" tablosunu 1985-ci ildə yaratmışdır. Tabloda bəzəkli paltarlar, zinət əşyaları, iri gözlər, cizgilər rəvan və ahəngdardır.

## HAMIDAN UCADIR ALİMİN YERİ

**Mirzəyeva Aynur**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*Xarici dillər kafedrasının baş müəllimi*
*azeri_0704@yahoo.com*

Müasir dövrdə elmə – ərəb ədəbiyyatına böyük töhfələr vermiş, Azərbaycan şərqşünaslığında öz məktəbini yaratmış Qarabağ torpağının vətənpərvər qızı AMEA-nın vitse-prezidenti v.i.e., AMEA-nın İctimai Elmlər Bölməsinin sədri, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru, dövlət xadimi, akademik Gövhər Baxşəliyevadır. Gövhər Baxşəli qızı Baxşəliyeva 1954-cü ildə Bərdə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, 1977-ci ildən Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. Gövhər xanım 260-dan çox elmi əsərin, o cümlədən 5 monoqrafiya, 18 kitab və xaricdə nəşr olunmuş 24 elmi əsərin müəllifidir. Dünya ədəbiyyatı (ərəb ədəbiyyatı) ixtisası üzrə 21 fəlsəfə doktoru yetişdirmişdir. Türkiyə, Rusiya, İran, Misir, Səudiyyə Ərəbistanı, Suriya, BƏƏ, Fransa, İngiltərə, İtaliya, Macarıstan, Rumıniya, Çin, Malayziya, İndoneziya kimi ölkələrdə Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

1997-ci ildən AMEA-nın Şərqşünaslıq İnstitutunun direktorudur. II, III, IV, V çağırış Milli Məclisin deputatı olmuş, Bərdə rayonunu təmsil etmişdir. Deputat kimi Qarabağ həqiqətlərini xarici ölkələrdə obyektiv surətdə insanlara çatdırmış, qarabağlıların ağır günündə hər zaman onların yanında olmuşdur.

“Türk xalqları ədəbiyyatı” və “Dünya ədəbiyyatı” ixtisasları üzrə Müdafiə Şurasının sədridir. “Azərbaycan şərqşünaslığı” jurnalının baş redaktorudur. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı fənni üzrə xüsusi kurs aparmışdır.

Akademik Gövhər Baxşəliyevanın əməyi Azərbaycan Dövləti tərəfindən yüksək qiymətləndirilmiş və müxtəlif vaxtlarda – Fəxri fərman və medallarla təltif edilmişdir.

# ŞƏRQİN İLK DİPLOMAT QADINI SARA XATUN

**Məmmədova Aynurə**
*AMEA akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*Şərqşünaslığın tarixi və nəzəriyyəsi*
*şöbəsinin kiçik elmi işçisi*
*aynuramammadova07@gmail.com*

Azərbaycan qadını öz zəkası, sədaqəti, qəhrəmanlığı, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Onların bir çoxunun adı çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb.

Belə qadınlardan biri də Ağqoyunlu dövlətinin sahmana salınmasında böyük rolu olan görkəmli diplomat və dövlət xadimi Sara Xatun olmuşdur. Bütün Şərqdə istedadlı diplomat qadın kimi məşhur olan Sara Xatun, Avropa ölkələrində də yaxşı tanınırdı. O, bir dövlət xadimi kimi, Ağqoyunlu dövlətinin möhkəmləndirilməsinə çalışırdı. Bu məqsədlə feodal dağınıqlığına və sülalə üzvlərinin mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda apardıqları ara müharibələrinə, saray çəkişmələrinə qarşı mübarizə aparırdı. Olduqca ağıllı və tədbirli olan Sara Xatun dövlətin idarə işlərinin bütün sahələrində oğlu Uzun Həsənə yaxından kömək edirdi. Uzun Həsən bütün xarici siyasət məsələlərini onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi. O, nəinki xarici ölkələrin ayrı-ayrı diplomatları ilə, həmçinin Teymuri hökmdarı Əbu-Said ilə, Osmanlı imperatoru II Mehmed kimi dövlət başçıları ilə də diplomatik danışıqlar aparmış, Ağqoyunlu dövlətinin xarici siyasi mənafeyini müvəffəqiyyətlə müdafiə etmişdi.

Venesiya respublikasının senatı onun Ağqoyunlu sarayındakı nüfuzunu nəzərə alaraq, Azərbaycana göndərilən bütün diplomatlarına ciddi tapşırırdı ki, Sara Xatuna ehtiram göstərsinlər, məqsədlərinə nail olmaq üçün ondan istifadə etsinlər. Bütün Yaxın və Orta Şərqdə böyük nüfuzu olan Sara Xatun böyük hərbi sərkərdəlik bacarığına və hərbi intuisiyaya malik olmuşdur. Onun əqli çevikliyi dar məqamlarda tez qərar çıxarmağa imkan vermişdir. Sara Xatun qeyrətli qadın, diplomat və hərbi istedada qadir bir insan olmuşdur.

# AZƏRBAYCANDA QADIN TƏHSİLİ: TARİX VƏ MÜASİRLİK

**Səfərova Samirə**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Türk filologiyası şöbəsinin kiçik elmi işçisi*
*Samire_1980@mail.ru*

Qadınların da təhsil hüquqlarından kişilər qədər faydalanmaları və təhsil almaları vacibdir. Tarix boyu insanlıq qadınların savadsızlığını və təhsilli qadın gücünün qıtlığını məyusluqla yaşayıbdır. Belə cəmiyyətlərdə qadınların təhsilsizliyi onların həyatı bahasına başa gəlmişdir. Bu səbəbdən cəmiyyətlər bu çatışmazlıqları aradan qaldırmaq üçün hər zaman səfərbər olmuş, qadınların kişilər kimi təhsil alması istiqamətində fəaliyyət göstərmişlər. Qadınlar aktiv və fəal iştirak etdiyi ailə institutunda yerinə yetirməli olduqları vəzifələri mükəmməl icra edərək cəmiyyətdə sosial sistemin fəaliyyətinə əvəzsiz töhfə vermişlər. Sosial sistem sosial institutlar şəbəkəsinə bənzəyir. Sosial institutlar arasında əlaqə, sistemin ahəngdar işləməsini təmin edir. Sosial institutlardakı disbalans bütün sosial quruluşa təsir göstərir. Bu səbəbdən də qadının cəmiyyətdəki yeri və vəzifələrindən danışarkən, ilk növbədə, onun bir fərd kimi formalaşıb, azad şəxsiyyət kimi ailədə lokomativ rolunu oynaması nəzərə alınmalıdır. Buna görə də təhsildə gender əsasında imkan bərabərliyi olmalıdır. Bu bərabərliyə nail ola bilməyən cəmiyyət tam inkişafa nail ola bilməz.

Tarixə nəzər saldıqda Azərbaycan qadınının fəaliyyət aktivliyinin daha çox şahidi oluruq: Heyran Nisə Bəyim, Tuti Bikə, Dəspinə xatun, Sara xatun diplomatiya, Məhsəti Gəncəvi, Xurşudbanu Natəvan, Heyran xanım, Fatma xanım Kəminə və digərləri ədəbiyyat sahəsində öz sözlərini demiş qadınlarımızdan hesab olunurlar.

Hələ XIX əsrin sonu, XX əsrin əvvəlləri qızların təhsili ilə bağlı problemlərin çox olduğu dövrlərdə Azərbaycan qadınları H.Məlikova, A.Əfəndiyeva, X.Əlibəyova, X.Vəzirova və bir çox başqaları təhsil prosesinin mərkəzində dayanır, onu yaradır və azərbaycanlı qızlar üçün məktəblərdə müəllimlik edirdilər.

Günümüzdə qadınların Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirakı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət Prezident İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam və inkişaf etdirilir. İnkişaf tədbirləri bir çox sahələrdə olduğu kimi, ölkə təhsilində də müşahidə olunur. Qadınların sosial-ictimai həyatda daha fəal olması üçün təhsildənkənar xüsusi layihələr də həyata keçirilir.

# İLK REPRESSİYA OLUNAN AZƏRBAYCAN QADINI

**Teyyubova Pərvanə**
*AMEA Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutunun*
*Şəxsi arxivlərin tədqiqi şöbəsinin elmi işçisi*
*parvanateyyubova@gmail.com*

Azərbaycan tarixində baş vermiş ən böyük faciələrdən biri də 1920-ci ildən başlayaraq 30 ilə yaxın davam edən repressiya olmuşdur. Repressiya illərində Azərbaycan ərazisindən 100 minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir. Bu dövrdə bir çox ziyalı xanımlarımız da repressiyanın qurbanı olmuşdur. Bu xanımlardan biri də dövrünün tanınmış publisisti olan Seyid Hüseynin həyat yoldaşı, dövrünün tanınmış şairəsi Ümgülsüm Sadıqzadədir. O dövrdə bir çox ziyalıların həyat yoldaşları məhz onların özlərinə görə həbs olunurdu, lakin Ümgülsüm Sadıqzadənin həbs edilməsinə səbəb təkcə Seyid Hüseynin həyat yoldaşı, ya da M.Ə.Rəsulzadənin qohumu olması deyil, milli ruhlu şeirlər yazması idi.

Ümgülsüm Sadıqzadə 1900-cü ildə Bakının Novxanı kəndində ruhani ailəsində dünyaya göz açmışdır. Hələ uşaq yaşlarından ədəbiyyata, şeirə böyük maraq göstərmiş və şeir yazmağa başlamışdır. Fars və türk dillərini ona valideynləri öyrətmişdir.

Heca və əruz vəznlərində şeirlər yazan Ümgülsüm 1914-cü ildən etibarən “Açıq söz”, “Birlik”, “İqbal”, “Yeni iqbal”, “İstiqlal”, “Azərbaycan”, “Ədəbiyyat”, “Şərq qadını” kimi mətbu orqanlarda çıxış etməyə başlamışdır. 1918-1920-ci illər Ümgülsüm yaradıcılığının ən məsuldar dövrü olmuşdur. O, Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşılamış, şeirlərində xalqımızın milli istiqlala qovuşmasını tərənnüm etmişdir.

Ümgülsüm Sadıqzadə ilk repressiya olunan Azərbaycan qadınıdır. O, 1937-ci ilin noyabr ayının ikisində “xalq düşməni”nin arvadı kimi həbs edilib, Bayıl həbsxanasına salınmışdır. Çox təəssüflər olsun ki, Ümgülsüm 37-nin 37 yaşlı qurbanı olmuşdur. Onu Sibirə (Mordova MR Yavas qəsəbəsindəki Temlaq əmək islah düşərgəsinə) göndərmişdilər.

# AZƏRBAYCANIN İLK QADIN BİOLOQ-AKADEMİKİ VALİDƏ XANIM TUTAYUQ (MATM MATERİALLARI ƏSASINDA)

**Musayeva Ləman**
*Milli Azərbaycan Tarixi Muzeyinin*
*Azərbaycan tarixinin elmi tədqiqi*
*və təqdimi şöbəsinin elmi işçisi*
*lemanmemmedovamusayeva@gmail.com*

Azərbaycanda bitki anatomiyasının əsasını qoyan, biologiya sahəsində elmlər doktoru elmi dərəcəsini və akademik adını almış ilk azərbaycanlı qadın Validə Tutayuq 1914-cü il sentyabrın 23-də Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşada anadan olmuşdur. Akademik Validə Tutayuq Azərbaycanda botanika elminin inkişafına sanballı töhfələr verib və kənd təsərrüfatı sahəsində milli elmi-pedaqoji kadrların yetişdirilməsində təqdirəlayiq fəaliyyət göstərib.

Validə Tutayuq biologiya elminin inkişafı tarixində böyük xidmətlər göstərmiş çoxprofilli biliyə malik alim olub, anatomiyaya dair tədqiqatları ilə Azərbaycanda bitki anatomiyasının əsasını qoyub. V.Tutayuqun elmi fəaliyyəti əsas etibarilə iki istiqamətdə inkişaf edib. O, genişprofilli morfoloq və dendroloq bəzək bağçılığı və yaşıllaşdırma sahəsində mütəxəssis kimi tanınıb. Alimin müxtəlif örtülütoxumlularda çiçəyin normal və qeyri-normal quruluşunu öyrənmək sahəsində tədqiqatların nəticəsi olan "Çoxləçəkli çiçəklərin quruluşu" monoqrafiyası çiçəyin mənşəyinin öyrənilməsində bir sıra prinsipial nəzəri məsələlərin aydınlaşdırılmasında mühüm rol oynayıb.

250-dən artıq elmi əsərin, o cümlədən 10 dərslik və 9 monoqrafiyanın müəllifi olan Validə Tutayuqun kitabları hələ sovet hakimiyyəti dövründə ingilis, rus, gürcü və digər xarici dillərə tərcümə olunub. Əməkdar elm xadiminin "Bitkilərin anatomiya və morfologiya" kitabı hətta Avropanın ali məktəblərində dərslik kimi də istifadə edilib.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın simvolu olan "Xarı bülbül" çiçəyini kəşf edən də məhz Validə xanım Tutayuq olmuşdur.

Azərbaycanın elm tarixində ən ali zirvəni fəth etmiş akademik Sovetlər dönəmində üstündən sükutla keçdiyi zadəgan irsiyyətinə sahib idi. Muzeyin fondlarında Validə xanımın və ana babası Bəhmən Mirzə Qacarın portreti qorunub saxlanılır. Sovet istibdadı zülmündən çəkilən ağır yaralara sinə gələrək "külündən doğulanlar" sırasına öndərlik etmiş akademikin məşəqqətli və şərəfli həyat yolu bir çox qadınlara örnək ola biləcək qədər maraqlıdır.

# AZƏRBAYCAN QADINI: TARİXDƏN GÜNÜMÜZƏ!

**Kərimova Leya**
*AMEA Gəncə Bölməsi*
*kiçik elmi işçi*
*leynanu@gmail.com*

Yaxın keçmişimizə nəzər salsaq, görərik ki, kişilərlə bərabər qadınlar da istər cəmiyyətdə, istərsə də müharibədə düşmənə qarşı çiyin-çiyinə vuruşmuşlar. Azərbaycan qadını tarixdə bir çox çətin sınaqlardan keçməli olub. İgid oğullarla yanaşı, qadınlar da el-obasının qeyrətini çəkib. Elin yağı düşməninə qarşı döyüşlərdə bilavasitə iştirak ediblər. Ailəsində olduğu kimi, savaşlarda da fədakarlıq və qəhrəmanlıq nümunələri sərgiləyiblər. Yeri gəlib, həyat yoldaşlarını, oğullarını, qardaşlarını əvəz edib torpaqlarımıza göz dikən məkrli düşmənlərə öz dərin zəkası, ağlı ilə layiqli cavab verib, at minib, müxtəlif silahlarla silahlanıb, qəhrəmanlıq göstəriblər.

Necə ki, dahi şairimiz Nizami Gəncəvi "Xəmsə"də qadına verdiyi dəyəri aşağıdakı şeirdə göstərmişdir:

Bir şəxs qadındır deyə namərd sayılmaz,
Namərd ona derlər ki, onun qayğısı olmaz.
Dünyada nə qədər aslan kimi erkək qadın var,
Erkək sayılan çoxları var ki, qadındır!
Qadın anadır, qadın həyat yoldaşıdır.

Eramızdan əvvəldən ta bu günə kimi Azərbaycan tarixində iz qoymuş qadınlarımızın fəaliyyətləri əfsanəyə çevrilərək təfəkkürümüzə hopmuş, neçə-neçə Azərbaycan qadını xalqımızın zəngin mənəvi keçmişinin müəllifləri olmuşlar.

Azərbaycan qadınları tarix boyu müdrik, vətənə, torpağa sədaqətli, cəsur və qorxmaz olmaqla bərabər, bir çox çətin vəziyyətlərdə düzgün yol seçməyi bacarmış, uzaqgörən siyasət yeridərək kişiləri də bu yola istiqamətləndirmişlər.

Qadının istər ailədə, istərsə də cəmiyyətdəki layiqli mövqeyi, ilk növbədə, xalqın yüksək mənəvi keyfiyyətinin, o cümlədən dövlətin inkişafının və xoşbəxt gələcəyinin göstəricisidir. Fərəhli haldır ki, bu deyilənləri Azərbaycan cəmiyyətində görmək mümkündür. Əminliklə deyə bilərik ki, ölkədə həyata keçirilən siyasət və xalqımızın yüksək mənəvi keyfiyyətləri qadınların cəmiyyətdəki layiqli mövqeyini daim qoruyub saxlayacaqdır.

# TÜRKİYƏ RESPUBLİKASININ İLK QADIN HÜQUQŞÜNASI SÜRƏYYA AĞAOĞLUNUN XATİRƏLƏRİNDƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QADINLARIN TÜRKİYƏNİN İCTİMAİ HƏYATINA CƏLB EDİLMƏSİ

**Ağayeva Natavan**
*AMEA akad. Z.M.Bünyadov*
*adına Şərqşünaslıq İnstitutu*
*n.aghaeva@gmail.com*

XX əsrin əvvəli dünya tarixində ictimai-siyasi fırtınaların, böyük imperiyaların siyasi xəritədən silinməsinin və bir sıra inqilabların baş verdiyi bir dövrdür. Bu önəmli hadisələrin gətirdiyi itkilərlə yanaşı, böyük imkanlar da ortaya çıxmışdı. Həmin imkanlardan biri qadınların öz huquqları uğrunda mübarizəyə başlamalarıdır. Belə ki, Avropa ölkələrində müxtəlif qadın cəmiyyətlərinin təsis edilməsi, qadınların səsvermə və seçki hüquqlarının tanınması üçün aparılan irimiqyaslı tədbirlər və qadınların ictimai həyatda oynadıqları rollarının daha aydın görülməsi və önə çəkilməsi uğrunda aparılan mübarizələr bir sıra ənənəvi cəmiyyətlərin dəyişməsinə gətirmişdi.

Adını tarixə yazan bu qadınlardan biri Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun qızı, Türkiyə Respublikasının ilk qadın vəkili Sürəyya Ağaoğlu idi. Türkiyə İstiqlaliyyət müharibəsinin qələbəsindən sonra hökumətin qarşısında duran ən mühüm vəzifələrdən biri cəmiyyəti "bürünmüş olduğu qaranlıqdan" qurtarmaq idi. Bunun üçün bəzi konservativ qüvvələrin etirazlarına baxmayaraq, qadınların ictimai həyata cəlb edilməsi, onların vətəndaşlıq və siyasi hüquqlarının kişilərlə bərabər tutulması prioritet məsələlərdən biri kimi dövlətin qarşısına qoyulmuşdur. Bütün bu proseslərdən keçən və birbaşa şahidi olan Sürəyya Ağaoğlu keçdiyi yolu öz xatirələrində geniş şəkildə qələmə almışdır. Dərin maraq doğuran bu xatirələr XX əsrin əvvəlində dəyişən dünyada türk qadınlarının yeni rolunun mənzərəsini təsvir etmək imkanı yaradır.

# “HƏLİMƏ GÜNÜ” NABİĞƏ ZÜBYANİNİN QƏSİDƏSİNDƏ

**Bağırova Natəvan**
*Nizami Gəncəvi adına Milli*
*Azərbaycan Ədəbiyyatı Muzeyi*
*natavan.kanan@mail.ru*

“Əyyamul-arab”ın məşhur vuruşlarından biri Həlimə günü adlanan müharibədir. Döyüş Hirə hökmdarı Munzir ibn Maus-Səmanın Ğəssani hökmdarı Haris ibn Cəbələyə (Haris əl-Ərəc) atasının intiqamını almaq məqsədilə elan etdiyi müharibədir. Hirə hökmdarı Munzir ona belə xəbərdarlıq edir: “Sənə üstündə təcrübəli döyüşçülər olan ayğırlar hazırlamışam”. Haris əl-Ərəc isə ona belə cavab verir: “Mən də sənin qarşına qısır atların tərkinə minmiş bığ yeri yenicə tərləyən cavanlar çıxaracağam”. Hər iki hökmdarın ordusu Həlimə çəmənliyi adlanan yerdə qərarlaşır. Heç bir tərəfin qalib gəlmədiyi müharibənin günlərcə uzandığını görən Ğəssani hökmdarı Haris saraya qayıdıb dövrünün ən gözəl qadını olan qızı Həliməyə ətir düzəldib ordunun əsgərlərinə paylamağı tapşırır. Həlimə iri qablarda ətirlər düzəldib ordudakı əsgərlərə paylayır. Hökmdar belə şərt kəsir ki, hansı döyüşçü Munziri qətlə yetirsə, qızım Həliməni ona verəcəyəm. Ona görə bu vuruş tarixə Həlimə günü ( يوم حليمة ) kimi düşmüşdür.

Məşhur ərəb şairi Nabiğə əl-Zübyani bu münasibətlə Ğəssani hökmdarı Harisi mədh edir. Bə hərfi ilə qafiyələnən qəsidə-mədhiyyə şairin qızı Umeyməyə müraciətlə başlanır. Uzun gecənin və qəm-qüssənin çoxluğundan gileylənən şair sonrakı beytlərdə Ğəssanilərin digər qövmlərdən əsas üstünlüklərindən daim rifah içində yaşamalarını, uzaqgörənlik və səxavətin onların fitrətində olduğunu, səmavi din olan nəsraniliyə məxsus olduqlarını dilə gətirir. Nabiğə döyüş zamanı hökmdar Harisin ordusunun yenilməz gücünü əcdadlarından miras aldığı üçün təəccüblənmədiyini bildirir. Qəsidə klassik ərəb şeirinin ənənəvi üslubunda yazılmış, təşbeh, metafor və mübaliğə kimi məcazlardan istifadə olunmuşdur.

# FƏRMAN KƏRİMZADƏNİN QADIN OBRAZLARI QƏRBİ AZƏRBAYCAN DƏYƏRLƏRİ KONTEKSİNDƏ

**Sərdarova Mehriban**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Elmi Tədqiqat Mərkəzi, elmi işçi*
*mehribanserdarova@mail.ru*

Fərman Kərimzadənin yaratdığı qadın obrazlarını Azərbaycan namusunun təcəssümü hesab etməsini obrazların daxili aləmini, əsərdə canlanan fəaliyyət tərzlərini, digər obrazların onlara münasibətini ifadə edən fikirlərdən öncə öz dilindən eşitmək, düşünürəm, daha məqsədəuyğundur. 1986-cı il noyabr ayında Qərbi Azərbaycanın Vedi rayonuna səfərində bu araşdırmanın müəllifinə avtoqraf yazır: "Mehriban qızım, sənə Sara Xatun, Bağda Xatun taleyini arzulayıram! Onların hər ikisinin bu torpaqla əlaqəsi var. Azərbaycan namusunu sizə tapşırıram".

Göründüyü kimi, Fərman Kərimzadə onun akademik tədqiqatçılarının da vurğuladığı kimi, ədəbiyyatımıza, bununla həm də mənəviyyatımıza gətirdiyi bənzərsiz obrazlarla Qərbi Azərbaycan dəyərlərini həm fərqləndirir, həm də onu bütöv Azərbaycan namusu dəyəri kimi təqdim etməklə əsərlərinin yaddaşında gələcəyə ötürür.

Təsadüfi deyil ki, avtoqraf nümunəsində üzünü gəncliyə tutub ən ali dəyərləri onlara tapşırması göstərir ki, əsərlərində tərənnüm etdiyi ideallların ötürücüsü məhz özüdür.

Azərbaycan namusu Fərman Kərimzadəyə görə, Sara Xatunun, Bağda Xatunun daşıdığı keyfiyyətlərdir: müdrik, elin qeyrətini çəkən, etibarlı, qorxmaz, ərinin, oğlunun qeyrətini qoruyan, mənliyini qorumaq üçün hər an ölümün gözünə dik baxan, həbsxanalarda belə qürurunu sındırmayan, ayrılığı mətanətlə qarşılayan...

Yazıçının yaratdığı hər qadın özünəməxsus bir dəyərdir: Sara Xatun, Bağda Xatun, Aləmşahbəyim, Taclıbəyim, Bəhruzəbəyim, "Qarlı aşırım"da İmanın yoldaşı Növrəstə, Xəlilin yoldaşı Süsən hər tarixi şəraitin öz ruhuna uyğun bir ümumi dəyər orbiti ətrafında fırlanır, bunun ümumi adı Fərman Kərimzadə dəyərlər sistemində namusdur! İstər "Qarlı aşırım" da, istər "Xudafərin körpüsü"ndə, istər "Çaldıran döyüşü"ndə, istərsə də "Təbriz namusu"nda – axırıncıda namus Təbriz zirvəsinə qalxaraq özünün bütün mahiyyətini ifadə edir.

Qeyd edilməlidir ki, Fərman Kərimzadənin bənzərsiz Kərbəlayı İsmayıl, Abbasqulu bəy kimi kişi obrazlarının daşıdığı xüsusiyyətlər özünəməxsus koloritli Vedi dəyərlərinin ümumiləşmiş obrazı olduğu kimi, qadın obrazları da eldən, nəsildən gördüyü, eşitdiyi ali dəyərlərin daşıyıcısı olan qadınların timsalında qələmə alınıb.

# HƏRBİ VƏZİFƏDƏ İŞLƏYƏN İLK AZƏRBAYCANLI QADIN

**Nəzərova Aynur**
*AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*baş mütəxəssis*
*xubanova77@mail.ru*

General Əliağa Şıxlinskinin ömür-gün yoldaşı, Azərbaycanın ilk hərbi şəfqət bacısı Nigar Şıxlinskaya milli maarifçilik tariximizə parlaq imza atmış qadınlarımızdandır. Onun həyatı hər bir türk qadını üçün örnəkdir. Tiflisdə nüfuzlu ziyalı ailədə dünyaya gələn (1871) Nigar xanım 1889-cu ildə Nücabə Qızlar İnstitutunu qızıl medalla bitirərək, təhsil tariximizə ilk diplomlu xanım kimi düşmüşdür.

Mötəbər hərbi xadim olan həyat yoldaşının, sözün əsl mənasında, həyat dostu olmuş bu fədakar xanım Birinci Dünya müharibəsində Artilleriya zabitləri məktəbinin nəzdindəki qadınlar komitəsinin sədri kimi, yaralı əsgərlərə yardım məqsədilə əzmkarlığı sayəsində Qırmızı Xaç Cəmiyyəti yanında hərbi xəstəxananın açılmasına nail olur. Şərq dilləri ilə yanaşı, Qərb dillərinə də maraq göstərmiş Nigar xanım əsgərlərə qulluqdan savayı, savaş qurbanlarının ailələrinə rus, tatar, qazaxca təsəlli məktubları göndərirdi. Təkmil savad almış bu azərbaycanlı xanımın fransızca danışığına isə fransız general Dezavye heyran qalmışdı. Fətəli xan Xoyski və Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilən Qızıl Aypara Cəmiyyətinin "Şəfqət xidməti"nin yaradılması da onun adı ilə bağlıdır.

Tiflisdə "Qafqaz qadınlarının xeyriyyə cəmiyyəti"nə ömürlük üzv seçilən Şıxlinskaya Azərbaycan qadınlarının təhsili məsələləri ilə yaxından məşğul olurdu. Ana dilimizin saflığının qorunması uğrunda Əliağa Şıxlinski milli hərbi lüğətimizin banisi kimi adını tarixə yazdırmışsa, Nigar xanım da klassik irsimizi inkar edənlərə, Azərbaycan dilini mükəmməl bilməyənlərə qarşı silsilə məqalələrlə çıxış edirdi, eyni zamanda Nizami Gəncəvinin azərbaycanlı olmasını yazan tədqiqatçılardan biri kimi, şairin farsca yazmasının tarixi səbəblərini şərh etmişdi.

Geniş dünyagörüşünə, biliyə, yüksək mədəni səviyyəyə malik olan Nigar Şıxlinskayanın Azərbaycan xalqının ümumi inkişafı və mədəni yüksəlişi uğrunda xidmətləri böyükdür.

# LEYLA ƏRBİLİN "QƏRİBƏ BİR QADIN" ROMANINDA QADIN HÜQUQSUZLUĞUNUN TƏSVİRİ

**Cəfərova Aynur**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti,*
*Türkologiya mərkəzinin türk dili bölməsinin mütəxəssisi*
*ceferova1987@internet.ru*

Yazdığı "Qəribə bir qadın" əsəri ilə öz prototipini yaradan XIX əsrin əsas simalarından biri də türk qadın yazarı Leyla Ərbildir. O, türk ədəbiyyatında üslubu ilə özünəməxsus bir yer tutmuşdur. Romanda bir qadının ailədə, çevrə və evlilikdə yaşadıqlarını qələmə almışdır.

Roman "Qız", "Ata", "Ana", "Qadın" başlığı ilə dörd hissədən ibarətdir. Nərmin Həsən ilə Nuriyənin qızıdır, ədəbiyyat bölməsinin tələbəsidir. Dövrünə görə fərqli düşüncələrə sahibdir. Ata və ana mühafizəkar tiplərdəndir. Nərminin atası dənizçidir evdə olanlardan xəbəri olmayan, sözü keçməyən bir adamdır, qızını başa düşməyə çalışsa da, düşüncələrini qəbul edə bilmir. Nərmin fərqli düşüncəli, dini qəbul etməyən bir gəncdir, hətta atası ölüm ayağında belə qızının Allaha inandığını eşitmək istəsə də, Nərmindən "Tanrı yoxdur" sözünü eşidir. Ana davamlı dinə və adət-ənənələrə dəyər verən təkliflər verir. Bu basqıya görə Nərmin üçün ev hüzursuz bir məkandır.

Nərmin yazıçı və şairlərlə söhbət etməkdən xoşlanır. O, kişilərin olduğu toplumda özünü təsdiqləmək fikrindədir. Buradakı yazıçı və şairlərin hamısı kişidir. Öz şeirlərini cəsarət edib paylaşsa da, heç kim tərəfindən bəyənilmir, bütün ümidləri qırılır. Məyusluğunu dostu olan Maral və Xalidlə söhbət edərək unudur.

Təzyiqlərdən yorulan Nərmin çarəni istəmədiyi Bedri ilə evlilikdə görür. Evləndikdən sonra da mücadiləsinə davam edir. Hətta aşağı gəlirli insanların dünyasını başa düşmək üçün köçür. Ancaq insanlarla ünsiyyət qurmaq, maarifləndirmə nöqtəsində uğursuz olur. Bədri ona dəstək olsa da, sonralar onun xalqı anlamamasına görə Nərminlə mübahisə edərək onu tərk edir. Nərmin anasının yanına dönür. Həyat yolunda sosializmi seçsə də, bu, yolun sonunda məyusluğa uğraması ilə sona çatır.

Leyla Ərbil qadının çox haqq əldə etsə də, sosial həyatda hələ də haqsızlıqların mərkəzində olmasını vurğulamış, cəmiyyətdə olan problemləri bir qadının timsalında göstərmişdir.

# İRƏVAN QADINLARININ TƏHSİLƏ VERDİYİ ÖNƏM

**Ələkbərova Lalə**
*AMEA Nizami Gəncəvi adına*
*Ədəbiyyat İnstitutu*
*elekberova.lale@mail.ru*

Azərbaycan türklərinin qədim məkanı sayılan İrəvan şəhəri Çar Rusiyasının işğalına qədər Azərbaycan türklərinin hakimiyyəti altında olmuşdur. İşğal edildikdən sonra ermənilərin kütləvi şəkildə köçürülməsi ilə yalnız əhali balanslaşması pozulmamış, eyni zamanda müsəlman – türk əhalini buradan sıxışdırıb çıxartmağa çalışan yeni gələn yəni "dağdan gəlib bağdakını qovan" ermənilər bütün tarixi mədəniyyət abidələrini də məhv etmişlər.

Qədim Şərq mədəniyyətinin intişar edib genişləndiyi dövrdən mədəniyyət mərkəzinə çevrilən Azərbaycan şəhərləri mədəni inkişafı və rifahı hər zaman qoruya bilmişdir. Müharibələr zamanı dağılmalarına baxmayaraq, Azərbaycan şəhərləri yenidən mədəniyyət və ticarət mərkəzinə çevrilmişdir. Bunun üçün mühüm amillərdən biri də təhsildir ki, xalqın gələcəyi hər zaman təhsilin üzərində qurulmuşdur. Hətta Çar Rusiyasının işğalından sonra belə Azərbaycan türkləri təhsilə, xüsusilə qadınların təhsilinə önəm vermişlər. Belə ki, Zeynalabdin Tağıyevin açdığı qızlar məktəbindən əvvəl 1905-1906-ci illərdə Qafqazda ilk dəfə olaraq İrəvanda müsəlman qızlar məktəb-pansionu açılmışdır. Bu məktəb Azərbaycanda ilk qadın məktəbi hesab olunur. Bundan öncə, yəni 1881-ci ildə İrəvan quberniyasında İrəvan gimnaziyası və Uluxanlı məktəbi fəaliyyətə başlamışdır.

Nazim Mustafanın "İrəvan şəhəri" kitabında qadınların təhsili haqqında məlumat verilir: "İrəvanda fəaliyyət göstərən məktəblərdən biri də Müqəddəs Ripsime qızlar məktəbi idi. 1850-ci il yanvarın 2-də ... Müqəddəs Ripsime qadın məktəbi təsis edilmişdir. 9 iyul 1884-cü ildə bu məktəb üçsinifli qadın progimnaziyasına çevrilmişdi. 30 may 1898-ci ildə isə progimnaziya hazırlıq sinfi də təşkil edilməklə səkkizsinifli qadın gimnaziyasına çevrilmişdi. Ödənişli olan bu məktəbdə imkanlı azərbaycanlıların qızları da təhsil alırdılar. Təkcə 1916-1918-ci illərdə Müqəddəs Ripsime gimnaziyasını 36 azərbaycanlı qız bitirmişdi".

Mənbələrdən aydın olur ki, İrəvan şəhərinin əhalisi oğullarla bərabər qızların təhsilinə də mühüm yer vermiş və ilk dəfə qadınlar üçün məktəb açmağa nail olmuşdur.

# TARİX VƏ ƏDƏBİYYAT AYNASINDA QADIN OBRAZLARI

**Abdullazadə Lalə**
*Azərbaycan Dövlət Aqrar Universiteti,*
*Gəncə şəhəri*
*Laleabdullazada@gmail.com*

Birləşdirmə, əlaqələndirmə gücünə malik təbliğ edən və informasiya verən ədəbiyyat tariximiz, həyat tərzimiz, gələcəyimiz, əldə etdiklərimiz və itirdiklərimiz, gümanımız və inamımızı əks etdirir. Əsas qəhrəmanı insan olan ədəbiyyat bütün vasitələrlə həyatın dərkini öyrənməyə, həm də öyrətməyə xidmət edir. Beləcə, ədəbiyyat öz obrazlar sistemi, sujeti, ideyası, qoyduğu konflikt ilə birgə cəmiyyətin güzgüsüdür. Buna görə də hər zaman yazıçı və şairlər ədalətlilik prinsipini qorumağa çalışmışlar. Yazıçı və şairlərin mənsub olduqları milliyyət, tarix, cəmiyyət, din onların düşüncəsinə, yaradıcılıqlarına da təsirsiz ötüşməmişdir. Bu təsirin nəticəsini biz ideya, xarakter, konflikt, forma və məzmun seçimində görürük. Məsələn, ədəbiyyatda qadınların rolu və yeri hər bir xalqın, cəmiyyətin daxilində gedən proseslərdən asılı olaraq dəyişir. Əgər Avropa ədəbiyyatında XVIII əsrdən başlayaraq qadınlar dinamik bir obraza çevrilməyə başlayırsa, Şərqdə qadının passivlikdən dinamikliyə doğru inkişafını XX əsrdə müşahidə edə bilirik. Həmin dövrün ictimai-siyasi dəyişiklikləri xalqın dünyagörüşünə, yaşam tərzinə təsir edir və maarifçilik meyillərini gücləndirir. Xalqın və cəmiyyətin yeni sosial-siyasi mahiyyəti qadına olan münasibəti də dəyişir. Bu hadisələr zəminində ədəbiyyatda da fərdiləşdirmə və tipikləşdirmə prinsipi ilə qruplaşdırılan qadın xarakterlərinin çoxalması müşahidə olunur. Nəticədə, daxilən və zahirən gözəl olan ənənəvi qadın obrazları dərin mürəkkəb xarakterlərə çevrilir. Deməli, qadının cəmiyyətdə və ədəbiyyatda arxa planda qalmasının səbəbi, Otto Veyningerin vurğuladığı kimi, zəka geriliyi yox, cəmiyyətdəki mentalitet, bərabərsizlik, savadsızlıqdır.

Özündən əvvəlki obrazyaratma üsullarından bəhrələnən Mustafa Çəmənli də əsərlərində maraqlı insan surətləri yaratmağı bacarmışdır. Onun əsərləri dilinin, obrazlarının rəngarəngliyi ilə seçilir. Yazıçı tarixiliyə, milli kökə bağlılığı ilə diqqəti çəkir. Onun Səfəvilər xanədanının I Şah Təhmasib və II İsmayılın dövrünü əhatə edən "Ölüm mələyi" tarixi romanında yaratdığı qadın obrazlarının daxili dünyası səciyyəvi hadisələr fonunda açılır. Yaşadıqları tarixi mühit qəhrəmanların şəxsiyyətini formalaşdıran vasitə kimi təqdim olunur.

# N.VƏZİROVUN “MÜSİBƏTİ-FƏXRƏDDİN” ƏSƏRİNDƏ QADIN OBRAZLARI

**Sadıqova Könül**
*ADPU-nun Elmi Tədqiqat Mərkəzi,*
*elmi işçi*
*ksadiqova112@gmail.com*

N.Vəzirov (1854-1926) Şuşa ədəbi mühitinin nümayəndələrindən olub, XIX əsrin 70-ci illərindən bədii yaradıcılığa başlamışdır. Realist dramaturgiyanın inkişafında əvəzsiz xidmətləri olmuş ədib 90-cı illərdən etibarən bir-birinin ardınca “Daldan atılan daş topuğa dəyər”, “Sonrakı peşmançılıq fayda verməz” (1890), “Adı var, özü yox” (1891), “Yağışdan çıxdıq, yağmura düşdük” (1895) və s. kimi yazmış olduğu əsərlərlə köhnəliklə yenilik, zalımlarla məzlumlar arasındakı ziddiyyətləri bütün çalarları ilə göstərməyə çalışmışdır.

“Müsibəti-Fəxrəddin” (1896) faciəsi belə əsərlərdən biri olub, köhnəliklə yenilik, zalımlarla məzlumlar və s. arasındakı ziddiyyəti, dərin uçurumu əks etdirir. Faciədəki ziddiyyət, “dərin uçurum” əsərin qadın obrazlarının fonunda Səadət xanım və əks mövqedə dayanan Mələk xanım obrazlarının fonunda da öz əksini tapmış olur.

Mələk xanım yaşına, öz həyat təcrübəsinə baxmayaraq, daim kin-küdurətlə yaşayır, bu kinin, düşmənlə aparılmış və aparılacaq mübarizənin ona, xüsusilə övladlarına verəcəyi nəticələri, fəsadları düşünmür, bir ağbirçək və bir ana kimi növbəti münaqişənin yaranmasına, qarşısının alınmasına mane olmaqdansa, hadisələrə birtərəfli, yalnız öz eqoist mövqeyindən yanaşır və müəllif bu cür obrazların fonunda əksərən insanların törətmiş olduqları və ya olacaqları fitnə-fəsadın acı nəticələrini göstərir.

N.Vəzirov əsərdə Mələk xanım, Səadət xanım və s. kimi obrazların timsalında qadın təbiətini olduğu kimi, bütün çalarları ilə ifadə etmişdir. Əsərdə əks mövqedə dayanmış Səadət xanım yaşının azlığına, “təmsil etdiyi ailənin” bir üzvü olmasına baxmayaraq, fikirləri, həyata baxışı etibarilə digər qadın obrazlarından, hətta əsərdə müti obraz kimi öz ifadəsini tapmış Gülbahar xanım obrazından fərqlənir.

N.Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərindəki hadisələrin gedişatı bir daha onu göstərir ki, qadının xarakterindən, həyata baxışından, bəzən təhsilindən asılı olaraq, onun cəmiyyətdəki yeri, proseslərin inkişafına təsiri hər zaman öz aktuallığını qoruyub saxlayır.

# AZƏRBAYCANDA QADINA İNANC
# (QƏDİM DÖVRƏ AİD ARXEOLOJİ TAPINTILAR ƏSASINDA)

**Məmmədova Bədircahan**
*AMEA Arxeologiya, Etnoqrafiya və*
*Antropologiya İnstitutunun Dəmir dövrü*
*arxeologiyası şöbəsinin elmi işçisi*
*bcahan1957@gmail.com*

Azərbaycanın zəngin maddi mədəniyyət irsini təmsil edən arxeoloji tapıntılar müxtəlif tarixi mərhələlərə aid sosial-iqtisadi, mədəni əlaqələrlə yanaşı, həm də inanc sistemini açıqlayan dəyərli faktlardır.

Məqalədə arxeoloji tapıntılar (məişət qabları, heykəlciklər və s.) əsasında Azərbaycanda qadına inanc, sitayişlə əlaqədar fikirlər təqdim edilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya Fondunda qorunan e.ə. I minilliyin sonu – eramızın ilk əsrlərinə aid məhsuldarlıq ilahəsini təmsil edən heykəlciklər Qobustan qayalarındakı qadın təsvirləri ilə bənzərlik təşkil edir. Qədim azərbaycanlıların erkən dini inancını büruzə verən belə heykəlciklər əksər hallarda başsız halda aşkarlanırlar. Bunun səbəbi isə bəzi dini inanclara əsasən, onların evdəkilərə kömək olmadıqda başlarının sındırılmasında idi. Belə heykəlciklərin qadına aid olmasını bədən əzalarına əsasən müəyyən etmək mümkündür.

Arxeoloji faktlara əsasən, belə tapıntılar nəinki Azərbaycanın, həm də Türkiyə, Rusiya və Orta Asiyanın müxtəlif məkanlarında aşkarlanmışdır. Müxtəlif təsnifat qruplarına bölünən qadın heykəlcikləri (kiçik bütlər və s.) müasir dövrümüzdə “antropomorf plastika” adı ilə təmsil olunur.

Müasir dövrümüzdə nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın və digər dünya muzeylərinin ekspozisiyalarında, müxtəlif sərgilərdə nümayiş olunan belə faktlar qədim insanlarda qadına hörmətin məhz Ana Tanrıya olan sitayiş şəklində büruzə verdiyini təsdiq edir.

# ZÜLFİYYƏ İSRAİLOVA YARADICILIĞINDA ÖZBƏK QADINININ BƏDİİ OBRAZI

**Cəfərova Sayalı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Türkologiya mərkəzinin Türk ədəbiyyatı*
*bölməsinin mütəxəssisi*
*saya.jafarova@mail.ru*

